Hər kəs ədalətli olacaq
ƏDALƏT

## Nazir Gəncədə vətəndaş qəbulu və sıra baxışı keçirdi



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 14-də və 15-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.

Adalet.az xəbər verir ki, nazir əvvəlcə Gəncə şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Gəncə, Kəlbəcər, Xocalı, Goranboy, Samux, Göygöl, Naftalan və digər rayonlardan qəbula gələn 120 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Qaldırılan məsələlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Bax:səh-3

## Prezident: “Qəzzadakı gərginliyin tezliklə aradan qaldırılacağına ümid edirik”



**“Biz Qəzzadakı gərginliyin tezliklə aradan qaldırılacağına ümid edirik”.**

Adalet.az xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasa ünvanladığı məktubda əksini tapıb.

”Azərbaycan Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirmiş və bu məsələnin BMT-nin müvafiq qətnamə və qərarlarına uyğun olaraq iki dövlət prinsipi əsasında həllini dəstəkləyir. Ölkəmiz BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinə bundan sonra da dəstək göstərməyə davam edəcəkdir”, - məktubda bildirilib.

## Ermənistan dərsini alıb



Adalet.az xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan partiyasının qrup iclasında çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, Ermənistan Qarabağ savaşı ilə dərsini alıb, yerinə oturdulub.

## Azərbaycan qardaşımızdır, əməkdaşlığımız daha da güclənəcək



”Azərbaycan bizim qardaşımızdır”.

Adalet.az xəbər verir ki, bunu Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar Şimali Kiprin yaranmasının 40-cı ildömümü münasibətilə keçirilən tədbirdə deyib.

O bildirib ki, oktyabrda Azərbaycana səfər edib: ”Prezident İlham Əliyevlə görüşdük. İnşallah, Azərbaycanla əməkdaşlığımız daha da güclənəcək. Qarabağ müharibəsində Azərbaycanın yanında olduq. Fürsətdən istifadə edib Qarabağ Zəfəri münasibətilə Azərbaycanı bir daha təbrik edirəm”.

## Mehriban Əliyeva ”Fələstin üçün tək ürək” toplantısının iştirakçılarına müraciət etdi



**Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın noyabrın 15-də İstanbulda keçirilən dövlət və hökumət başçılarının xanımlarının ”Fələstin üçün tək ürək” toplantısının iştirakçılarına müraciəti olub.**

Adalet.az Birinci xanım Mehriban Əliyevanın müraciətini təqdim edir:

”Hörmətli Əminə xanım,

Hörmətli toplantı iştirakçıları,

İlk növbədə Türkiyə Respublikasının Birinci xanımı, hörmətli Əminə Ərdoğana bu tədbirdə iştirak etmək üçün dəvətinə görə dərin təşəkkürümü bildirirəm.

Hörmətli Əminə xanımın humanitar və sosial sahələrdə fəaliyyətini, o cümlədən hərbi münaqişələrdən əziyyət çəkən mülki şəxslərə, qadınlara və uşaqlara yardım göstərilməsi məsələlərinə verdiyi töhfəni xüsusi qeyd edir və bunu yüksək qiymətləndirirəm.

Bu il yaranmasının 100-cü ildönümünü qeyd edən Türkiyə Respublikası bütün sahələrdə mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə böyük nüfuza malik qüdrətli dövlətdir. Qardaş Türkiyə daim sülhün və ədalətin yanında olaraq bölgədə və dünyada sabitliyin və təhlükəsizliyin təmin olunmasına önəmli töhfə verir. Azərbaycan-Türkiyə qardaşlığı və birliyi bu gün özünün ən yüksək səviyyəsindədir.

Hörmətli toplantı iştirakçıları,

İsrail-Fələstin münaqişə zonasında gərginliyin miqyasının gündən-günə genişlənməsi və daha böyük insan faciəsinə səbəb olması ciddi narahatlıq doğurur. Ürək ağrısı ilə izlədiyimiz dözülməz insan iztirabları hər birimizi dərindən sarsıdır. Bu silahlı qarşıdurmadan ən çox əziyyət çəkənlərin mülki şəxslər, xüsusilə də qadınlar və uşaqlar olması olduqca üzücüdür. Hərbi əməliyyatların aparılması zamanı beynəlxalq humanitar hüquqa riayət edilməsi zəruridir. Mən həlak olanların yaxınlarına başsağlığı verir, yaralananların tezliklə şəfa tapmasını diləyirəm.

Ardı:səh-2-də

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 44 (6037) 17 noyabr 2023-cü il | Qiyməti 40 qəpik

# Azərbaycan Vaşinqton görüşündən imtina etdi



**ABŞ-ın belə birtərəfli yanaşması ABŞ-ın vasitəçilik rolunu itirməsinə gətirib çıxara bilər. Bu şərtlər altında bizim 20 noyabr 2023-cü ildə Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində keçirilməsi təklif olunan görüşün baş tutmasını mümkün hesab etmədiyimizi qeyd etmək vacibdir.**

Adalet.az xəbər verir ki, bu, Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) ABŞ dövlət katibinin köməkçisi Ceyms Obrayenin Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində verdiyi əsassız açıqlamalarına dair şərhində əksini tapıb.

Bildirilib ki, beynəlxalq hüququn norma və prinsipləri Azərbaycan xarici siyasətində həmişə prioritet olub. Azərbaycan həmişə beynəlxalq öhdəliklərinə uyğun hərəkət edəcək. Eyni zamanda, Azərbaycan öz milli maraqlarına zidd olan bütün mənfi addımları qətiyyətlə və adekvat şəkildə cavablandıracaqdır.

## “Siz dövlət qurumlarını qoçuluqda ittiham edirsiniz?” - Spiker deputata irad tutdu



Milli Məclisin spikeri Sahibə Qafarova büdcə müzakirəsi zamanı bəzi deputatlara irad bildirib.

Adalet.az-ın məlumatına görə, spiker təəssüflə bildirib ki, bir neçə çıxışda dövlət büdcəsi barədə nəsə deyilmədi.

”Niyə bir söz tapıb, Xankəndinin büdcəsi barədə nəsə deyilmədi? Sonra da deyirsiniz ki, xanım sədr müdaxilə edir. Müdaxilə etməyim bəs nə edim? Biri deyir insanlardan qaçırıq. Biz nə zaman camaatdan qaçırıq?! Bu VI çağırışda deputatlar xalqla bir yerdə olan vaxtı bundan əvvəl nə vaxt olub?

Niyə məni bunu deməyə məcbur edirsiniz? Razi müəllim, sizə isə tövsiyə edirəm ki, çıxışlarınızın statistikasına baxasınız- qoçuluq və s. Siz nazirlikləri, dövlət qurumlarını nədə ittiham edirsiniz - qoçuluqda? Danışanda fikirləşin!”, - S.Qafarova əlavə edib.

## ERMƏNİLƏR MAKRONA OŞALA SUYU HƏDİYYƏ EDİBLƏR



Oxudum ki, Paşinyan Makrona erməni konyakı hədiyyə edib. Konyakı icad edən fransızlar, ruslar öz vodkaları ilə dünyaya meydan oxuyanda fransızlar da öz könyakları ilə dünyaya meydan oxu yublar. Necə olub ki, Makronun taxtabiti iyi verən erməni konyakından xoşu gəlib?

Cavan vaxtı mən də bir-iki dəfə dadmışam erməni konyakını. Göygöl, Göyçay, Şəmkir konyaklarının yanında oşala suyundan başqa bir şey deyil.

## “26-LAR” FİLMİNDƏ CAPARİDZE ÖZ GÜRCÜSÜNƏ NƏ DEYİR?



Güllələnməyə aparırlar, bir gürcü yaxınlaşır Caparidzeyə deyir:

- Sən gürcü, mən gürcü, bir sözün-filanın ola bilər

Caparidze də qayıdır:

- Gürcülər əcnəbilərin gündöyməzini öpməzlər.

Elə mən də bu fikirdəyəm, gürcü xalqını sevirəm. Amma hələ də başa düşmürəm ki, necə olub ki, fransızlara Ermənistana silah-sursatı öz ərazilərindən keçirməyə icazə veriblər. Görəsən, NATO gürcülərə nə vəd verib? Və gürcülər hələ də 2008-ci il olaylarından sonra Amerikaya və NATO-ya inanırlarmı? Filosoflardan birinin fikridi, adı yadımdan çıxıb, deyir ki: ”Kim məni bir dəfə aldadırsa axmaq adamdır, amma kim məni ikinci dəfə aldadırsa axmaq mənəm”.

Gürcü qardaşlarımızı axmaq yerində görmək istəməzdim.

## Ermənistan sülh sazişi ilə bağlı sənədin variantını iki aydan çoxdur yubadır



Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ”X” sosial şəbəkəsindəki hesabında yazıb.

”Bu ilin sonunadək sülh müqaviləsini imzalamağa hazır olmaları barədə ictimaiyyətin bəyanatlarına baxmayaraq, Ermənistan tərəfi sənədin öz variantını təqdim etməyi iki aydan çox yubadır.

Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, indi tarixi fürsətdir və xüsusilə Azərbaycanın suverenliyini bərpa etdikdən sonra sülh müqaviləsinin imzalanmasına heç bir maneə yoxdur. Ermənistanın buna nə dərəcədə hazır olması indi ciddi sual mövzusudur. Sülh müqaviləsinin mətni nüvə fizikası deyil. Azərbaycanın təklif etdiyi beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq, intensiv ikitərəfli danışıqlar yolu ilə sülh sazişinin mətni daha tez bağlana bilər. Top Ermənistanın meydanındadır!”, - deyə Hacıyev bildirib.

”Azərbaycan tərəfi Ermənistanın cavabının yaxın vaxtlarda təqdim ediləcəyi ümidi ilə ikitərəfli kanallar vasitəsilə Ermənistan tərəfinə müvafiq izahatlarla birlikdə sülh sazişinin düzəliş edilmiş 5-ci variantını təqdim edib”.

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi -

## Türkiyə ordusunun Azərbaycanda qalma müddəti daha bir il uzadılıb

**TBMM Azərbaycandakı Türkiyə hərbçilərinin fəaliyyət müddətini daha bir il uzadıb.**

**Adalet.az xəbər verir ki, müzakirələrin sonunda keçirilən səsvermədə təklif qəbul edilib.**

**Sənəddə Azərbaycan, Ermənistan və Rusiyanın imzaladığı Üçtərəfli Bəyannamədə nəzərdə tutulan fəaliyyətlərin davam etdiyi vurğulanıb.**

**Bildirilib ki, Azərbaycana güclü dəstək verən Türkiyə bundan sonra da regionda sülhün və sabitliyin qorunub saxlanılması və möhkəmləndirilməsinə mühüm töhfələr verəcək.**

**Xatırladaq ki, 2020-ci il noyabrın 17-də Türkiyə Böyük Millət Məclisi ölkənin Silahlı Qüvvələrinə qoşunlarını bir il müddətinə Azərbaycana göndərmək səlahiyyəti verib.**

**2021 və 2022-ci illərin noyabrında Türkiyənin Azərbaycandakı hərbçilərinin fəaliyyət müddəti bir il uzadılıb.**

## ARIQ YABILARIN YAYLAĞI




Azərbaycanın futbol klubları Avropanın, Afrikanın, hətta Cənubi Amerika ölkələrinin arıq yabılarının yaylağıdır.

Belə olmasa ölkə futbolunu Avropada təmsil edən "Neftçi", "Sabah" və "Qəbələ" komandaları (hələ o birilərində də var) bu gündə olmaz.

20-30 arıq yabıya pul xərcləyənəcən 5-6 normal qaça bilən at almaq olar.

## Ceyhun Bayramov Mərakeş şirkətlərini Qarabağa investisiya qoymağa çağırıb



**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Mərakeş investorlarını və şirkətlərini Azərbaycanın işğaldan azad edilmiş ərazilərində biznes və investisiya imkanlarını nəzərdən keçirməyə dəvət edib.**

**Adalet.az xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb.**

**Bildirilib ki, Ceyhun Bayramov Mərakeşdə keçirilən I Azərbaycan-Mərakeş Biznes Forumu zamanı Mərakeş investorlarını və şirkətlərini Ələt Azad İqtisadi Zonasında, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində və onun hüdudlarından kənarda biznes və investisiya imkanlarını nəzərdən keçirməyə dəvət edib.**

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## AZARKEŞSİZ FUTBOL "VODKA"SIZ XAŞ KİMİ BİR ŞEYDİR



*Aktyor çıxır səhnəyə, məsələn, günümüzün möhtəşəm aktyoru Nurəddin Mehdixanlı və baxır zala. Görür zalın yarıdan çoxu boşdu. O, necə və hansı hisslə istədiyi obrazı yarada bilər? Tamaşaçının isti nəfəsini hiss eləməyən aktyor yayın istisində üşüyür.*

*Futbol da belədir. Çıxırlar meydana, o boyda stadionda 200, bəzən 300 nəfər azarkeş var. Bunu görən futbolçu da Nurəddin Mehdixanlı kimi, yayın cırhacırında üşüyəcək. Nə oyun göstərəcək, kimə göstərəcək və kimin üçün oynayacaq?*

*Hamı Azərbaycan futbolçularından Avropa futbolu tələb edir. Sən özün avropalı azarkeşsənmi Avropa futbolu tələb edəsən?*

*Azərbaycan çempionatında bir-iki komandanı çıxmaq şərtilə digər klubların oyunlarına barmaqla sayılacaq azarkeş gəlir.*

Ardı:səh-2-də



## UKRAYNADA UDUZAN NATO

Müharibəni Qafqaza salmaq istədi, gücü çatmadı. Amma həvəsi qalıb, ona görə də getdi İsraillə Qəzzanın arasında saldı.

Bu oyunda kim uduzdu, kim uddu,

Peşmanı kim olacaq, bilmirəm.

## İlham Əliyev və xanımı "DOST EVİ" filialının açılışında



**Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının açılışında iştirak ediblər.**

Adalet.az xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. Bu baxımdan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasını da qeyd etmək olar. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi şəhid ailələrinin üzvləri, əlilliyi olan şəxslər, valideynini itirmiş uşaqlar, aztəminatlı ailələrin övladları sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının inkişaf etdirilməsidir.

Mərkəzin fəaliyyət istiqamətləri əsasən musiqi, təsviri incəsənət, rəqs, dulusçuluq, xalçaçılıq, toxuma, floristika, landşaft dizaynı və bağçılıq, bədii oyma, kulinariya, fotoqrafiya və sairdir.

Fəaliyyət dövrü ərzində 470 benefisiar Mərkəzdə müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlim, sosial pedaqoji və psixoloji xidmətlərdən yararlanıb. Hazırda Mərkəzdə 186 nəfərə xidmət göstərilir. Onlardan 131 nəfər əlilliyi olan şəxs, 21 nəfər valideynini itirmiş uşaq, 22 nəfər aztəminatlı ailələrin üzvləri, 12 nəfər isə şəhid ailəsi üzvüdür.

İsmayıllıdakı "DOST EVİ" də həmin Mərkəzin filialı kimi fəaliyyət göstərəcək.

Bildirildi ki, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialı Muğanlı-İsmayıllı yolunun 16-cı kilometrliyində yerləşir.

Müəssisə modern və konstruktiv elementlərlə, milli ornamentlər də əlavə olunmaqla müasir üslubda layihələndirilib, mühəndis sistemləri ən yüksək tələblərə cavab verir.

"DOST EVİ" birmərtəbəli olmaqla iki blokdan ibarətdir. Filialda 10 istiqamət üzrə 6 emalatxana - dulusçuluq, bədii oyma, misgərlik və zərgərlik, dərzilik və kəlağayı, xalçaçılıq, toxuma və bədii tikmə, un məmulatları emalatxanaları fəaliyyət göstərəcək.

Sərgi və Satış Mərkəzində benefisiarların hazırladıqları əl işlərinin nümayişi, həmçinin satışı həyata keçiriləcək. Hazırda "DOST EVİ"ndə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları tərəfindən dulusçuluq, bədii oyma, xalçaçılıq, toxuma və tikmə, dərzilik, təsviri incəsənət, floristika, bağçılıq və landşaft dizaynı istiqamətləri üzrə hazırlanmış əl işlərindən ibarət sərgi təşkil olunub. Sərgidə 150-dək əl işi təqdim edilir.

Diqqətə çatdırıldı ki, bölgədə yaşayan və "DOST EVİ"nə cəlb edilmiş əlilliyi olan şəxslər və digər həssas qrupların hazırladıqları sənətkarlıq nümunələrinin də burada nümayişi və satışı həyata keçiriləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "DOST EVİ"ndəki emalatxanalarla tanış oldular.

"DOST EVİ" bölgədə müvafiq peşə hazırlığı kursları üçün təlim bazası rolu oynamaqla yanaşı, özünüməşğulluq layihələrinin icrasına da dəstək olacaq. Burada 50 nəfərin məşğulluğu təmin ediləcək. Benefisiarlar, təlimçilər və digər işçilər əlilliyi olan şəxslər və digər həssas qruplar arasından seçiləcək.

Qeyd olundu ki, filialda 50-80 nəfər benefisiar üçün 6 ay - 2 il müddətində təlimlər-kurslar təşkil olunacaq və sonda onlara sertifikatlar veriləcək.

Əlilliyi olan şəxslər inklüziv kafe sahəsində işə cəlb edilərək ictimai iaşə xidmətləri təşkil olunacaq.

Burada qonaqlara ekoloji təmiz məhsullardan hazırlanan və milli kulinariya nümunələri olan keyfiyyətli qidalar, un məmulatları təqdim ediləcək. Filialın biomarket sahəsində ekoloji təmiz kənd təsərrüfatı məhsulları satılacaq.

Bir sözlə, "DOST EVİ" bölgədə yeni iş yerlərinin, o cümlədən əlilliyi olanlar, həmçinin digər həssas qrupların məşğulluq və gəlir imkanlarının artırılmasına, milli sənətkarlığın inkişafına və təbliğinə, bölgədə turizm imkanlarının genişləndirilməsinə, ekoloji təmiz məhsulların satışına, keyfiyyətli iaşə xidmətlərinin göstərilməsinə dəstək verəcək.

İsmayıllı rayonunda belə bir müəssisənin yaradılması, eyni zamanda, bu ərazinin abadlaşmasına imkan yaradıb.

## Mehriban Əliyeva "Fələstin üçün tək ürək" toplantısının iştirakçılarına müraciət etdi

*(Əvvəli səh-1-də).*

Azərbaycan hərbi əməliyyatların dərhal dayandırılması ilə bağlı çağırışları dəstəkləyir və son gərginliklə əlaqədar oktyabr ayında BMT Baş Assambleyasında qəbul edilmiş qətnamənin lehinə səs vermişdir. Ölkəmiz beynəlxalq hüquqa və BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq, İsrail-Fələstin münaqişəsinin "iki dövlət" prinsipi əsasında həllinin tərəfdarıdır. 2019-ci ildən etibarən Qoşulmama Hərəkatına sədrliyimiz dövründə Fələstin məsələsinə daim diqqət ayırmışıq. İnanıram ki, bu il Ramallah şəhərində ölkəmizin Təmsilçilik Ofisinin fəaliyyətə başlaması Azərbaycan-Fələstin əlaqələrinin inkişafına təkan verəcəkdir.

Son on il ərzində ölkəmiz BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyi xətti ilə dəfələrlə humanitar və maliyyə yardımı göstərmişdir. Eyni zamanda, Azərbaycan Fələstinə siyasi və maliyyə dəstəyinin cəlb edilməsi məqsədilə bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Bunların sırasında Fələstin Dövlətinə yardım məqsədilə İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin təsis konfransını və Qüds şəhərinin inkişafına dəstək məqsədilə donor konfransını qeyd etmək istərdim. Azərbaycan dövlətinin verdiyi təqaüd əsasında fələstinli gənclər ölkəmizdə ali təhsil alırlar. Azərbaycan tərəfindən Fələstində inşa ediləcək məktəb Fələstin xalqına dəstəyimizin növbəti təzahürü olacaqdır.

Geniş səlahiyyətlərə malik beynəlxalq təsisatların üzləşdiyi hazırkı böhran vacib məsələlərin həllini əngəlləyir. Dərin kökləri olan bu böhran başqa bir müzakirə mövzusudur. Qeyd etmək istəyirəm ki, müasir dövrdə hərbi münaqişələrin həll olunmaması böyük ölçüdə beynəlxalq hüququn selektiv şəkildə tətbiq olunmasından irəli gəlir. İkili standartlar və qərəzli yanaşma bu böhranın daha da kəskinləşməsinə şərait yaradır.

İctimai rəyin çaşdırılması və beynəlxalq hüququn manipulyasiyası üçün qərəzli media platformaları vasitəsilə yalan hekayələr yayılır. Bundan daha təhlükəlisi isə mənəvi dəyərlərdən manipulyasiya məqsədilə sui-istifadə olunması hallarıdır.

Ermənistanın Azərbaycana qarşı 30 il davam edən təcavüzü nəticəsində ərazilərimiz işğal olunmuş, bir milyona yaxın soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüş, 300-dən artıq şəhər və kəndimiz darmadağın edilmiş, dini və mədəni irsimiz dağıdılmışdır. Vaxtilə işğal edilmiş torpaqlarımızda 67 məsciddən 65-i yerlə-yeksan edilmişdir.

Təəssüflə qeyd etmək istərdim ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsi 27 il kağız üzərində qaldı. Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində torpaqlarını özü işğaldan azad etdi və bu ilin sentyabr ayında antiterror əməliyyatı ilə Ermənistan silahlı qüvvələrinin qalıqlarının mövcudluğuna və separatizmə son qoyaraq suverenliyini tam bərpa etdi.

Çıxışımın sonunda vurğulamaq istərdim ki, ən çətin məqamlarda belə bəşəriyyət mərhəmət hissini itirməməlidir. Buna görə də, hörmətli Əminə xanıma bu vacib tədbiri təşkil etdiyinə və dəvətinə görə bir daha dərin minnətdarlığımı bildirirəm".

# Milli Məclisdə 2024-cü ilin dövlət büdcəsi müzakirə edildi

## *Layihə birinci oxunuşda qəbul edildi*



**Cari həftənin 3 iş günü Milli Məclisin plenar iclaslarında Baş naziri Əli Əsədov və hökumət üzvlərinin iştirak ilə 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsi müzakirə edilib.**

İclası açan Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, gələn il sosial yönümlü xərclərin cari ilə nisbətən 1 milyard 35 milyon manat və ya 7 faiz çox olması nəzərdə tutulur. Dövlət büdcəsinin digər prioritetləri sırasında təhsil, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri, müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatı da vardır.

Spiker Sahibə Qafarova deyib ki, 2024-cü ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər parlament komitələrinin iclaslarında geniş müzakirə olunub və Milli Məclisin plenar iclasına tövsiyə edilib. Hesablama Palatası da büdcə zərfi barəsində müsbət rəyini bildirib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili layihə ilə bağlı nəzərə çatdırıb ki, beynəlxalq təşkilatların proqnozuna əsasən, 2024-cü ildə qlobal iqtisadi artımın 2.1-2.9% arasında olması gözlənilir. 2023-cü ilin yanvar-sentyabr aylarında neftin 1 barelinin orta aylıq qiyməti illik müqayisədə 21 ABŞ dolları və ya 20,7% azalaraq, 80,6 ABŞ dolları təşkil etmiş, 2024-cü ildə neftin 1 barelinin dünya bazarlarında orta qiymətinin 80-95 dollar olacağı proqnozlaşdırılır. Proqnozlara görə, qlobal orta illik inflyasiyanın bu ilin sonuna 6.9%, 2024-cü ildə isə 5.8% olacağı gözlənilir. 2024-cü ildə qlobal dövlət borcunun artaraq onun ÜDM-ə nisbətinin inkişaf etmiş ölkələr üzrə 112,7%, inkişaf etməkdə olan ölkələr üzrə isə 70,1% olacağı proqnozlaşdırılır. Azərbaycanda bu göstərici 14.5%-dir.

Komitə sədri diqqətə çatdırıb ki, növbəti il və sonrakı üç ilin makroiqtisadi çərçivəsi baza, optimist və pessimist olmaqla 3 ssenaridə hazırlanıb, növbəti ilin büdcə layihəsinin tərtibi zamanı baza ssenari əsas olaraq qəbul edilib. Baza ssenari üzrə proqnozların hazırlanması zamanı neftin qiyməti 60 ABŞ dolları müəyyən edilib.

Komitə sədri bildirib ki, layihədə 2024-cü il üçün dövlət büdcəsinin gəlirləri 2023-ci ilin dövlət büdcəsi gəlirlərindən 282.5 milyon manat çox olaraq, 34 milyard 173 milyon manat nəzərdə tutulub. Dövlət büdcəsi gəlirlərinin 50.2%-i qeyri-neft sektorunun, 49.8%-i isə neft-qaz sektorunun hesabına formalaşacaq. Qeyri-neft/qaz sektorunda büdcə daxilolmalarının 1 058.2 milyon manat artması, neft qaz sektorundan büdcə daxilolmalarının isə 775.7 milyon manat azalması proqnozlaşdırılır. Son 5 il ərzində dövlət büdcəsinin qeyri-neft gəlirləri təqribən 6.3 milyard manat və ya 60% artıb.

O, səhiyyə xərcləri çərçivəsində İcbari Tibbi Sığorta büdcədən kənar fonduna dövlət büdcəsindən köçürmənin 112 milyon manat artırılmasını təqdirə layiq hesab edib. Bildirilib ki, 2023-cü ilin 1 iyul tarixi vəziyyətinə dövlət borcunun məbləği 16151,0 mln. manat olmaqla, ÜDM-ə nisbəti 14,5% təşkil edib vəbu müvafiq nisbətin ortamüddətli dövr üzrə hədəflənən yuxarı hədd çərçivəsində olduğunu göstərir.

Maliyyə naziri Samir Şərifov isə bildirib ki, Prezident İlham Əliyevin Milli Məclisə təqdim etdiyi "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsində dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat, xərcləri 36 milyard 763 milyon manat, dövlət büdcəsinin kəsiri 2 milyard 590 milyon manat məbləğində nəzərdə tutulub. Dövlət büdcəsinin xərcləri növbəti il üçün proqnozlaşdırılan Ümumi Daxili Məhsula nisbətdə 31,1 %, 2023-cü illə müqayisədə 0,5 % bənd çox, gəlirləri 28,9 %, 2023-cü illə müqayisədə 0,6 faiz bənd çox, kəsiri isə 2,2 %, 2023-cü illə müqayisədə 0,1 % bənd az təşkil edəcək.

Qeyd olunub ki, növbəti ilin dövlət büdcəsi xərclərinin 18,8 milyard manatı və ya 51%-dən artıq hissəsi məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcək. Müdafiə və milli təhlükəsizliyin daha da möhkəmləndirilməsi, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın məqsədlərinin reallaşdırılmasıüzrə tədbirlərin maliyyələşdirilməsiprioritet olaraq qəbul edilib. Buna uyğun olaraq, 2024-cü ildə azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işlərinə dövlət büdcəsi xərclərinin 10,9 %-i və ya 4 milyard manat məbləğində vəsait ayrılacaq. Müdafiə və milli təhlükəsizlik xərclərinə17,5 % və ya 6 milyard 421 milyon manat məbləğində vəsait nəzərdə tutulub və bu, 2023-cü illə müqayisədə 366 milyon manat və ya 6% çoxdur. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi üçün növbəti il dövlət büdcəsi xərclərinin 4,1%-i və ya 1 milyard 509 milyon manat vəsait yönəldiləcək.

Maliyyə naziri nəzərə çatdırıb ki, 2024-cü il üçün icmal büdcənin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat həcmində proqnozlaşdırılır.O, qeyd edib ki, Dövlət Neft Fondunun gəlirləri 12 milyard 73 milyon manat, xərcləri isə 12 milyard 862 milyon manat təşkil edəcək. Növbəti ildə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 6 milyard 920 milyon manat, İcbari Tibbi Sığorta Fondunun büdcəsi 2 milyard 811 milyon manat, İşsizlikdən Sığorta Fondunun büdcəsi 238 milyon manat, Naxçıvan Muxtar Respublikasının büdcəsi 516 milyon manat təşkil edəcək.

Layihə ilə bağlı çıxış edən İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, 2024-cü il və orta müddətli dövr üçün İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış makro-iqtisadi proqnozlar 3 ssenaridə - baza, optimist və pessimist ssenarilərdə hazırlanaraq, büdcə tərtibi prosesində risklərin qiymətləndirilməsi üçün istifadə edilmişdir.

Ortamüddətli dövrdə neft hasilatının 2022-ci ilin hasilat səviyyəsindən aşağı olacağı gözlənilir ki, bu da neft hasilatında əsas xüsusi çəkiyə malik AÇG yatağı üzrə hasilatın azalma fazasına keçməsi ilə əlaqədardır. Əmtəəlik qaz hasilatının 2025-ci ildə pik həddə çatacağı və proqnozlaşdırılan dövrdə 36 mlrd. m3-dən yüksək olacağı gözlənilir. Qeyd olunan amillər nəzərə alınaraq, neft-qaz sektoru üzrə ÜDM-in növbəti ildə 1,7%, 2024-2027-ci illərdə isə orta illik hesabla 1,8% azalacağı proqnozlaşdırılır.

Neft-qaz sektorunda proqnozlaşdırılan hasilat və neft qiymətləri nəzərə alınmaqla, tədiyə balansının cari hesabprofisitinin ÜDM-ə nisbətinin 2024-cü ildə 6,2%, 2025-2027-ci illərdəisəortahesabla 3%-dən bir qədər yuxarı olacağı proqnozlaşdırılmışdır.

Sonra iclasda Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov çıxış edərək, ölkəmizdə iqtisadi artımla bağlı proqnozları nəzərə çatdırıb. O, qeyd edib ki, iqtisadi artımın 2024-cü ildə 3,3 %, 2025-ci ildə isə 3,2 % olacağı proqnozlaşdırılır. Qeyri-neft-qaz sektorunda ÜDM üzrə artımın 2023-cü ildə 2,8 %, 2024-cü ildə 5,4 %, 2025-ci ildə 5,1 % olacağı gözlənilir. Növbəti ildə cari əməliyyat balansı 8,5 milyard ABŞ dolları, 2025-ci ildə isə 7 milyard ABŞ dolları təşkil edəcək. Oktyabrın sonuna valyuta ehtiyatları 66 milyard ABŞ dollar səviyyəsinə qalxıb, bu isə 13,4 % artım təşkil edir. Mərkəzi Bankın ehtiyatları 16,8 % artaraq, 10,5 milyard ABŞ dolları təşkil edib.

Taleh Kazımov 25 aylıq fasilədən sonra illik inflyasiyanın 5,1%-ə endiyini söyləyib, inflyasiyaya həm xarici, həm də daxil amillərin təsiri barədə danışıb.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi və bu qanunla birgə təqdim edilmiş sənədlərə Palata tərəfindən hazırlanmış rəyi təqdim edib.

Büdcə layihəsinin büdcə qaydasına uyğunluğundan danışan palata sədri qeyd edib ki, büdcə siyasətinin həyata keçirilməsi üçün makrofiskal çərçivəni xarakterizə edən büdcə qaydasının hər iki hədəfi 2024-cü ilin proqnozlarında gözlənilmişdir. Vurğulanıb ki, baza ssenari üzrə proqnoz göstəriciləri dəyişməyəcəyi şəraitdə gəlirlərin icrasında risklərin olmayacağını deməyə əsas verir. 2024-cü ildə dövlət büdcəsinin xərclərinin cari ilə nisbətən demək olar ki, dəyişməyəcəyi proqnozlaşdırılmışdır.

Millət vəkilləri 2024-cü ilin dövlət büdcəsində dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpasında böyük şücaətlər göstərmiş hərbi qulluqçularımızın təminatı, Ordumuzun qüdrətinin artırılması, işğaldan azad edilmiş ərazilərin bərpası və Böyük Qayıdışın reallaşdırılması məsələlərinə böyük diqqətin ayrılmasını, müdafiə və milli təhlükəsizlik xərclərinin, sosial yönümlü xərclərin, əsaslı xərclərin prioritetliyinin saxlanmasını təqdirlə qarşılayıblar. Onlar büdcə siyasətində iqtisadiyyatın, onun qeyri-neft sektoru, kənd təsərrüfatı kimi sahələrinin inkişafının dəstəklənməsi, əhalinin həssas qruplarının, xüsusən də şəhid ailələrinin və müharibə iştirakçılarının, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi tədbirlərini yüksək qiymətləndiriblər.

Çıxış edənlər ölkə gündəmində olan vacib məsələlərdən danışıblar, təmsil etdikləri bölgə və rayonlarda seçiciləri narahat edən məsələləri hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

**Nicat Novruzoğlu**

AQİL ABBAS

# AZARKEŞSİZ FUTBOL "VODKA"SIZ XAŞ KİMİ BİR ŞEYDİR

*(Əvvəli səh-1 də)*

***"Turan" Tovuzun azarkeşlərinə "5" düşür. Hər oyununa 5-6 min adam gəlir və sonadək komandalarını da dəstəkləyirlər. Özü də qəribədir ki, "Turan" öz meydançasında uduzur. Amma növbəti oyunda da stadion yenə doludu. Azarkeşlər komandalarına inanırlar, onu tək qoymaq istəmirlər.***

***"Qarabağ"ın Avroliqa oyunlarında Tofiq Bəhramov stadionuna iynə atsan yerə düşməz, amma gəl ki "Zirə" ilə və ya "Səbail"lə oyununda stadionda öz fanatlarından başqa heç kim yoxdu, yəni "Qarabağ Ordu", "İmarət tayfa" və Allahverdi Bağırovun portreti.***

***Özü də maraqlıdır ki, builki Azərbaycan çempionatı əvvəlki illərdən fərqlənir, çox gərgin keçir. Xüsusilə də "Araz" Naxçıvan və "Sumqayıt" çempionatın gərgin və maraqlı keçməsində əhəmiyyətli rol oynayır. "Səbail"in özü də.***

***Gəlirəm yenə öz komandama - "Qarabağ"a. Dəfələrlə yazmışam, yenə yazıram, Bakıda bəlkə də 30 min ağdamlı yaşayır, amma "Qarabağ"ı dəstəkləməyə 3 min ağdamlı gəlmir. Bir dəfə yazmışdım, stadionun kənarındakı Bədən Tərbiyəsi və İdman Akademiyasının yataqxanasında əsasən ağdamlılar məskunlaşıb, yəqin hələ də ordadılar, çünki Ağdama hələ qayıdış başlamayıb. Yataqxananın həyətində domino oynamağa vaxt tapırlar, amma yüz addımlıqdakı stadionda öz sevimli komandalarını dəstəkləməyə vaxt tapmırlar.***

***Bu gəncəlilərə də aiddi, qəbələlilərə də, naxçıvanlılara da. Mən misalı öz ağdamlılarımdan çəkdim ki, başqalarının xətrinə dəyməsin.***

***Yeri gəlmişkən, "vodka"sız xaşdan da bir lətifə yazım.***

***İki nəfər xaşxanada oturub xaş yeyirlər. Yol polisi onların xaş yediyini görüb kafenin kənarında gözləyir. Xaş yeyənlər nəhayət, çıxıb otururlar öz maşınlarına. Bir əlli addım sürməmiş polis saxlayır.***

***Sürücüyə deyir:***

***- İçmisən?***

***- Yox, içməmişəm.***

***- Xaş yemisən?***

***- Yemişəm.***

***-Deməli, içmisən.***

***- İçməmişəm.***

***- Xaş yemisən?***

***-Dedim ki, yemişəm.***

***- Deməli, içmisən.***

***- Dedim ki, içməmişəm.***

***- Bir ho elə.***

***Xaş yeyən sürücü ho eləyir, polis görür ki, doğrudan içməyib, başını bulayıb deyir:***

***- Day deynən xaş yeməmişəm də, pok yemişəm.***

***Lətifənin yuxarıda yazdıqlarımla heç bir əlaqəsi yoxdur. Sadəcə olaraq, yadıma düşdü yazdım.***

***Stadiona gedin, komandanızı dəstəkləyin, ondan sonra xoşunuza gəlməsə tənqid edərsiniz. Yoxsa evdə pürrəngi çay içə-içə, ya "vodka" vura-vura televizorda futbola baxıb alimlik etməyin. Heç olmasa komandalarınızı ruhdan salmayın.***






# "Hraparak": "Qarabağ Azərbaycandır" deyən ATƏT də Azərbaycana aşiq oldu"

***ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanın (Finlandiya) və Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kari Henriksenin (Norveç) Azərbaycana səfər baş tutub.***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanı qəbul etdi. Görüşdə Cənubi Qafqaz regionunda vəziyyətlə və ATƏT Parlament Assambleyasının rolu ilə bağlı fikir mübadiləsi aparıldı.**

Görüşdə Prezident İlham Əliyev qeyd etdi ki, 44 günlük Vətən müharibəsindən sonra imzalanmış 2020-ci il 10 noyabr Bəyanatından irəli gələn öhdəlikləri Ermənistan yerinə yetirmədi. Belə ki, Ermənistan nəinki Qarabağdakı silahlı qüvvələrini ərazidən çıxarmamışdır, hətta həmin ərazini hərbi texnikanın, silahlı qüvvələrinin şəxsi heyətinin və minaların daşınması üçün məqsədyönlü şəkildə istifadə edirdi. Həmçinin Ermənistan Şərqi Zəngəzurla Naxçıvan arasında əlaqənin yaradılması ilə bağlı öz öhdəliklərini yerinə yetirmədi:" Artıq bu məsələlər keçmişdə qaldı. Hazırda regionun sülh gündəliyi üçün çox yaxşı imkanlar var. 44 günlük Vətən müharibəsindən sonra sülh müqaviləsi və onun əsasını təşkil edən prinsiplər təşəbbüsü ilə də məhz Azərbaycan çıxış edib. Azərbaycan Cənubi Qafqazda davamlı sülhün tərəfdarıdır və regional sülh gündəliyini, Ermənistanla münasibətlərin normallaşdırılmasını və sülh müqaviləsinin imzalanmasını dəstəkləyir".

Dövlətimizin başçısı onu da bildirdi ki, Azərbaycan hazırda birgəyaşayış və geriqayıtma hüququ ilə əlaqədar aydın və şəffaf proqramı təqdim etsə də, azərbaycanlıların Ermənistana geri qayıdışı ilə bağlı geriqayıtma hüququnu Ermənistan inkar edir və bununla əlaqədar olaraq hər-hansı bir baxış ortaya qoymayıb.

Bu görüşdən sonra ATƏT bəyanat yaydı: "Azərbaycana bu gün başa çatan səfəri çərçivəsində ATƏT PA prezidenti Pia Kauma (Finlandiya) və Cənubi Qafqaz üzrə xüsusi nümayəndə Kari Henriksen (Norveç) ölkənin siyasi liderliyi ilə sentyabrda Azərbaycan öz Qarabağ regionu üzərində nəzarəti bərpa etməsindən sonra Ermənistanla tam nizamlamaya nail olunmasına ehtiyac müzakirə edilib.

ATƏT nümayəndələri səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Milli Məclisin sədri Sahibə Qafarova və xarici işlər nazirinin müavini Fariz Rzayevlə görüşüblər. Görüşlərdə Azərbaycanın ATƏT PA-da fəal iştirakının regionda çoxtərəfli diplomatiya və dialoq üçün müsbət əlamət olduğunu qeyd edilib", - bəyanatda qeyd edilir.

ATƏT rəsmiləri Azərbaycan tərəfinin etnik ermənilərin geri qaytarılmasına kömək göstərilməsi ilə bağlı təşəbbüsünü alqışlayıblar. Nümayəndə heyəti, həmçinin ərazilərin minalardan təhlükəsizliyini təmin etmək, yenidənqurma və reinteqrasiya sahəsində irəliləmək üçün əhəmiyyətli səyləri yüksək qiymətləndirib.

**P.S. Erməni ictimaiyyətinin bu görüşə maraqlı bir rakursdan baxdığını isə erməni mediasının sayəsində bildik. "Hraparak" nəşri yazır ki, "Qarabağ Azərbaycandır" deyən ATƏT də Azərbaycana aşıq oldu" . Bu xəstə təxəyyülü topluma hələ də çatmır ki, 30 il ədalətsiz şəkildə ermənilərin Azərbaycan torpaqlarını işğal etməsinə susan, dolayısı ilə erməniləri müdafiə edən bu təşkilat əslində Azərbaycana aşiq olmayıb. Sadəcə, kəsərli faktın, danılmaz sübutların qarşısında başqa bir fikir bildirməyə özündə güc tapa bilməyib.**

**Əntiqə Rəşid**

## Elçin Quliyev generalı təntənə ilə yola saldı

**Bir müddət öncə sağlamlığında olan problemlərə görə, öz müraciəti əsasında Dövlət Sərhəd Xidməti Kadrlar Baş İdarəsinin rəisi vəzifəsindən azad olunan general-mayor Ayaz Hüseynov Silahlı Qüvvələrin ehtiyatına buraxılıb.**



Adalet.az xəbər verir ki, Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev generalı qəbul edərək onun çalışdığı illər ərzində böyük xidmətləri olduğunu diqqətə çatdırıb, peşə fəaliyyətini yüksək qiymətləndirib.

Elçin Quliyevin tapşırığı əsasında Xidmət rəisinin müavini general-leytenant Cavid Abdullayevin iştirakı ilə Ayaz Hüseynovun hörmətlə yola salınması üçün onun tabeliyində olmuş şəxsi heyətlə səmimi bir görüş də keçirilib. C. Abdullayev isə görüşdə bildirib ki, Xidmət rəhbəri Ayaz Hüseynova Dövlət Sərhəd Xidmətində fəaliyyətini davam etdirməyi təkidlə təklif etsə də, bir müddət öncə keçirdiyi avtomobil qəzasının səhətində yaratdığı problemlər səbəbindən işləməkdən imtina edib. Görüşün sonunda A. Hüseynov çalışdığı müddətdə ona göstərilən etimad və diqqətə görə ölkə rəhbərliyinə və xidmət rəisinə dərin münnətdarlığını bildirib.

Qeyd edək ki, Ayaz Hüseynov Dövlət Sərhəd Xidmətində 20 ildən artıq bir müddətdə qüsursuz xidmət edib. Vətənpərvərliyi, dövlətə sədaqəti və peşəkarlığı ilə seçilən zabit olduğu üçün onun xidməti fəaliyyəti ölkə rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilib. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə "Hərbi xidmətlərə görə", "Vətən uğrunda", "Tərəqqi" medalları ilə təltif edilib. Gənc yaşlarından general-mayor rütbəsinə layiq görülərək, ölkənin ən gənc generallarının sırasına daxil olub. 44 günlük müharibədən sonra ölkə başçısının Sərəncamı ilə "Vətənə xidmətə görə ordeni" ilə təltif olunub. Müharibə veteranıdır.











# ZƏFƏR TƏNTƏNƏLİ GÖZƏL NOYABR GÜNLƏRİ...

## (Göyçayda keçirilən 15-ci "Nar festivalı"ndan reportaj)

**Səhərin gözü yenicə açılıb. Bu gün Göyçay şəhəri bayram libasında, əsl bayram əhval-ruhiyyəsindədir. Baxmayaraq, hava tutqun və bozumtul, qarşı dağlar ”bulud qoşunları” ilə yağmura da hazırdır. Noyabrdır axı. Bunun ”qızıl payızı” da var, min bir dona girməyi də var. Doğma, gözəl Göyçayımda keçirilən bu dəfəki Nar festivalının sevincinə, əzəmətinə, qüruruna daha heç nəyin dəxli yoxdur. Bu, 15-ci festivaldır. Əvvəllər də beləcə doğma idi, gözəl idi. Ancaq insanların qəlbində, ruhunda istər-istəməz bir qədər nisgil də yaşanırdı. Bu nisgilə də son qoyuldu. Müzəffər Ali Baş Komandanımız, Azərbaycanın igid oğulları... Və Əfsanəvi Dəmir Yumruqla 44 gün+23 saatın son sərbəsi və təntənəsi!**

...O gün ki, əziz Şuşamız müasir döyüş ənənələri ilə deyil, qədim hunlar, yeniçərlər, spartalılar kimi sanki əlbəyaxa ölüm-qalımla azad edildi, o gün ki, Ali Baş Komandanımız, Prezidentimiz Xankəndində Azərbaycan Bayrağını sevgili vətənin başı üzərinə qaldırdı... Daha həyatımızın da, günlərimizin də, sevinclərimiz də, bayramlarımızın da ruhu, yaşamı layiq olduğu yüksəkliyə ucaldı. İndi əziz Qarabağımız yeni bir Planet kimi, əsl Günəş kimi bütün Azərbaycanımızı isidir, işıqlandırır... Sevdalandırır həm də!

...Və bu səhər də bir başqa səhərdir gerçəkdən. Mən bu səhəri doğma Göyçayda qarşılayıram. Noyabrın 11-dir, ılıq, gözəl bir payız səhəridir. Yəqin Tanrı öz möcüzə meyvəsinə, meyvələr şahına hədiyyə edib bu xumar səhəri, gözəl səhəri.

Haralara getmişdin, ay Günəş?

... Adını min illərin uzaqlığından yol gələn o göy sulu çaydan alıb bu yerlərə işıq salan şəhərim! Qarşı dağlardan mavi bir xəyal kimi görünüb də büsatına sığal çəkən bu nəğməkar çay doğmaca anandır sənin şəhərim, alıb qoynuna...

Sabahin xeyir, gözəl şəhərim, şirin şəhərim, gün aydın olsun! Sənə sözüm var, sevgili Göyçayım! Bax, sən bu çayın, mən də sənin oğlunam axı. Ağlım kəsəndən sənin aşiqin olmuşam, səni dəlicəsinə sevmişəm, anam Göyçayım. Qəlbimin döyüntüsünü eşidirsənmi, doğma şəhər?.. Sənin bu bayram büsatını görüncə ürəyim atlanır, uşaq kimi sevinirəm. Göylərə ucalan xan çinarların, qız kimi nazlanan telli qovaqların, izdihamlı küçə və meydanların, park və bağların, yaraşığın, əzəmətin və zəhmətkeş, fədakar, vətənpərvər sakinlərin... bir gözəl bayramın eşqinə tutulub. Bütün bunlar sənə necə də yaraşır, ümidlərimin şəhəri!

Bu bir bayramdır, dünyada yalnız Azərbaycana, vətənin bir parçası olan Göyçaya bəxş edilmiş bayram... Dünyada tayı-bərabəri olmayan Göyçay narının, meyvələr şahının şərəfinə düzənlənən el şənliyidir bu.

Düz 15-ci dəfədir ki, bu bayram, bu Nar festivalı beləcə Göyçayın sevincinə sevinc qatır, onu daha böyük zirvələrə səsləyir.

Bu il bir az fərqlidir; daha mükəmməl, daha füsünkardır Göyçayın Nar bayramı. Səbəbsiz deyil. Birincisi Qarabağ təntənəsi və sevinci! Həm də son vaxtlar Göyçay rayonunda tikinti-quruculuq və abadlıq işləri, eləcə də müasirləşmə tədbirləri intensiv xarakter almaqla sanki bir yaradıcılıq nümunəsinə çevrilməkdədir. Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevin rayona rəhbərlik etdiyi ötən vaxt ərzində bir çox məsələlərin həlli ilə yanaşı, kəndlərdə abadlıq və quruculuq işlərinin sürətlənməsi, şəhərin küçə və meydanlarının daha müasir formaya uyğunlaşdırılması, Heydər Əliyev prospektindəki yeniliklər, yeni park və bağlarda ilkin işlərdən sonrakı davam edən tədbirlər, eləcə camaatla müntəzəm görüşlər, rayonun inkişafı üçün məsləhətləşmələr, şəhər stadionunun və Əli Kərim parkının perspektivləri diqqət çəkməkdə, sakinləri gələcəyə daha böyük ümidlərlə baxmağa sövq etməkdədir.

Bax, bu dəfəki Nar bayramının da stadionda mərkəzləşməsi ssenari və quruluşda müəyyən yeniliklər edilməsini zəruriləşdirdi, bir çox məqamların daha effektli görüntüsü üçün ahəngdar aura yaratdı. Beləcə bu şirin bayrama qovuşub (”şirin” sözü burada həm də birbaşa məna daşıyır: Göyçay narı, şirəsi və şərabı şirin dadır, qonaqlara təklif olunan nardança, narlı şirniyyatlar, qutablar, digər məmulatlar...), bu gözəl anların sevincini yaşayıb vaxtın necə ötüb keçdiyini hiss etməzsən. Ancaq sən istədin-istəmədin vaxt da dayanmır, onda qala maraqlı anlar bir-birini əvəz edə. Təkcə xatirələrdən başqa... Bəlkə də bəşəriyyətin kino, televiziya, internet ixtirası elə insan təfəkkürünün bu nöqtəsindən başlayıb. Çünki mən indi heç bir sənədli filmə, digər görüntülərə baxmadan, təkrar-təkrar seyr etmədən rahatca xəyallarımla ötən illərə qayıda bilərəm.

Ancaq gəlin, yenidən bu günkü bayramımızı yaşayaq, bu günkü sevinclərə qoşulaq. Gəlin... Axı bütün bunlar ölkədə aparılan quruculuq işlərinin, sosial-iqtisadi inkişafın sevincini, qürurunu paylaşır. Əsl zəhmət, birlik, yüksəliş bayramı kimi yaddaşlara köçür. Ulu öndər Heydər Əliyevin Azərbaycanımızın xoş gələcəyi üçün düşündükləri, arzuladıqları bu gün ölkə boyu reallaşırsa bayramların da dəyəri və qüruru artır, simvolik xarakter daşımır, daha firavan günləri nişan verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsidir ki, ölkəmizin inkişafı, yüksəlişi fonunda sevinc dolu belə bayramları yaşayır və iftixar hissi keçiririk.

Budur, yüzlərlə qonaq, minlərlə rayon sakini, iştirakçı, tamaşaçı... Nar festivalı meyvələr şahını Göyçayın simvolik anlamından da yüksəkliyə qaldırır, şöhrətləndirir. Nar bu yurd üçün sanki özünəməxsus ruhundan da ayrılıb daha geniş, daha əzəmətli məna daşıyır.

... Şəhər əhalisi, rayonun yaxın-uzaq kəndlərindən gələn dəstə-dəstə sakinlər Göyçayı bütün dünyada məşhurlaşdıran bu möcüzə meyvənin şəninə, şöhrətinə üz tutublar. Şəhərin giriş qapısından stadiona kimi bütün küçə və meydanlar nəhəng izdihamı xatırladır. Sakinlər respublikamızın şəhər və rayonlarından gələn nümayəndələri, ayrı-ayrı məsul şəxsləri, nazirlik və komitələrin yüksək vəzifəli təmsilçilərini, Milli Məclis üzvlərini, mədəniyyət və incəsənət xadimlərini, mətbuat nümayəndələrini və digər dəvətliləri qonaqpərvərliklə qarşılayırlar. Stadionun giriş qapısında məktəblilər qonaqları salamlayırlar. Qonaqlara məcməilərdə nar şirəsi paylanır, şeirlər söylənir, nəğmələr oxunur. Bütün bunlar hər tərəfdən lentə alınır. Foto-muxbirlər də öz işlərində...

Tribunaların yaxınlığındakı geniş meydanda Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev qonaqları, bütün bayram iştirakçılarını salamlayır. O, çıxışında rayonun sosial-iqtisadi və mədəni yüksəlişinə xüsusi qayğı və diqqət göstərən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarına göyçaylıların hədsiz minnətdar olduğunu bildirir. Natiq Ağayev 4 illik fasilədən sonra keçirilən 15-ci Nar festivalının əlamətdar ilə, Heydər Əliyev ilinə təsadüf etdiyini və ilk dəfədir ki, Azərbaycan xalqının tarixi qələbəsindən, böyük Zəfərindən sonra qalib və vahid Azərbaycanda keçirildiyini qeyd edir.

... Stadionun tribunaları, stadionun ətraf meydanları bayram iştirakçılarının çoxluğundan və sevincindən aşıbdaşır. Musiqi kollektivlərinin, rəqs qruplarının çıxışları bir-birini əvəz edir. Nar masalarına, digər guşələrə tamaşaçı marağı həmişəki kimi böyükdür.

Nar festivalı davam edir. Eyni vaxtda proqrama uyğun tədbirlər sinxron şəkildə tamaşaçıların bayram əhval-ruhiyyəsini daha da yüksəldir.

Futbol meydanının kənarı boyunca 500 metrlik məsafədə sıralanmış sərgilərin qarşısı daha izdihamlıdır. Burada kəndlərin, müxtəlif idarə və müəssisələrin nar meyvəsi ilə bağlı sanki yaradıcılıq yarışı keçirilir. Bir-birindən gözəl və maraqlı eksponatlar. İcra başçısı Natiq Ağayev əsl ev sahibi, qonaqpərvərlik nümunəsi göstərir. O, paytaxtdan, respublikanın digər şəhər və rayonlarından gələnləri dəstə-dəstə həmin sərgilərə dəvət edir. Buradakı təamlardan dadmağı, lap elə istəkcə yeməyi məsləhət bilir. Bayram bayramdır, ancaq ev yiyəsi missiyasını da başçı çox sadə və həssas bir yanaşma ilə davam etdirir, hamıda sərbəstlik, mehribanlıq əhval-ruhiyyəsi yaradır.

Baxırsan ki, hər tərəf al-əlvandır. Təmtəraq və zövq bütün iştirakçıların ürəyincədir. Bayramın bütün atributları həm ənənələrə, həm də müasirliyə yönəlik düzəndədir. Stadion və ətrafı, şəhərdəki qələbəlik şahanədir. Eyni zamanda musiqi sədaları, təmkinli iştirakçılıq, birgə sevinc paylaşımı... Daha bayram necə olmalıdır ki?! Onda qala başındakı tacı bərq vuran şəhzadənin bayramı!

Nar haqqında əfsanəvi bir məlumatı da xatırlayaq bu bayram günündə. Yunan mifologiyasında nar allahların ən sevimli təamı idi. Bu da çoxlarını narın ölümsüzlüyə apardığına inandırırdı. Əkinçilik ilahəsi olan Persofona isə narın dənələrini Aid (Hades və ya Pluton - qədim yunan mifologiyasında yeraltı dünya və axirət allahı. Kronsun və Reyanın oğlu, Zevsin, Demetranın qardaşı) şəklində göstərmişdi. Qiymətli daş-qaşa bənzəyən bu alqırmızı meyvəni daddıqdan sonra Persofona onu götürür və bununla da özünü bir müddət Aidin yeraltı səltənətində qalmağa məhkum edir. Qədim yunanlar ilk nar ağacını Kipr adasında sevgi ilahəsi Afroditanın yetişdirdiyinə inanırdılar.

Nar festivalında diqqət çəkən təsirli və qürurverici məqamlardan biri də 44 günlük Vətən müharibəsinin əlili Əfsun Salahov və Jalə Salahovanın nikah mərasimi idi. Rayon Qeydiyyat şöbəsi tərəfindən rəsmiləşdirilən nikah mərasimindən sonra festival iştirakçıları yeni ailə quran gəncləri təbrik edib onlarla bərabər rəqsə qoşulurlar.

Festivalda bir çox yarışlarla bərabər ən iri nar meyvəsinin də müəyyənləşməsi maraq doğurur: 1 kq 800 qram!

Nar festivalının birinci günü bayram konsertindən sonra qəlblərdə sevinc və qürur doğuran rəngarəng atəşfəşanlıqla sona çatır. Festivalın ikinci günündə isə qonaqlar şəhərdə və yarmarkalarda gözəl anlar yaşayırlar...

Qoy əbədi Zəfər qürurunu yaşayan Azərbaycanımızın hər bir guşəsi həmişə belə gözəl bayramların, günlərin şahidi olsun, insanların sevinci vətən sevgisi ilə aşıbdaşsın...













**Məzahir Əhmədoğlu**

# Nazir Gəncədə vətəndaş qəbulu və sıra baxışı keçirdi



*(əvvəli səh-1-də)*

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Gəncədə yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb.

Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Hərbi hissənin qərargahında komandir heyəti ilə keçirilən əməliyyat müşavirəsində nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyən edilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə əminliyini ifadə edib.

Bundan sonra general-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. 45-i Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 225 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Sonda daxili işlər naziri, general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

# Buna millət vəkilinin statusunun aşağı salınması kimi baxıram



”Əvvəllər millət vəkilləri xarici ölkələrə gedəndə ailə üzvlərini yanlarında apara bilirdilər. Sonra onların özləri olmadan da övladı və həyat yoldaşı VİP salondan istifadə edə bilirdi. Bu qanun hər yerdə belədir. Hətta əvvəl millət vəkili olub, sonra olmayanlar da VİP salondan istifadə edə bilirdi. İndi qayda belədir ki, özün gedirsənsə istifadə edə bilərsən, amma özün getmirsənsə, sənin ailə üzvlərin orda gedə bilməz.

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Sabir Rüstəmxanlı deyib. O, bildirib ki, bu məsələdə millət vəkillərinə fərqli münasibət var:

”O vip salonlara ticarət adamları, vəzifəli şəxslərin qohumları rahat gəlib-gedirlər. Amma millət vəkilləri bundan istifadə edə bilmir. Niyə belə ögey münasibət olmalıdır? Mən istəyirəm bu məsələ bizim aidiyyəti orqanların qarşısında qladırılsın. Bundan başqa, məsələn, mən təxminən otuz ildir ki, bizim panasionatda qalıram. İki otaqlı mənzilim var. Mənim bütün yazı-pozu işlərim ora ilə bağlıdır. Sakit bir yerdir. Amma orda biznesmen kimi qalıram. Başa düşmürəm, mən biznesmenəm? Hətta hökumət işçiləri orda güzəştli şəkildə qalır, amma onlardan aşağı maaş alan millət vəkili, yəni mən belə qala bilmirəm. Mən məcburam orda qalam. Başqa imkan yoxdur. Amma mən orada biznesmen kimi qalıram. Məndən biznes uçotu ilə, biznes müqavilələri ilə illik pul alırlar. Bu, harda görülüb? Niyə görə belə olmalıdır? Nazirlər Kabinetinin işçiləri, başqa strukturların işçiləri normal qiymətlə qalırlar, bizdən isə iki-üç dəfə artıq pul tələb edirlər. Mən buna millət vəkilinin statusunun aşağı salınması kimi baxıram. Millət vəkilinin və Milli Məclisin statusu aşağı salına bilməz. Bu, Azərbaycanın dövlət müstəqilliyində xüsusi xidməti olan bir orqandır. Millət vəkilləri də ən ağır yükü daşıyır. Camaatın şikayətlərini qəbul edir. Bu otuz ildə nələr çəkmişik, hamı bilir”.

# Məğlubiyyətdən sonra Ermənistanda günahkar axtarışına...



**”Güman etmək olar ki, Ermənistanda Serj Sarkisyan və digər keçmiş vəzifəlilərin korrupsiya faktlarının araşdırılması üçün göstərişi hökumət verir”**

Bunu Adalet.az-a açıqlamasında politoloq Zərdüşt Əlizadə deyib. Politoloq müharibədə məğlub olmuş Ermənistanın indi günahkar axtarışına çıxdığını bildirib:

”Ermənistanda hər yerdə baş vermiş bir hadisə baş verir. Müharibədə məğlub olmuş ölkələrdə həmişə xalqa hesabat vermək üçün günahkar axtarışına çıxırlar. Bunun üçün komandirləri, keçmiş siyasətçiləri ittiham edirlər. İndi Ermənistanda da bu proses baş verir. Paşinyan ölkənin rəhbəridir, ölkə müharibəni uduzub və indi günahkar axtarışı gedir. Təbii ki, məhkəməyə cəlb edilmiş adamlar günahkardırlar, müqəssirdirlər, canidirlər. Amma ümumi siyasi kurs, o cümlədən keçmiş dövlət rəhbərləri mühakimə olunacaq. Samvel Şahramanyan da uzun müddət müxtəlif vəzifələrdə olub. Ona görə də hamını ittiham edəcəklər. Ermənistanda siyasi hakimiyyət cəmiyyət qarşısında hesabat verməlidir. Onlar da hesabatı bu şəkildə verirlər ki, günahkarı axtarıb, təyin edib, mühakimə edib barəsində cəza təyin etsinlər”-deyə politoloq bildirib.

Qeyd edək ki, Ermənistan Baş prokurorluğu keçmiş Xocalı canisi, eks-prezident Serj Sarkisyandan dizel işinə görə təxminən yarım milyard dramın müsadirə edilməsini tələb edib.

**Vasif Əlihüseyn**

# DÜNYANIN ƏN YAXŞI YOLU

**Yol hər bir millətin mədəniyyətidir desək, heç də yanılmarıq. Ən azından ona görə ki, hər hansı bir ölkəyə gedəndə elə ilk təəssürat yollardan başlayır. Əgər yollar yaxşıdırsa, istər-istəməz həmin məmləkət haqqında insanlar müsbət fikirdə olurlar**



Sovet dövründə heç də respublikamızda avtomobil yolları, eləcə də şəhər, qəsəbə və kənd yolları keyfiyyətli deyildi. Çox nadir rayonlar tapılardı ki, orada hansısa kəndə asfalt yol çəkilir və o yollar da bir müddətdən sonra baxımsızlıq üzündən sökülüb, dağılardı. Hətta rayon mərkəzlərnidən kəndlərə taksi sürücüləri getmirdilər ki, kəndə gedəcəm, maşınımın "peredoxu" dağılacaq. O sürücüləri də qınamalı deyildi. Çünki istəyirdilər ki, sükan arxasında əyləşəndə növbədən sonra evlərinə bir tikə çörək pulu qazansınlar

Amma Azərbaycan müstəqillik dövrünə qədəm qoyduqdan sonra həm Ulu Öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin hakimiyyəti dövründə istər respublika əhəmiyyətli, istərsə də şəhər, qəsəbə, kənd yolları müasir standartlara cavab verərək inşa edilib. Demək olar ki, indi ölkəmizdə çox nadir kənd tapılar ki, ora asfalt yol çəkilməsin. Çünki dövlətimizin ən böyük proritet vəzifəlirndən biri də yol infrastrukturunun dünya standartlarına uyğun inşa edilməsidir. Təbii ki, yollarımız nə qədər təhlükəsiz, keyfiyyətli olsa, müxtəlif nəqliyyat vasitələri ilə mənzil başına daha rahat çatmaq mümkündür. Bütün bunlarsa, o deməkdir ki, hər bir sürücü avtomobil yollarından istifadə edərkən özü də bir rahatlıq tapır.

Artıq ölkəmiz 44 günlük II Qarabağ savaşından və eləcə də 23 saat, 43 dəqiqə çəkən antiterror əməliyyatından sonra öz ərazi bütövlüyünü bərpa edib. Sevinddirici haldır ki, 2020-ci ilin II Qarabağ savaşı zamanı azad olunmuş Cəbrayıl, Hadrud, Füzuli, Qubadlı, Zəngilan, Şuşa, Laçın, Ağdam, Kəlbəcər rayonlarında demək olar ki, çox böyük abadlıq, quruculuq, tikinti işlərinə başlanılıb. Adını çəkdiyimiz rayonlarda möhtəşəm quruculuq işləri həyata keçirilir. O işlərdən biri də yol infrastrukturunun dünya səviyyəsində inşa olunmasıdır. Dünya standartlarına cavab verən bu yolların çəkilişinə dövlət bücəsindən milyardlarla manat vəsait ayrılıb. Artıq Əhmədbəyli - Şuşa avtomobil yolu yaxın gələcəkdə tamamilə istifadəyə veriləcək. Bununla yanaşı, Füzuli rayonunun Əhmədbəyli kənindən başlayan və Zənəgilanın Ağbənd yaşayış məntəqəsinə qədər uzanan Zəngəzur yolu da sürətlə inşa edilir. Bu yolun istifadəyə verilməsinin çox böyük tarixi və strateji əhəmiyyəti var. Çünki bu yolun tikilib istifaəyə verilməsi ilə həmin yerdən Avropaya çıxış qapısı olacaq. Ona görə də bu yolun çəkilişi tək Azərbaycanın marağında deyil, həm Çinin, həm Rusiyanın, həm Türkiyənin, həm də İranın çox böyük maraq dairəsindəddir. Aydındır ki, hər bir ölkə çalışır ki, müasir tələblərə cavab verən yollar inşa etsin və Azərbaycanda bu standartlara cavab yolların çəkilişini çox böyük uğurla həyata keçirir.

Başqa sözlə demiş olsaq, bu möhtəşəm layihələri ölkəmizdə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi həyata keçirir. Heç şübhəsiz, bu möhtəşəm işləri yüksək keyfiyyətlə və vaxtında yerinə yetirmək elə də asan deyil. Ona görə də Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov tez-tez yollar çəkilən yerlərdə olur, ora baxış keçirir və öz tövsiylərini verir. Təbii ki, bu tövsiyələr gerçəkləşdiriləndən sonra yolların çəkilişi də daha yüksək səviyyədə olur. Bu gün adını çəkdiyimiz Dövlət Agentliyi işğaldan azad olunmuş bütün rayonlarda yol infrastrukturunun əsaslı surətdə tikilməsi üçün bütün qüvvələrini səfərbər edib. Çox çətin dağları yararaq, oradan tunellər çəkir və o tunellərdən asfalt yollar çəkilir. Hamıya gün kimi aydındır ki, bu işləri görmək, özü də vaxtında icra etmək çox məsuliyyətli bir vəzifədir. Çünki cənab Prezident İlham Əliyev nəinki işğaldan azad olunmuş rayonlarda tikilən yollara, hətta digər yollar da istifadəyə veriləndə elə birinci özü avtomobillə gedir və yolun nə dərəcədə keyfiyyətli tikilməsinin şahidi olur. Aydındır ki, həmin yolların tikintisində bir problem yaransa, cənab Prezident o dəqiqə, elə həmin an öz narazılığını bildirər. Amma həmişə biz görmüşük ki, çox möhtəşəm yolların və o cümlədən işğaldan azad olunmuş rayonların yollarına baxış keçirəndən sonra cənab Prezident Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədovdan razı qalır. Bütün bunlar isə onu deməyə əsas verir ki, adını çəkdiyimiz Agentlik onlara tapşırılan vəzifəni vaxtıında və keyfiyyətlə yerinə yetirir. Belə ki, Agentliyin sədri Saleh Məmmədov özü də çox təcrübəli, yol infrastrukturunu bilən mütəxəssis olmaqla yanaşı, həmin quruma da bacarıqla rəhbərlik edir. Bayaq dediyimiz kimi, insanlar hər hansı ölkəyə, yaxud da şəhərə gedən kimi öncə yola baxıb, həmin məmləkətə dəyər verirlər.

Bu gün sevinclə deyə bilərik ki, Azərbaycanın istər işğaldan azad olunmuş rayonlarında, istərsə də digər şəhər, qəsəbə və kənlərində dünyanın ən yaxşı yolları çəkilib və çəkilir. Bu isə o deməkdir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev digər sahələrdə olduğu kimi, yol infrastrukturunun əsasl surətdə yenidən tikilməsi və inşa edilməsi üçün çox böyük diqqət göstərir. Avtomobil Yolları Dövlət Agentliyi də bu vəzifəni demək olar ki, zaman-zaman yüksək keyfiyyətlə yerinə yetirir, yollarımzın dünya standartlarına uyğun inşa edilməsi üçün var qüvvəsini səfərbər edir.

Ona görə də elə dünyanın ən yaxşı yolu da bizim ölkədədir və bu yollar insanları mənzil başına çox rahatlıqla aparır. Qüdrətli Azərbaycan bundan sonra da bütün sahələrdə çox möhtəşəm abadlıq və quruculuq işləri görəcək, dostlar baxıb sevinəcək, düşmənlərinsə ürəyi partlayacaq!..

**Faiq Qismətoğlu**

# BİR ÖMRÜN TABLOSU

**Millət vəkili, "Şöhrət" ordenli, yazıçı-publisist İmamverdi İsmayılov barəsində çəkilmiş film çox böyük əks-səda yaratdı**



Hər ömür yaddaqalan və mənalı olmur!... O ömür iz qoyur ki, həmin insanlar tək özləri üçün deyil, bu Vətən, bu xalq, bu millət üçün şam kimi ömürlərini əridirlər! Təbii ki, Vətən də, xalq da onların vətənpərvərliyini, böyük sevgisini və ən nəhayət insanlığını heç vaxt unutmur. Böyük Mikayıl Müşfiqin bir bənd şeri yadımıza düşür:

*Bu vəfasız ömür, bu coşqun dərə,*
*Gərək boş-boşuna axıb keçməsin.*
*Bu gözəl cahanı sanıb pəncərə,*
*Hər gələn sadəcə baxıb keçməsin.*

Bax, millət vəkili, "Şöhrət" ordenli, yazıçı-publisist, böyük ziyalı İmamverdi İsmayılov da Allahın verdiyi ömürü çox ləyaqətlə, şərəflə, kişi kimi yaşayıb! Heç kimin yanında gözükölgəli deyil, əksinə həm xalqın, həm də onu sevənlərin arasında həmişə alnıaçıq, üzüağ olub! Allah-təala ona istedadla yanaşı, bir zəhmətkeşlik və halallıq da qismət eləyib. Elə bu halallıq və zəhmətkeşlik də onu uca dağların ən yüksək zirvəsinə qaldırıb

Onun ömür yolu ilə bağlı Azərbaycan Televiziyasının Mədəniyyət Kanalı "Bir ömrün tablosu: İmamverdi İsmayılov" adlı çox unikal və gözəl bir film çəkib. Sözün açığı mən bu filmə baxandan sonra bir daha dostum, tələbə yoldaşım, millət vəkili və yazıçı-publisist İmamverdi İsmayılovun ürəyinin böyüklüyünü gördüm. Gördüm ki, Allah-təala ona boy-buxun verdiyi kimi, böyük ürək də verib! İlahi, bu böyük ürəkdə nələr yoxdu; kədər, dərd, sevinc, millətə, xalqa, Ulu Öndər Heydər Əliyevə və Prezident İlham Əliyevə olan sonsuz məhəbbət! Düşünürəm ki, elə İmamverdi İsmayılovun da ömrünə ömür calayan, onu xalqa sevdirən o məhəbbəti, o böyük ürəyidir. Bu ürəkdə heç vaxt paxıllıq, kin-küdurət olmayıb və ola da bilməz! Ən azından ona görə ki, İmamverdi müəllim zəhmətkeş və halal bir ocaqda dünyaya göz açıb, çox yaxşı bir kişinin və müdrik bir xanımın tərbiyəsini alıb, başqa cür də ola bilməzdi! Bütün bunlar mənim tələbə dostumu hamıya sevdirir və hamı görür ki, İmamverdi İsmayılov yüksək zirvəyə qalxdıqca daha sadə, daha səmimi və daha kövrək olur

Elə filmdə də bu məsələlər, bu detallar qırmızı xətt kimi önə çəkilir və onun bütün xarakteri, xasiyyəti bir daha incəliyinə qədər tamaşaçılara çatdırılır. Filmə diqqətlə baxsanız, görərsiniz ki, onun bir ömrünün tablosu çox ustalıqla, peşəkarlıqla və incəliklə lentə alınıb. Burada artıq heç bir boyalardan, heç bir rəngdən və heç bir sözdən istifadə edilməyib. Hər şey elə çəkilib və verilib ki, bu İmamverdi müəllimin öz dünyasıdır. Bu dünya göy üzünə bənzəiyr və göy üzü təmiz olduğu kimi, onun da ürəyi və qəlbi elə təmizdir.

Filmdə İmamverdi İsmayılovun qardaşı Allahverdi İsmayılovun, orta məktəb müəllimi Telman Məmmədovun, millət vəkili Musa Quliyevin,professor Cahangir Məmmədlinin sinif yoldaşı Ənvər Məmmədovun, eləcə də bu sətirlərin müəllifinin ürək sözləri tamaşaçılara çatdırılır və tamaşaçılar bir daha İmamverdi müəllimin iç dünyasını tanıyır və onu sevir! Tamaşaçı görür ki, İmamverdi İsmayılov ancaq haqqa, ədalətə, böyük Allah sevgisinə sığınıb və böyük Allah sevgisi də onu həmişə ən çətin anlardan, ən çətin sıxıntılardan xilas eddib, işıqlı yola çıxarar. Və işıqlı yolda İmamverdi müəllim üzü Günəşə, üzü Vətənə, üzü Haqqa doğru gedir

Filmin bütün epizodları təsirli və maraqlıdır. Başqa cür də ola bilməz! Yaradıcı kollektiv bu filmin üzərində uzun müddət əziyyət çəkib, tər töküb. Hər çəkilişdə, hər anda həyəcanlı anlar yaşayıblar onlar. Şəxsən mən bu filmə baxanda orda çox şey gördüm: orada ömrün ağır anlarını, kədərini, dağıdılmış ata qəbrini gördüm və İmamverdi İsmayılovun içinə axan göz yaşlarını hiss elədim Hiss elədim ki, Zəngilana qayıdıb atasının qəbrinin dağılmış halda görməsi İmamverdi müəllimə hansı sarsıntıları yaşadır Həyətlərinə gəlir, ikimrətəbəli evlərini də görmür. Ancaq evin pilləkənlərini görür və orada oturur, atalı-analı dünyasını xatırlayır Bax, həmin anda onun ürəyi sakitləşir Şükranlıq eləyir ki, nə yaxşı yurda qayıdıb Nə yaxşı ki, ayağı ata yurduna dəyib və nə yaxşı buranın havasını udur

Filmin ssenari müəllifi, istedadlı jurnalist Mintac Elsevər, quruluşçu rejissoru Elnur Məmmədov, operatorları Cavid Əliyev, Seymur Məmmədov, montaj rejissoru Arzum Nuruşzadə, montajçı Əli Məmmədovdur. Bu yaradıcı qrup filmin unikal səviyyədə çəkilməsində və tamaşaçı tərəfindən sevilməsində çox əziyyət çəkiblər. Zarafat deyil ey, adi bir verilişi hazırlamaq üçün böyük bir kollektiv əmək sərf edir. Bax, görün onda belə filmi ərsəyə gətirmək üçün adını və soyadını çəkdiyimiz bu yaradıcı insanlar hansı yuxusuz gecələr və narahat anlar yaşayıblar! Hələ mən əsəbi, sstresi, gərginliyi demirəm Çünki bəzən elə olur ki, çəkiliş zamanı nəsə alınmır və nəsə yerində olmur Bax, ona həm rejissor, həm də ssenarist hövsələdən çıxır Təbii ki, burada da həmin anlar olmamış deyil. Amma əsas məsələ odur ki, sonda çox gözəl və heç bir filmə bənzəməyən İmamverdi İsmayılovun portretini yaradan qeyri-adi bir film ortaya qoyulub. Buna görə yaradıcı kollektivə bir qırmızı "5" düşür!

İmamverdi müəllimin Ulu Öndər Heydər Əliyevə və Prezident İlham Əliyevə çox böyük sevgisi olub. Heç bir yazıçı-publisistin qələmə ala bilmədiyi gözəl yazıları bu dahi şəxsiyyətlər barəsində İmamverdi ismayılov yazmağı bacarıb! Onun Cənab Prezident İlham Əliyevlə bağlı, "Azərbaycan" və "Ədalət" qəzetlərində dərc olunmuş "Şah Və Mat" iki hissəli unikal yazısı böyük oxucu kütləsi tərəfindən çox sevinclə qarşılanıb. Bu yazı Azərbaycan mətbuatı tarixinə mən deyərdim ki, dil, üslub, düşüncə və fikir orjinallığı ilə qızıl hərflərlə yazılıb. Bir sözlə, düşünürük ki, "Bir ömrün tablosu " sənədli filmi İmamverdi İsmayılovu bu xalqa bir daha yenidən tanıtırdı və yenidən sevdirdi. Həm də onu bu film ən uca zirvəyə yüksəltdi!... Xalqı sevənlərin millətə, Vətənə xidmət edənlərin yeri həmişə zirvələr olub Həmişə zirvələrdə olasan, İmamverdi İsmayılov!...

**FAİQ QİSMƏTOĞLU**

# Rusiya Melkonyanın"KTMT iclasna yaxşı edirik, getmirik" fikrinə cavab verəcək



Xəbər verdiyimiz kimi, Ermənistan baş naziri Nikol Paşinyan Belarus Prezidenti Aleksandr Lukaşenko ilə telefon danışığı olub. Söhbət zamanı o, qarşı tərəfə deyib ki, KTMT-nin noyabrın 23-də Minskdə keçiriləcək sammitinə getməyəcək.

Belarus Prezidenti Aleksandr Lukaşenko da öz növbəsində Paşinyanın sammitdə iştirakdan imtina etməsinə sakit reaksiya versə də məsləhət verməkdən də vaz keçməyib. Belorus lider deyib ki, tələsik qərarlar qəbul etmə.

Təbii ki, bu Rusiyanı növbəti dəfə qəzəbləndirəcək xəbərdi. Amma Rusiya prezidenti Vladimir Putin hələki susur. Müxtəlif fikirlər bildirən, hətta Paşinyanı təhqir edən rusiyalı politoloqlar, blogger və jurnalistlər susmaq fikrində olmadıqlarını göstərirlər. Bu prosesə KTMT-ni dəstəkləyən bəzi daxili qüvvələr də qoşulub.

Bütün bunları təbii ki, Ermənistan hökümət orqanları izləyir.

Hakim Mülki Müqaviləsi Partiyasından olan deputat Qagik Melkonyan Ermənistan parlamentində jurnalistlərə açıqlamasında bir başa KTMT sevərlərə birbaşa cavab verib.

O, N.Paşinyanın KTMT iclaslarında niyə iştirak etməməsi sualına "KTMT iclaslarında iştirak etmirik və yaxşı da edirik"cavab verib. Deputat əlavə edib ki, iclaslarda iştirak etməmək Ermənistanın KTMT-dən çıxması anlamına gəlmir.

Qeyd edək ki, Paşinyan hakimiyyəti bu ilin yanvarına Rusiyanın elan etdiyi KTMT təlimini Ermənistan ərazisində keçirilməsinin əleyhinə oldu. Ondan əvvəl isə İrəvanda keçirilən KTMT sammitində yekun sənədi imzalamaqdan imtina etdi. İndi isə Belorusiyadakı sammitə getməyəcəyini elan edib. Yəqin ki, Ermənistana indiyənə qədər güzəştə gedən Putin sonda "tədbiri"ini görəcək

**Əntiqə Rəşid**

# Darçiaşvilinin Azərbaycanla Ermənistanı eyni mahiyyətdə görməsi yanlışı

**Xəbər verdiyimiz kimi, 10 noyabrda Fransadan Ermənistana göndərilən "Bastion" zirehli transportyorları Poti limanında qəbul edidl . Gürcüstan ərazisi ilə Ermənistana çatdırılan hərbi texnikanın ən azı 21 ədəd olduğu bildirildi. Böyük ehtimalla Azərbaycana qarşı silahlanan Ermənistanın "silahlandırılması" prosesində Gürcüstanın da payı olduğu beləliklə üzə çıxdı.**





Bir çox siyasi şərhçilərin ehtimalına görə, Gürcüstan Azərbaycanın strateji tərəfdaşı olsa da, Fransanın təzyiqi və şantajı qarşısında hərbi texnikanın öz ərazisindən keçidinə şərait yaradıb.

Gürcüstan xarici işlər naziri İlya Darçiaşvili Gürcüstanın İctimai Televiziyasının efirində Fransadan Ermənistana ölkəsi vasitəsilə hərbi texnikanın daşınmasına münasibət bildirməsi də ictimaiyyətdə birmənalı qarşılanmadı. Nazir bildirdi ki, Gürcüstan hər iki ölkəyə öz tranzit funksiyasından bərabər şərtlərlə istifadə etməsinə imkan verir:"Ölkələrin beynəlxalq razılaşmalarla qadağan edilməyən konvensional silah və sursatları əldə etmək hüququ var. Biz bunu Prezident Əliyevin, Baş nazir Paşinyanın və həmçinin, Azərbaycanın Baş nazirinin Gürcüstana səfəri zamanı da dəfələrlə eşitmişik. Gürcüstan hər iki ölkəyə bərabər şəraitdə ölkəmizin tranzit funksiyasından istifadə etmək imkanı yaradır. Bu, bərabər şərtlər əsasındadır. Söhbət beynəlxalq razılaşmalarla icazə verilən konvensional texnika və ya silahlardan gedirsə, istənilən ölkənin onu əldə etmək hüququ var. Bu, bizim məsələyə cavabımızdır və bu mövzuda əlavə eyham və ya söz-söhbət yersiz olar".

Yəni, Azərbaycan da hardansa silah alarsa, ona da eyni münasibət göstəriləcək, silahını əldə etmək üçün ona tranzit yol veriləcək.

Gürcüstan Ermənistanla Azərbaycanı eyni tutması bizi maraqlı məqamlara işıq salmağa sövq edir. Aydındır ki, əsrlər boyu Cənubi Qafqaz regionunda dinc şəkildə yaşayan Azərbaycan və Gürcüstan xalqları arasında formalaşan möhkəm tarixi, mədəni əlaqələr, iqtisadi-ticari münasibətlər qarşılıqlı hörmət və bərabərhüquqlu dostluğa köklənib.

Məsələn, 2023-cü ilin yanvar-avqust aylarında Azərbaycandan Gürcüstana ixracın həcmi 18.5 faiz artaraq 528 milyon 527 min dollara, Gürcüstandan Azərbaycana idxalın həcmi isə 5.8 faiz artaraq 84 milyon 342 min dollara bərabər olub.

İki ölkə arasında ümumi ticarət dövriyyəsi 612 milyon 870 min dollar təşkil edib. Bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 16.6 faiz və ya 87 milyon 133 min dollar artıb.

2022-ci ilin yanvar-avqust aylarında Azərbaycan və Gürcüstan arasında ticarət dövriyyəsinin həcmi 525 milyon 737 min dollar təşkil edib.

Azərbaycan heç vaxt Gürcüstana qarşı torpaq iddiası ilə çıxış etməyib. Amma Ermənistan "Dənizdən-dənizə Böyük Ermənistan" yaratmaq kimi mənasız xülyalara qapılaraq Gürcüstanın Cavaxetiya bölgəsini hər zaman hədəf seçiblər. Hətta, "Cavaxetiya Qarabağ kimi ermənilərin tarixi vətəni olub, sonralar bu ərazi Gürcüstana verilib" fikirlər həm erməni mediasında, həm də erməni rəsmilərinin dilində əzbər olub..

Daha sonra Abxaziya müharibəsi zamanı dinc gürcülərə qarşı ən dəhşətli cinayətləri Baqramyan batalyonu törətdiyini elə gürcülər özləri etiraf edib.

Gürcüstanın Suxumi Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Quram Marxulia etiraf etmişdir ki, Abxaziyada "Krunk" təşkilatının fəaliyyətini və 9 fevral 1993-cü ildə yaradılmış onun yetirməsi - "Baqramyan batalyonu" tərəfindən insanlığa qarşı törədilmiş cinayətləri dərindən gözdən keçirmək lazımdır:" Abxaziya müharibəsi zamanı Baqramyan adına batalyonun döyüşçülərinin qəddarlığı və vəhşilikləri gürcü və erməni xalqlarının tarixində araşdırılmamış qalır. Gürcüstan Baş Prokurorluğunda Abxaziya müharibəsi zamanı dinc gürcü əhalisinə qarşı törədilmiş cinayətlər barədə 200 cildlik material saxlanılır: "Ən dəhşətli cinayətləri Baqramyan batalyonu törədib. Bu cinayətlər hamıya məlum olmalı və dünya ictimaiyyəti tərəfindən qınanmalıdır".

Ermənilər 2008-ci ilin avqust müharibəsində də gürcülərə qarşı aşağılayıcı və kütləvi ölüm hallarına yol verdilər. Baqramyan adına batalyonun döyüşçülərinin növbəti dəfə gürcülərə qarşı kütləvi qətllər etməsi və onları işgəncələrə məruz qoyması danılmaz faktdır. Amma son 200 ildə hansı bir azərbaycanlı bir gürcüyə güllə atdı? deyə sorsaq yəqin ki, cavab verməyə sözləri olmaz.

**P.S. İndi bu faktlardan sonra Gürcüstanın Azərbaycanla Ermənistanı tərəzinin gözündə eyni çəkidə görməsi düşündürücüdür.**

**Axı, Gürcüstanı qorxudan, fikrini dəyişdirən nə ola bilər?**

***Əntiqə Rəşid***

# Psixoloq: "Buna səbəb hadisələrin sosial şəbəkələrdə..."



**Xəbər verdiyimiz kimi son günlər ölkədə qətl hadisələrinin sayı artmaqdadır. Demək olar ki, hər gün bir qətl hadisəsi baş verir.**

Bəs görən bununla bağlı həyəcan təbili çalmağın vaxtı deyilmi?

Adalet.az-ın sualını psixoloq Zeynəb Əyyubova cavablandırıb:

"Məncə, bu məsələlərin alt planında sosial şəbəkələrdə, sferalarda bu hadisələrin geniş şəkildə təbliğ olunmasıdır. Xəyanətlərin, ölüm hadisələrinin qabarıq və açıq şəkildə insanlara bildirilməsi və başqa insanlara şüuraltı şəkildə bunun öyrədilməsi olur. Yəni mən dünən, bu gün, sabah bu tip xəbərləri görürəm və öz qarşıma hansısa problem çıxanda onu sivil yolla həll etməkdənsə, ölüm hadisəsini düşünürəm. Məsələn, qısqanclıq, oğurluq, xəyanət zəminində. Yəni istər ölkədəki dırnağarası mental dəyərlər, namus üstünə qətllər, istərsə də cəzalandırma sisteminin insanlar tərəfindən olması və sair. Mənə görə bunun üçün təbliğatlar aparılmalıdır və əksi təbliğ olunmalıdır"-deyə psixoloq bildirib.

**Vasif Əlihüseyn**

# Şükür Allaha, işimiz yarımçıq qalmadı!



*Elxan Şükürlü*

**...Bu gün bizi Hərbi Parad keçirdiyimiz Xankəndiyə gətirən yol 3 il əvvəlin 8 noyabrında Şuşanı almağımızla açılmışdı!**

O Şuşanı ki, Qarabağımızın mənəvi paytaxtı sayılırdı və döyüşlərin qızğın bir vaxtında - hələ 2020-ci ilin 16 oktyabrında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bütün dünyanın gözləri qarşısında böyük cəsarət və risklə belə bir bəyanat səsləndirmişdi: "Şuşasız işimiz yarımçıq qalar!"

Şükür Allaha, işimiz yarımçıq qalmadı! 2020-ci ilin 8 noyabrında Xankəndiyə gedən yolun üzərindəki "Şuşa qalası"nı döyüşçülərimizin misilsiz şücaətlə işğaldan azad etməsiylə Ermənistan təslimçilik bayrağını qaldırdı, 9 noyabr gecəsi üzərinə Ağdam, Laçın və Kəlbəcəri döyüşsüz təhvil verəcəyi və Naxçıvana yolları açacağı da daxil, 9 maddəlik bir sənədlə öhdəliklər götürdü, beləcə, 44 günlük "Dəmir Yumruq" əməliyyatını böyük bir zəfərlə başa çatdırdıq!

Ruhu narahat Ataya və övladları şərəfli ölümün pəncəsində, gözləri intizarda olan Xalqa verilən söz, vəd yerinə yetirildi!

...Şuşanın işğaldan azad edilməsi, nədənsə, mənə həmişə İslam tarixindəki məşhur "Xeybər qalaları"nın fəthi hadisəsini xatırladıb.

Mədinənin, təxminən, 150 kilometrliyində və Şama gedən əsas ticarət yolunun üzərində yerləşmiş "Xeybər qalaları"nda məskunlaşan yəhudilər o vaxt yenicə təşəkkül tapan İslamın yayılmasındakı əsas maneələrdən və fitnə-fəsad yuvlarından birinə çevrilmişdi.

628-ci ildə Peyğəmbərimizin (s.ə.s.) özünün başçılığıyla "Xeybər qalaları" uğrunda döyüş başladı və bu qalaların fəthiylə də, yəhudilərin canlarına qorxu düşdü, onlar üzərlərinə təslimçi öhdəliklər götürməklə, Peyğəmbərimizlə sülh sazişi imzalamağa, müsəlmanların Şama gedən yolunu açmağa məcbur qaldılar...

Bu böyük fəthin müjdəsini isə əziz Peyğəmbərimiz öncədən - hələ Hüdeybiyyədə müşriklərlə müqavilə imzaladıqdan sonra almışdı.

Həmin vaxt nazil olan "Fəth" surəsinin ilk ayələrində bu möhtəşəm çağırış vardı: "Ya Peyğəmbər, həqiqətən, Biz sənə açıq-aşkar bir zəfər bəxş etdik! Allah bununla sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq, sənə olan nemətini tamam-kamal edəcək və səni düz yola müvəffəq edəcək. Allah sənə yenilməz qələbə verəcək"...

Dostlar, inanın, bizim bu gün böyük coşğu və təntənəylə qeyd etdiyimiz misilsiz Qarabağ zəfərimizin kökündə də, bir tərəfdən, əsgər və zabitlərimizin şücaəti, xalqımızın mütəşəkkil davranışı və Prezident İlham Əliyevin Ali Baş Komandan kimi yüksək əzmkarlığı, qətiyyəti və doğru qərarları durursa, o biri tərəfdən də, bütün bunların təməlində, ilk növbədə, Allahın iradəsi yatır!

O Allahın ki, bu zəfərlə bizim günahlarımızı bağışlamaq və bizi bir xalq olaraq, doğru yola yönəltmək istəyir!

Yetər ki, bunu anlayaq, ayılaq, geriyə baxaq, keçmiş səhvlərimizdən nəticə çıxaraq, kini, nifrəti bir kənara tullayaraq, bir-birimizi sevək, hamılıqla əl-ələ verməklə övladlarımızın, gələcək nəsillərimizin dinc və xoşbəxt yaşadığı gözəl bir ölkə, ədalətin hakim olduğu firavan bir cəmiyyət quraq!

Bizi yenidən yaradan Zəfər Günümüz mübarək! Allah millətimizin və ümmətimizin qələbələrini daimi etsin!

# "Azərbaycanı niyə sevmirsən?"



**Mənim atam Azərbaycan deyə-deyə hər şeyini itirib. Onlar Azərbaycan deyə-deyə elə qazanırlar. Oturub Azərbaycanı tənqid edirlər. Xalq belədir, filankəs belədir. Yun çubuğunu götürüb yorğanı vururlar ha, Azərbaycanı yun kimi vururlar".**

Adalet.az xəbər verir ki, bu sözləri "Toplum" TV-yə müsahibəsində yazıçı, telejurnalist Həmid Herisçi deyib.

"Rəhmətlik baxdı, baxdı, dedi ki, bütün xainləri görmüşəm. Mən Azərbaycanı sevirəm. Sən heç nə itirməmisən. Yeddi bacını itirməmisən, yeddi qardaşını itirməmisən, 30 il qürbətdə qalmamısan, yoldaşlarını itirməmisən, sən 30 il qürbətdə məktub almamısan, sən gizli şəkildə Təbrizə gedib-gəlməmisən, sən nəyə görə Azərbaycanı sevmirsən? Sən Azərbaycana görə ancaq qazanmısan. Xalq şairi olmusan, qonorar qazanmısan, "Azərbaycan" şeiri yazıb orda-burda oxuyub özünü sevdirmisən, tərif qazanmısan, özünə qonorar yazdırmısan, özü də üç sıfırlı, ezamiyyətlərə getmisən, xarici qonaqların yanında Azərbaycan deyə-deyə pırıldanmısan, nə olsun? Tutaq ki, Azərbaycan lap yeni ölkədir, Amerika kimi. Bəlkə belə yaxşıdır? Mən bilirəm ki, biz qədimik. Amma yeri gələndə, şahmat taxtasındakı bütün fiqurları sol əlimlə vurub atardım yerə. Deyərdim, sıfırdan başlayaq? Mən elə Amerikanlar kimi təzə millətəm. Mən bugünün millətiyəm. Mənə elə gəlir ki, Azərbaycan xalqında həm də o var. Biz həm qədimik, həm də yeniyik. Yeni xalq köhnə xalqı udacaq. Ermənilərə də bunu demək istəyərdim. Çünki dünyanın qanunu budur".

**Emin**

# Qənbər ŞƏMŞİROĞLU - 90



**SALAMLARIM VAR**

Şahdağdan üz tutub Murova baxdım,
Bu taydan o taya salamlarım var.
Kəpəzin o üzü gözəl diyarda,
Düşmən tapdağında qalanlarım var.

Odu kirpiyində götürənlərim,
Həsrətlə köksünü ötürənlərim,
Çoxdan əzizini itirənlərim,
Ah çəkib saçını yolanlarım var.

Elin köməyilə çörəklənmişəm,
Dirçəlib, dirçəlib zirəklənmişəm,
Orduma baxaraq ürəklənmişəm,
Bilirəm qanımı alanlarım var.

Eşitdim gücünü, gördüm hünərin,
Qənbərəm, sevdiyim sərkərdələrin.
Həddini bilməyən nanəciblərin
Canına vəlvələ salanlarım var.

26 avqust 2016

**GƏZDİM**

Dastan məclisində, el məclisində
Söz sərrafə olan dədəmi gəzdim.
Döşəyin üstündə bardaş oturub,
Şirin dinlədiyim vədəmi gördüm.

Elə mahir idi sözdə, seçimdə,
Səhvə yol verməzdi ölçü-biçimdə,
Astaca-astaca evin içində
Atdığı mübarək qədəmi gəzdim.

Həmişə nəsihət eşitdim ondan,
Kim incik qalardı belə adamdan?!
Uyğunsuz qəbahət etdiyim zaman
Mənə eylədiyi hədəmi gəzdim.

**BİR ÖMÜR - BİR DÜNYA**

*Həyat yoldaşım Diləfruz Məcid qızına*

Kökün naxçıvanlı, südün cənublu,
Şəmkirdə dünyaya təşrif buyurdun.
Ananı itirdin körpəliyində,
Nənənin yanında durdun, oturdun.

Çoxu səndən abır-həya götürdü,
Qismətini tale özü yetirdi,
Allaha şükürlər bəxtin gətirdi,
Səxavətlə ac qarınlar doyurdun.

Qaynanan da Güllü, nənən də Güllü,
Səni öyrətdilər çox şirin dilli,
Hər birini sevdin özün könüllü,
Əql-kamal ilə ev-eşik qurdun.

Mahir oldun qohum-qardaş seçimdə,
Səhv etmədin bir ölçüdə, biçimdə,
Gəlinlər içində, qızlar içində
Məhəbbətlə xeyirxahlıq yoğurdun.

Eşitmədim artıq giley-güzarı,
Əzizlədin mənim kimi yazarı,
Doğru seçə bildin mərdimazarı,
Yeri gəlsə, başına kül sovurdun.

İyul, 2016

**QAĞA**

*Gənclik dostum Vəliyəddin İsmayılova*

Çəkilmişəm şəhərlərin qoynuna,
Hələ yaşayıram birtəhər, qağa!
Sayıram günləri, keçir birbəbir,
Durub gəzişirəm hər səhər, qağa!
Beş aydı dostları görə bilmirəm,
Zəng olur, cavab da verə bilmirəm,
Gedim hansı səmtə, yerə, bilmirəm,
Düşmüşəm obadan dərbədər, qağa!
Eyləyib könlümü dərd dəlik-dəlik,
Dözüb tablayıram, inan, hələlik,
Belə yaşayıram birtəhər, qağa!
Allaha min şükür, igidlərim var.
Çətinlik çəkməyə qoymayır onlar,
Hayana üz tutsam yanımdadırlar,
Məni nə qəm boğur, nə kədər, qağa!
Çin olsun, Qənbərin bir arzusu var,
Deyəsən: - Ay qağa, çoxdu qonaqlar!
Bizi qarşılaya yenə bulaqlar,
Qoyaq at belinə bir yəhər, qağa!

*28 avqust 2016*

**QALDI**

Mənim bu diyara qonaq gəlməyim,
Məmməd Araz demiş, bəlkəyə qaldı.
Tək bircə sətirim qalsa yadigar
Deyərdim: şükürlər, ölkəyə qaldı.

Qayıdıb enirik arana doğru,
Çiçək-gül bitirməz şorana doğru.
Qaçırıq küləklər vurana doğru,
Ümidlər yenə də kölgəyə qaldı.

Hanı, görünməyir dumanlı dağlar,
Hədər danışmağın nə mənası var.
Suyu bal şərbətli sərin bulaqlar
Qənbərin sevdiyi bölgəyə qaldı.

24 avqust 2016

**OLMUŞAM**

Daha əlim yetmir, dağ düşməndədir,
İsti torpaqlarda aran olmuşam.
İçmədim bu yerin axmaq suyundan,
Mən də torpaq kimi şoran olmuşam.

Ta gedə bilmirəm yurduma sarı,
Zaman əldən alıb bu ixtiyarı.
Suyunu içdiyim buz bulaqları
Qatar durnalardan soran olmuşam.

O yerdə müqəddəs çörəyim qalıb,
Qanıma bələnmiş köynəyim qalıb,
O köynək içində ürəyim qalıb,
Artıq ürəyimdə taran olmuşam.

Az qala gözümdə itib görkəmi,
Qəlbimdə yaratək bitib görkəmi.
Zirvədə hayqıran qar-boran kimi
Aranda özüm də boran olmuşam.

Tapdanıb elimin namusu, arı,
Başını qalxıza bilmir yuxarı.
O yerdə dağılan yurd-yuvaları
Qənbər, xəyalında quran olmuşam.

**BAXMIR ÜRƏK**

Məndən inciyib, küsüb,
Sözümə baxmır ürək.
Nə hallara düşmüşəm,
Özümə baxmır ürək.

Yamac-yalım qalmayıb,
Xoş əhvalım qalmayıb,
Daha halım qalmayıb,
Dözümə baxmır ürək.

Danışmağa qorxuram,
İllər üçün darıxıram,
Dosta doğru baxıram,
Gözümə baxmır ürək.

**BULUDA**

Diqqətimi yönəltmişəm
Koma-koma ağ buluda.
Həsrətlə tamaşa edir
Neçə-neçə dağ, buluda.

Asta-asta sürür atın,
Qucağında kainatın.
Gəzər göyün yeddi qatın,
Desən hansı çağ, buluda.

Çəmən-çiçək bütün günü
Kəsməz heç vaxt ümüdünü.
Mələklər deyər: - Südünü
Torpaq üstə sağ, buluda.

2016

**"SARITEL ÇAL"**

*Aşıq Mehdiyə*

Mehdi bala, dəfnimə gəl,
Qəbrim üstə "Sarıtel çal".
Bir qədər də bənövşə tap,
Eylə dəstə, "Sarıtel çal".

Həsrətini çəkdim hər gün,
Dözmək mənə oldu çətin.
Bilirsən ki, dağlar üçün
Oldum xəstə, "Sarıtel çal".

Bir ağız da zildən oxu,
Kəlmələrdən ilmə toxu.
Şirin olsun sözün çoxu,
Asta-asta "Sarıtel çal".

Keçər aylar, keçər günlər,
Baharda açılar güllər.
Necə oxusa bülbüllər
O həsrətdə "Sarıtel çal".

Bədənim ağa bükülsün,
Üstümə torpaq tökülsün,
Bacılarım layla desin,
Sən ahəstə "Sarıtel çal".

Gömrük xəstəxanası,
Dekabr, 2013

**KÖLGƏN ÇOX MÜBARƏK, AY AĞCAQAYIN**

Kölgən çox mübarək, ay ağcaqayın,
Meşə ətəyində, kəndin üstündə.
Bitib, pərvazlanıb bir ağcaqayın,
Hər buradan ötüb, burdan keçəndə
Tamaşa etməyə ayaq saxlayın.

Yaşı yəqin olar əsrdən artıq,
Xeyli gövdəlidi, xeyli budaqlı.
Bu gün kölgəsində biz qonaq olduq,
Elə xəlq edilib enli yarpaqlı.

Ətrafında çoxlu meyvə əkiblər,
Almalar, armudlar, gilaslar da var.
Əkənlər tər töküb, zəhmət çəkiblər,
Amma bu ağaca ayrı baxıblar.

Dibi səliqəli düzəldilibdir,
Rahat kreslolar, stullar da var.
Bu gün də bir xeyli qonaq gəlibdir,
Ətrafa səs salır dəcəl uşaqlar.

Biz də qonaq kimi gəlmişik bu gün,
Var olsun bizləri dəvət edənlər.
Artır qayğıları, artır büsbütün,
Yaxşı xidmət edir qulluq edənlər.

Ömrün bir gününü xoş yola saldıq,
Unudulmaz heç vaxt bu haqqı-sayın.
Bu istirahətdən çox razı qaldıq,
Kölgən çox mübarək, ay ağcaqayın!
Quba rayonu, Qəçreş kəndi.

06.07.2016

**OĞUL VAR**

Ata-ana gülər oğul olanda,
O qul olar oda-ocağa qurban.
Oğul var, aləmə nurlu çıraqdı,
Mən olum o nurlu çırağa qurban.

Oğul cəsarətdi, oğul hünərdi,
Oğullar vətənə çox fəda verdi.
Oğul var, danəndə, həm dilavərdi,
"El!"- deyər, o dilə-dodağa qurban.

Oğul var, vurmaqdı işi, adəti,
Tərgitməz heç vədə, etmə minnəti.
Oğul var, şöhrəti, adı, hörməti,
Eyləyir bir qarın arağa qurban.

**QALIB**

İndi başa düşdün - çox gec də olsa,
Məni dindirməyə həvəsin qalıb.
Amma söyləyim ki, qulaqlarımda
Əmr edib dediyin: "Get!"- səsin qalıb.

Sözün düz olmalı könül evində,
Ağdam şəhərində, Şelli kəndində-
Söhbət eləyəndə tutun dibində
Üzümə toxunan nəfəsin qalıb.

Ömür günəş kimi dağdan aşəbdı,
Qəm-kədər səninlə qucaqlaşıbdı.
Bilirəm ki, hamı uzaqlaşıbdı,
Nə bir kimin qalıb, nə kəsin qalıb.

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun nəşr etdiyi "Ana Tarla" kitabının təqdimatı keçirilib



**Görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun 95 illiyi münasibətilə 13 noyabr 2023-cü il tarixində Bakı Ekspo Mərkəzində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun nəşr etdiyi "Ana Tarla" kitabının təqdimatı keçirilib.**

Kitabın Azərbaycan dilində çap olunması qırğız xalqının görkəmli yazıçısı, ictimai-siyasi xadimi Çingiz Aytmatovun zəngin irsinin tanıdılması, eləcə də təşkilatın qurucu üzv ölkələri Azərbaycan ilə Qırğızıstanın ədəbi-mədəni əlaqələrinin daha da gücləndirilməsi məqsədini daşıyır. Əsəri Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair, publisist, tərcüməçi Teymur Elçin tərcümə etmişdir. Nəşrdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı və dəstəyi ilə Çingiz Aytmatovun "Ana tarla" povesti əsasında səhnələşdirilən dram, eləcə də cari ilin aprel ayında Bakı Bələdiyyə Teatrı tərəfindən nümayiş olunan tamaşadan fotolar yer alır.

Tədbirdə çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun qurucu prezidenti Günay Əfəndiyeva Bakıda 9-cu Beynəlxalq Kitab Sərgisinin Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmasının böyük simvolik məna daşımasından söz açıb. O, Heydər Əliyevin mədəniyyətə, incəsənətə xüsusi məhəbbətindən bəhs edərək, Ulu Öndərin Azərbaycanın və bütövlükdə Türk Dünyasının sənət adamları, şair və yazıçıları ilə səmimi münasibətlərinə diqqət çəkib. Günay Əfəndiyeva Ulu Öndərin bu il 95 illik yubileyi qeyd olunan, Qırğızıstanın və Türk ədəbiyyatının böyük siması Çingiz Aytmatov ilə dostluq əlaqələrini vurğulayıb.

Günay Əfəndiyeva Fond tərəfindən Çingiz Aytmatovun "Ana Tarla" kitabının nəşrinin əhəmiyyətindən, əsərin mövzusunun müasir dünyada, eləcə də Azərbaycanda aktuallığından bəhs edərək, bildirib: "Əsəri oxuyarkən Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünü bərpası naminə canlarını fəda etmiş qəhrəman oğulların və onları bizlərə bəxş edən anaların obrazları gözlərimizin önündə canlanır. Bu kitab Vətən uğrunda şəhidlik zirvəsinə ucalmış igid oğulları böyüdüb boya başa çatdıran mərd analara ithafdır".

Tədbirdə Qırğız Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmonaliyev çıxış edərək, kitabın Azərbaycan dilində nəşrini Azərbaycan və Qırğızıstan arasında tarixi dostluq münasibətlərinin, ədəbi əlaqələrin inkişafına töhfə kimi qiymətləndirib. Səfir layihənin həyata keçirilməsinə görə Beynəlxalq Türk Mədəniyyətinə və İrsi Fonduna təşəkkür edib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Musa Quliyev Çingiz Aytmatovun dünyəvi mövzuları ehtiva edən ədəbi-bədii yaradıcılığından söz açıb. Musa Quliyev Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən kitabın həm Qırğızıstan, həm də Azərbaycan üçün əlamətdar olan bir ildə işıq üzü görməsini gözəl mədəniyyət hadisəsi kimi qiymətləndirib. O, Fondun gənc təşkilat olmasına baxmayaraq, qısa müddət ərzində Türk xalqlarının tarixi-mədəni irsinin, ədəbiyyatının təbliğində, ictima-siyasi əlaqələrinin möhkəmlənməsində önəmli rol oynadığını vurğulayıb.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnsitutunun icraçı direktoru Mehman Həsənli tədbirdə çıxış edərək, Çingiz Aytmatovun həyat və yaradıcılığından bəhs edib. O, görkəmli ədibin "Ana Tarla" əsərinin dərin milli və bəşəri məzmununa diqqəti çəkib. Natiq Fond tərəfindən kitabın hazırlanmasının və nəşrininin bütövlükdə Türk Dünyası üçün böyük əhəmiyyətə malik olduğunu bildirib.

Tədbirin bədii hissəsində Bakı Bələdiyyə Teatrının aktyorları Elməddin Zabitli və Zülfiyyə Qurbanova Çingiz Aytmatovun əsərlərindən parçaları, eləcə də Azərbaycan şairləri tərəfindən yazıçıya həsr olunmuş şeirləri səsləndiriblər.

Daha sonra Fondun Bakı Bələdiyyə Teatrı ilə əməkdaşlığı çərçivəsində "Ana Tarla" əsəri əsasında hazırlanmış tamaşadan səhnələr göstərilib. Tamaşanın quruluşçu rejissoru, Azərbaycanın Xalq artisti Mərahim Fərzəlibəyovdur.

Tədbir böyük maraq və alqışlarla qarşılanıb.

Təqdimatda tanınmış mədəniyyət və incəsənət xadimləri, Türk dövlətlərinin Azərbaycanda akkreditə olunmuş diplomatik korpusunun nümayəndələri, ictimaiyyət və KİV təmsilçiləri iştirak ediblər.

## "Susdum" deyib, susa bilməyən şairlə MÜSAHİBƏ




**Eminquey imzası oxucu kütləsinə çoxdan tanışdır. 2013-cü ildən mətbuatda şeirləri çap olunur. Jurnalistikada da özünə oxucu kütləsi topladığı danılmaz faktdır. Bir sözlə, "Ədalət" qəzetinin əməkdaşı - bizim Emini ictimaiyyətə tanıtmağa ehtiyac yoxdu. Kifayət qədər tanınır və oxunur. Bu günlərdə onun 2-ci kitabı işıq üzü görüb. Maraqlıdır ki, həm şeirləri, həm publisistik yazıları ilə oxucularının diqqətində olan Emin kitabın adını "Susdum" qoyub.**

**-Gənc olaraq cəmiyyətdə olan bəzi ədalətsizliklərə susmayan gənc yazar necə olur ki, yeni kitabının adını "Susdum" adlandırır?! Emin, bu "Susdum" hesab edirəm mənim qədər oxucularını da maraqlandırıb. Yeni bir kitab çap etdirməyin, mediada mütəmadi olaraq yazılarla çıxış etməyin, şeir sevərlərin könlünü tez-tez oxşamağın susmaqla əlaqəsi yoxdu axı...**

- Əvvəla, xoşdur ki, mətbuatda işləyən dostlarımın, tanışlarımın "Susdum"a "susduğ"u bir vaxtda 6 ildən uzun bir müddətdir çalışdığım doğma redaksiyada iş yoldaşımla yeni kitabımdan danışıram, yəni susmuram. Bilirsən, insanlar həmişə danışan adamlara əl çalıb susan adamların yanında dayanırlar. Otuz yaşa kimi gördüklərim və özümdən əvvəl yaşayan susmayan adamların həyatı buna ən yaxşı nümunədir. Lap geriyə getsək, insan dünyaya çığıra-çığıra gəlir və anasının ona ilk öyrətdiyi şey susmaq, kiriməк olur. İnsan dil açana kimi ona hər daim susmaq öyrədilir.

Susmaq dünyada insan var olandan bəri trenddir, yeganə şeydir ki, heç vaxt dəbdən düşmür. Bir yandan da, bu ad bir dünyalının, xüsusən də azərbaycanlının kod adıdır. Kitabın üz qabığında özümdən bir aforizm də yazmışam - "Susmaq qızıldır, ona görə Azərbaycanda qızıl dişlər bir vaxtlar dəb olub". Və kitabımın içində də bir mətn var ki, adı "Susdum"dur. Bir azərbaycanlının gündəlik susduğu epizodları qələmə almışam. Dedim, qoy kitabın adı da belə olsun, onsuz da məni tanımayan bir adam da kitabı oxuyanda görəcək ki, susmamışam.

**-Hazırda Azərbaycan ədəbiyyatında sənin intizarla gözlədiyin yazarlar varmı ki, sən onları oxuyanda mənəvi rahatlıq tapırsan, necə deyərlər "doyursan"?**

- "Ac" olanda Aydın Canı oxuyuram. Onun hər yazısında toxunduğu mövzuların, xitab etdiyi insanlar, yaxud da hadisələrin həm mətbəxini bilirəm, həm də tarixini bilirəm. Hərdən görürəm ki, yazısı çox uzundur, əvvəlcədən hazırlaşıram. İşlərimi bitirib girişirəm mətnə. Adamın yazılarında gülüş, kədər, qəzəb, məyusluq - hər şey var. Onun cümləsi əsəbidirsə, mən də əsəbiləşirəm, rişğənd edirsə, mən də dodağımı əyib oxuyuram. Aydın çox mazoxist, hətta biraz da kobud desəm, sadist yazıçıdır. Adam var ki, çiyninə toxunsan adamı deşik-deşik edər, amma yazılarında elə mədəni, elə mülayimdir, mat-məəttəl qalırsan. Aydın özü necə boy-buxunlu, dəliqanlıdırsa, yazıları da o cürdür. Azərbaycan ədəbiyyatına gəldikdə isə, Həmid Herisçini oxuyuram. Bir çox gənc yazarı onun yaradıcılığı ilə




mən tanış etmişəm. Sonradan bir çoxları seviblər, onlar da başqalarına tövsiyə ediblər. Həmid də mənim üçün çox maraqlı imzalardandır. Axtarış cəhətdən, mistik simvollarla işləmək cəhətdən bir-birimizə oxşayırıq. Aqşin Yeniseyin də yazılarını maraqla oxuyuram.

**-Dünya ədəbiyyatı inciləri haqqında məlumatlı olduğunu bilirəm. Dünya ədəbiyyatının Klassiklərindən kimləri oxuyursan, hansı yazarların əsərlərini dönə-dönə oxumaqdan zövq almısan?**

- Yadıma gəlir ki, BSU-da oxuyanda bizə uzun bir siyahı vermişdilər. Oxunası müəlliflər, əsərlər cərgələnmişdi. Ən son mərhələ oxunacaq əsərlərdən biri Cek Londonun "Martin İden" əsəri idi. Mən fakültəyə qəbul olanda artıq o əsəri oxumuşdum. Universitet vaxtı mütaliədən geri qalsam da, sonralar çox əsər oxumuşam. Bunu heç vaxt gözə soxmağı xoşlamıram. Mənə oxuduğum əsərlərdən nə əxz etmək lazımdırsa, edirəm, vəssalam. Əgər sırf ad çəkmək lazımdırsa, son dövrlərdə argentinalı yazıçı Marselo Birmaherin "Dul" hekayəsini oxumuşam. Çox maraqlı, təsirli və qısa hekayədir. Naomi İşiquronun "Ayı"sını, Fernanda Melçorun "Ağciyər"ini oxumuşam. Romandan çox, hekayə oxumağı sevirəm. Türkiyə şairlərinin əksəriyyətini oxumuşam, hal-hazırda yazıb-yaradanlardan. Ən çox bəyəndiklərimdən Ah Muhsin Ünlüdür. Ən çox sevdiyim şeiri "Resulullahla benim aramdakı farklar" şeiridir. Statistika xatirinə kitab oxuyan deyiləm. Oxuduğum kitabı zövq ala-ala oxumasam, canıma yatmır. Zövq aldığım kitabı isə oxumağa xəsislik edirəm. Çalışıram ki, tez bitməsin.

**-Hazırda 5-6 cümləni ard-arda qoşa bilən bir çox insanlar bahalı çap üsulu ilə kitab nəşr etdirir. Bu kitab bolluğunda qorxmursan ki, birdən sənin kitabların diqqət cəlb etməz, özünə oxucu tapa bilməz?!**

- Guya o bahalı kitabları oxuyan var ki? Belə bir fobiyam yoxdur. Əgər kitab bazarında müəlliflərin azı 50 min tirajla satıldığını görsəydim, onda bu qorxuya düçar olardım. Çünki kitab çap etdirmək həm də rəqabət deməkdir. Amma indiki halda, qəti belə bir qorxum yoxdur. Kitabım çox ləng satılır, bunun səbəblərini də bilirəm. Mənim oxucularımın böyük bir qismi bölgələrdə yaşayır. Bir ay ərzində bölgələrə az kitab göndərməmişəm. Bunun adı qorxudan çox, təəssüf hissidir. Yazırıqsa, çap etdiririksə, demək ki oxunmağa ehtiyacımız var. Məsələnin bir tərəfi isə bizim hər şeyə statistika kimi baxmağımızdadır. Keyfiyyətə yox, kəmiyyətə meyil edirik. Bir kitabın çox satılması, hələ bir müəllifin çox oxunması demək deyil. Kitab alanların hamısı o kitabı oxumur.

Kitab Sərgisində dini kitabları pulsuz paylayan stend var idi. Bir adam yazmışdı ki, Azərbaycan yazarları ibrət alsın, ay ora gələn uşaqların cibində pul yox idi-zad, Məleykənin göz yaşları. Adam o qədər düşüncəsizdir, anlamır ki, o dini kitabları paylayan adamların arxasında yaxşı "sponsor" dayanır. Dini təbliğat üçün, ideologiya yeritmək üçün. Evimdəki kitabxanamdan 9 dənə dini kitab tapmışdım. Anama gətirib veriblərmiş. Baxdım ki, Adnan Oktardır müəllifləri. Aparıb qoydum zibilliyin yanına. Zibilliyə atmadım ki, kitabdır, kitaba yazığım gəldi. Biz yazarları arxasında isə qoz da yoxdur. Ağlamaq kimi çıxmasın, nisyə kitab çap etdirmişəm, hələ də pulunu verib qurtarmamışam. Niyə pulsuz paylamalıyam? Pulunuz olmayanda, dükanda sizə pulsuz ərzaq verirlər? Niyə "ədəbiyyat-kitab-pul" mövzusunda bu qədər insanpərvərliyiniz tutur? Bizə qalıb kasıblığınız?

**-Emin, jurnalist olduğun üçün bu sualı da vermək istəyirəm sənə... Səncə, insanların kitabdan uzaq düşməsinin səbəbkarı nədir? Sosial şəbəkələr, iqtisadi çətinlik, mənəvi aşınma? Nə?**

- Bu barədə çox danışılıb, məncə məsələ hamıya aydındır. Azərbaycan insanı real şeylərə pul xərcləməyi sevir. Bir şeyi əldə edəcəksə, təsirini anındaca görmək istəyir. Məsələn, Manaf Ağayevə 10 min manat verir, bilir ki, 6 saatlıq toyu var, Manaf gəlib oxuyacaq, "Uy, uy, uy" eləyəndə kədərlənəcək, "Ay canı yanmış" deyəndə oynayacaq. Pulu verir, alacağını alır. Kitab elə deyil axı?! Kitaba pul ver, bunu al, sonra gətir oxu, sonra oxuduğunu dərk elə, nəticə çıxar və s. Uzun prosesdir. Azərbaycan insanının ayda 5 toya gedib hərəsində 6 saat dürt deyincən yeməyə, oynamağa vaxtı var, amma bir saat kitab oxumağa vaxtı yoxdur.

Sovet dövrümüzü silib görməzdən gəlsək, müstəqil dövlət kimi yeniyik. İnsanın yaşı ilə dövlətlərin yaşı arasında yer ilə Allah arasındakı zaman qədər fərq var. Fərz edin ki, Azərbaycanın dövlət kimi 30, insan yaşı ilə isə hələ 3 yaşı var. 3 yaşında uşaq hələ təzə-təzə dil açmağa, danışmağı öyrənməyə başlayır. 6 yaşında isə artıq yazıb-oxumağı öyrənir. Ümid edək ki, Azərbaycan 6 yaşına olanda, yəni azı 30 il sonra yazıb-oxumaq problemi olmayacaq.

**- Bir gənc yazar olaraq kitab çapının ədəbi komissiyaların nəzarətində çapa hazırlanması hansı effekti verər? Lazımsız, mənasız, ideologiyası olmayan kitabların çapının qadağan olması cəmiyyətə nə verər, nə alar?**

- Azərbaycan bunu bir dəfə Sovet dövründə yaşayıb. Azərbaycan bu senzuraya Hüseyn Cavidini vermişdi, Mikayıl Müşfiqini vermişdi, Şərifzadəsini vermişdi. Ona görə də mən belə bir nəzarət komissiyasının tamamilə əleyhinəyəm. Aqil Abbas demiş, Allahın bacısı oğlu gəlib oturmayacaq o komissiyada ki, ədalətinə güvənəsən.

**- Uğur olsun, Emin!**

**Əntiqə Rəşid**



Əbülfət MƏDƏTOĞLU

# SÜKUTLA ÜZ-ÜZƏ

**Adətimdi, hər hansı bir yazını yazmamışdan öncə əvvəlki yazılarımı gözdən keçirirəm. Bu da səbəbsiz deyil. Çünki mənim yazılarımın böyük əksəriyyəti bir növü əgər belə demək mümkünsə, bir-birinin davamıdı, ardıdı. Ona görə ki, həmin yazılarımı mən yaşayıb yazıram. Onlar mənim təkcə duyğularımın, hisslərimin ifadəsi deyil. O həm də arzularımın, xəyallarımın, yuxularımın və bir də həqiqətən yaşadıqlarımın yazıya köçürülmüş, lentə alınmış görüntüləridi. Ona görə də əvvəlki yazılarımı gözdən keçirmək məni həm kökləyir, həm də az-çox tərkrardan qaçmağıma şərait yaradır. Bax, bu mənada məni daim oxuyan oxucularım yəqin ki, bu dediklərimin canlı şahidləridilər və müəyyən qədər də mənimlə razılaşarlar...**

Bəli, həyatın elə məqamları var ki, onu sükutla qarşılayıb, sükutla da yola salırsan. Təbii ki, bu kənardan belə görünür. Duyğusal insanların sükutu da söhbətdi, danışıqdı, yazıdı. Bax, bu mənada mən bütün sükutların səssiz söhbət olduğuna inanıram və özüm də sükutla qarşılayıb, sükutla yola saldığım hər bir anı, hər bir yaşamı içimdə bəlkə də ən haylı-küylü məqamlardan daha çox həmsöhbətə çevirirəm. Çünki həmin sükutlu an mənimlə o sükutun baş-başa qalmasıdı... mənim o sükutun dizinin dibində oturub bütün diqqətimi ona yönəltməyimdi. İlahi, sükutda nə boyda ürək varıymış, nəfəs varıymış söz-söhbət varıymış. Dinlədikcə doymaq olmur. İndinin özündə də mən həmin sükutun səsini eşidirəm, hənirini duyuram. Və mən inanıram ki, o sükut da məndən nə isə özünə hopdurub, məndən nə isə qoparıb alıbdı. Əgər belə olmasaydı, biz bir-birimizə bu qədər bağlanmazdıq!

...Və mən də sükut dilində bu yazını diqtə etməyə başlayıram. O dili bilənlər mənimlə razılaşacaqlar. Axı mən onların da ürəyindən keçənləri, düşündüklərini yazıya köçürürəm...

Hə, dörd divarın arasında, qapının, pəncərənin bağlı olduğu bir məqamda, ilk baxışdan həyat əlamətinin duyulmadığı bir ovqatın içində, eşidirəm bu səsi. O səs bəlkə də qeybdən gəlir... bəlkə də divarların səsidi... bəlkə də yazı masamın... lap elə bəlkə də əlimdəki qələmin səsidi.. Amma çox doğmadı, çox həlimdi. O qədər ruhuma, ürəyimə doğmadı ki, özümdən asılı olmadan o səsin sənə aid olduğuna qərar verirəm. Bu da bir Tanrı hökmü, bu da bir üz tutub, and içib qiblə saydığım varlığın məndə bir anın içərisində yaratdığı qərarın, hisslərin ifadəsidi. Bu sənin səsindi

Hə, bax elə həmin o səs indi əlimdən tutub. Özümü güvənli, ayaqda durmağı haqq etmiş biri kimi sayıram. Elə bilirəm ki, məni heç nə və heç kim nə yerimdən tərpədə biləcək, nə də o səsi məndən almağa gücü çatacaqdı. Çünki o səsin şah damarı səndən gəlir, sənə bağlıdı. Sənə bağlı olan hər bir an, hər bir duyğu, hər bir hiss həm də Tanrının özünə gedib çatır. Elə bilməyin ki, bu asilik əlamətidi. Yox, sadəcə olaraq, gerçəyi bilmək, gerçəyi dilə gətirmək çətin olsa da, lazımlıdı, vacibdi, həm də zəruridi. Bu üç əlamətin içərisində sükutu görmək ümumiyyətlə, o içindəkiləri haqq etmək ən böyük mükafat və hardasa həm də ən halal şərəfdi. Çünki onu sevgini verən, sevgini qəlbinə hopduran bağışlayır sənə. Allahın verdiyini, bağışladığını da yalnız Allah geri ala bilər. Düşünmürəm ki, belə bir cəza, belə bir ağır ittiham mənə də aid edilsin. Axı mən öz dünyamın hər anında, hər yerində yalnız öncə söylədiklərimi, yəni Allahımı və səni görmüşəm və görürəm. Deməli, özüm-özümü nədə və necə ittiham etsəm də, son nöqtə, son nida bəlli gücün, bəlli qüdrət sahibinindi.

Heç kim heç nədən sığortalanmayıb. Bu fikir birbaşa mənəvi anlamda ifadə olunur. Yəni burda söhbət fiziki yanaşmadan, sosial müstəvidən getmir. Məlumdur ki, dünyanın hər yerində müxtəlif formada, müxtəlif adlı sığortalar var. Hətta eşitdiyimə görə, məzarını, cəsədini də sığorta etdirən var. Yəni bu hər kəsin öz qərarı, öz yanaşmasıdı. Amma mənəvi sığorta o zaman mümkün ola bilər ki, bütün düşüncələr, duyğular, hisslər bir-birini tamamlasın. Yəni obrazlı desəm, nəfəs-nəfəsə qarışsın, bütövlük, tamlıq yaransın. Burda ağıla xoşbəxtlik deyilən bir məfhum, bir fikir gələ bilər. Amma siz də bilirsiniz ki, xoşbəxtlik nisbidi. Nəyə görə o da bir an çəkir? Çünki dəyişən anlar ovqata təsir etdiyindən həmin o böyük xoşbəxtlik də zorən əriməyə məhkum olur. Lap çılpaq desəm, ən xoşbəxt anın içərisində qəfil bir zəng, qəfil bir hadisə, ümumiyyətlə, gözlənilməz nələrsə baş verəndə və həmin ən xoşbəxt an baş verənlərin içərisində çıxılmaz durumda qalar. Buna isə sığorta yoxdu, buna isə kiminsə qarant dayanması mümkünsüzdü. Kimliyindən, hansı imkanların sahibindən asılı olmayaraq. Deməli, mənim baxış bucağıma görə ən gözəli həmin o mənəvi sığortadan çox ürəyə, ağıla güvənməkdi. Ürək və ağıl dil tapa biləndə adamın bütün dolamalardan keçməsinə, bütün qaranlıqları yarmasına yardımçı olur. Mən bu qərarımda artıq dəyişməsi mümkün olmayan bir mövqedə dayanmışam. Düşünürəm ki, bu mövqeyimlə də heç kəsin xətrinə dəymirəm, nə də haqqına müdaxilə etmirəm. Axı, bizim fikir azadlığımız təmin olunubdu. Və...

İndi ovqatımın qapısını döyən telefon zəngi bu yazının damarına deyəsən yavaş-yavaş əsəb qatmaq istəyir. Mən də həm oxucularıma, həm də içimdəmki duyğularıma ötəri də olsa o əsəbi hiss etdirməmək üçün öz-özümə pıçıldayıram:

Səssizliyin içində
Səssiz qala bilmədim...
Səssizliyin içindən
Səssiz ala bilmədim -
Səni!

Sükutun caynağında
Fikrə dala bilmədim...
Sükutun caynağından
Çəkib ala bilmədim -
Səni!

Tənhalığın çökdüyü
Vücudumu əzirdim...
Ümidimin sökdüyü
Dan yerində gəzirdim -
Səni!

Xəyalımla yuxumu
Qarışdırdım... və yozdum...
”Görünməyən ulduzlar”
Dəftərindən mən pozdum -
Səni!

İçimdən qaçan özüm
Bu halıma çəkildim...
Bir də baxıb gördüm ki,
Ürəyimə əkirdim -
Səni!

Bəli, bax, budur özünə çəkilmənin, öz sükutunun həmsöhbəti olmanın bir işartısı da!.. Təbii ki, mən heç kəsi sükuta, özünə çəkilməyə çağırmıram. Və ümumiyyətlə, kiməsə məsləhət vermək də mənlik deyil. Əgər məsləhət vermək, yol göstərmək imkanım yetərincə olsaydı, yazıçı-publisist Aqil Abbas demişkən, mən də ən azından bir qəzetin redaktoru olardım. Deməli, ayağını yorğanına görə uzatmaq daha doğru seçimdi. Və bir də...

Üzümü sükutumun hakim olduğu iç dünyama, o dünyanın sahibinə tuturam. Öncə demək istəyirəm ki, bu ricama əməl etsin. Yəni Səni deyirəm:

Döy qapımı hər səhər
Dua boxçan sinəndə...
Danış, hətta birtəhər,
Hər ürəyin dinəndə -
Məndən!

Bu bir dəli istəkdi, amma içimdən gəlir. Ona görə də onu dilimə gətirdim. Axı, ağıllı fikirləşənə qədər dəli öz işini görür! Sən də mənə bənd olma.

# Peşə bayramınız mübarək

## 22 noyabr Ədliyyə işçilərinin peşə bayramı günüdür

**Hörmətli ədliyyə işçiləri, hörmətli Penitensiar xidmət əməkdaşları! Ömrünün qırx ildən çoxunu Penitensiar xidmətdə çalışmış sabiq həmkar kimi 22 noyabr - peşə bayramınız münasibəti ilə əvvəlki illərdə bir neçə dəfə mətbuatda çıxış edərək sizləri təbrik etmiş, Cəzaçəkmə Müəssisələrindəki (CM) vəziyyət, neqativ və müsbət hallar barədə fikirlərimi sizlərlə bölüşmüşəm. Məqalənin dərcindən sonra da toxunduğum məsələlər barədə,- əsasən hazırda təqaüddə olan sabiq həmkarlarımla,- istər telefon danışıqlarımız, istərsə də görüşlərimiz zamanı fikir mübadiləsi aparmış, Penitensiar sahədə əldə olunmuş uğurlara birgə sevinmişik. Pandemiya və ondan sonrakı dövrdə mətbuatda çıxışlarıma ara versəm də, bu ənənəni bərpa etmək qərarına gəldim. Ona görə də icazə verin ilk öncə sizləri peşə bayramınız münasibəti ilə təbrik edim, təqaüddə olan keçmiş həmkarlarıma rahat, qayğısız təqaüdçü həyatı, Penitensiar xidmətin hazırda xidmətdə olan əməkdaşlarına isə çətin və gərgin olduğu qədər də gərəkli fəaliyyətlərində uğurlar, hər birinizə şəxsi həyatınızda uzun ömür və sağlamlıq, ailə səadəti arzulayım.**

Builki təbrikimdə Penitensiar xidmətdə aparılmış kadr təyinatından - Mir Saleh Seyidovun Penitensiar xidmətə rəis, Fikrət Qafarovun isə İdarə rəisi təyin olunmasından bəhs etmək istəyirəm. Düzdür, mən bu tip yüksək təyinatlar və təyin olunanlar barədə nə münasibət bildirmək səlahiyyətində və iqtidarında deyiləm, nə də belə bir fikrim var. Sadəcə olaraq, biz - təqaüddə olan Penitensiar xidmətin sabiq əməkdaşları bizdən cavan, bir vaxtlar ayrı-ayrı CM-lərdə bir yerdə, əsasən rəhbərliyimiz altında çalışmış, indi də müxtəlif CM-lərdə xidmət edən həmkarlarımızla, həmçinin öz aramızda,- bəziləri ilə mütəmadi olaraq, bəziləri ilə ara bir, bəziləri ilə daha sıx,- əlaqə saxlayır, hərdən görüşür, bayramlarda, ad günlərində təbrikləşir, bir-birimizin xeyrində, şərində iştirak edir, söhbətləşir və istər-istəməz Penitensiar xidmətdəki yeniliklər, CM-lərdəki vəziyyət barədə fikir mübadiləsi aparırıq. Həmin fikirləri sizlərlə də bölüşmək qərarına gəldim. Zənnimcə bölüşəcəyim fikirlər oxucular üçün də maraqlı olacaq.

M.Seyoduvun və F.Qafarovun təyinatından sonra ilk öncə sabiq həmkarlarla telefonda bir-birimizi bu təyinat münasibəti ilə təbrik etdik. Sonrakı görüş və söhbətlərimizdə də mütləq bu mövzuya toxunur, bu təyinatı təqdir edir, adı gedən hər iki şəxsə uğurlar arzulayır, bunu gözləyir və inanırıq.

Mən təqaüdə çıxandan sonra Penitensiar xidmətin rəhbərliyi dörd dəfə dəyişib. Mən heç də onların fəaliyyətinə kölgə salmaq fikrində deyiləm, əksinə, bildiyim qədəriylə hər biri mümkün qədər ölkə başçısının ona göstərdiyi etimadı doğrulmağa çalışmış, müəyyən müsbət islahatlar aparmış, CM-lərdə qanunların, məhkumların hüquqlarının gözlənilməsinə xüsusi diqqətlə yanaşmışlar. Amma hər halda, Penitensiar xidmətin son illər təyin edilən rəisləri ƏN deyil, digər nazirliklərin əməkdaşları olmuşlar. Düzdür, onlar da sıravi əməkdaşlar deyil, kifayət qədər təcrübəli, bacarıqlı, savadlı, müxtəlif vəzifələrdə özünü doğrultmuş yüksək rütbəli zabitlər olmuşdur. Bununla belə, CM-lər özünəməxsus xüsusiyyətlərə malik, həssas, azadlıqdan məhrum edilmə cəzasının psixoloji durumunda mütləq iz buraxdığı və buna görə də əksəriyyətinin fərdi və fərqli yanaşma tələb etdiyi şəxslərin cəza çəkdiyi bir müəssisədir. Bu incəliklərlə, hər bir CM-dəki əməliyyat, saxlanma, məişət şəraiti, məhkumların törətdikləri cinayətlərin ağırlıq dərəcəsinə görə tərkibi, onların CM-lər üzrə paylanması və s. bir çox bu kimi xüsusiyyətlərlə tanışlıq, həlli vacib məsələləri dəqiqləşdirmək, necə deyərlər, haradan başlayıb harada bitirməyə qərar vermək, kadr təyinatlarında düzgün seçim etmək üçün əməkdaşlarla tanışlıq və i.a. bir günün işi deyil və müəyyən vaxt tələb edir.

Həm M.Seyidov, həm də F.Qafarovu xidmət etdiyim illərdə gənc zabitlər kimi tanımışam. Hər ikisi əmək fəaliyyətinə leytenant rütbəsindən və məhz Penitensiar xidmətdə başlamış şəxslər kimi CM-lərin yuxarıda bəhs etdiyim xüsusiyyətlərinə necə deyərlər daxildən bələddirlər, mövcud problem və nöqsanlar barədə daha məlumatlıdırlar, onların aradan qaldırılması yollarını və bir daha yol verilməməsi üçün həyata keçirilməsi vacib olan profilaktik tədbirləri gözəl bilirlər. CM-lərdə qanunçuluğun gözlənilməsi, cinayət hadisələrinin törədilməsi, daxili intizam qaydalarının pozulması, məhkumlara qadağan olunmuş əşyaların, alətlərin gətirilməsi, əməkdaşlarla məhkumların qanuna zidd əlaqələri hallarının vaxtında aşkar edilməsi, qarşısının alınması və s. bu kimi istiqamətdəki fəaliyyəti şərtləndirən başlıca amillərdən biri CM-lərdə hər an dəyişə bilən əməliyyat şəraitini daim nəzarətdə saxlamaqdır. PX-nin uzun müddət əməliyyat fəaliyyəti ilə məşğul olmuş yeni rəhbərliyi bu istiqamətdə də yetərincə təcrübə, səriştə, bilik və bacarığa malikdir. Qeyd olunanları nəzərə almaqla əminliklə deyə bilərik ki, PX-in sükanı etibarlı əllərdədir və artıq bu sahədə köklü dəyşikliklərin şahidi olmaqdayıq.

Qısa müddət ərzində həyata keçirilmiş yeniliklərə, əldə olunmuş uğurlara aid çox nümunələr çəkmək olar ki, onların bir neçəsi ilə tanış olaq.

Əməliyyat fəaliyyətindən bəhs edirkən, qeyd etmək istərdim ki, bu fəaliyyətin istiqamətlərindən biri də məhkumların cinayətləri könüllü etiraf etməyə sövq edilməsi, bu etirafın məhkumun xeyrinə olan hüquqi nəticələrinin onlara müxtəlif yollarla izahı, bağlı qalmış cinayətlərin açılması istiqamətində yerli hüquq-mühafizə orqanları ilə qarşılıqlı əməkdaşlıqdır ki, PX-də bu fəaliyyətin düzgün təşkil edildiyinə dair bir nümunə göstərmək istərdim. Lap bu yaxınlarda mətbuatda diqqətimi bir məlumat cəlb etdi - 21.09.2023-cü il tarixdə PX-in əməliyyat aparatı ilə DİN əməkdaşlarının birgə keçirdiyi əməliyyat-axtarış tədbiri nəticəsində hazırda cəza çəkən bir məhkumun azadlıqda olarkən basdıraraq gizlətdiyi bir ədəd RQO markalı əl qumbarası və bir ədəd UDZ partladıcı Suraxanı rayonu ərazisində aşkar edilərək götürülmüşdür.

Bildiyim qədəriylə yeni rəhbərlik ilk olaraq CM-lərdə məişət şəraitinin yaxşılaşdırılmasına, məhkumların sağlamlığına, onlara keyfiyyətli və vaxtında tibbi yardımın göstərilməsnə, ərzaqla təminatına, yeməklərin keyfiyyətinə diqqəti artırmış və qısa müddət ərzində bu sahədə əsaslı dönüş yaratmışdır.

Bildiyiniz kimi cəmiyyətə, ictimaiyyətə nisbətən qapalı sahə olduğundan, qəzetin, xəbər saytının maraqlı olması, oxucu çəlb etməsi üçün bəzən CM-lərdə məhkumların saxlanma şəraiti, məhkumlarla CM əməkdaşları arasındakı münasibətlər və s. barədə həqiqətə uyğun olmayan, təəssüf doğuran qərəzli, hətta absurd yazılara yer verilir. Artıq iyirmi ilə yaxındır ki, təqaüddə olmağıma baxmayaraq PX barəsində verilən hər bir məlumatla daim maraqlanır və sensasiya xatirinə yazılmış həqiqətdən çox uzaq olan belə məlumatlar bəzən təəssüf, bəzən gülüş, bəzən isə hiddət belə doğurur. Bu tip məlumatların ağ sapla tikildiyini biz görsək də, bu sahədən məlumatsız olan oxucularda Penitensiar xidmət əməkdaşları barədə yanlış, həqiqətə uyğun olamayan təsəvvür yaratmaqla onların qarşısında duran çətin vəzifələrin yerinə yetirilməsi istiqamətindəki fəaliyyətə kölgə salır. Məhz belə məlumatlara əsas verməmək üçün son zamanlar aparılan məqsədyönlü islahatlar, tədbirlər, təbliğat-izahat işləri və bir çox bu kimi fəaliyyətin nəticəsi olaraq hazırda CM-lər demək olar ki, ən demokratik dövrünü yaşayır, bir çox məsələlər tam şəffaf, ictimaiyyətə açıq şəkildə həyata keçirilir.

Belə ki, Azadlıqdan məhrum edilmiş şəxslər doğmaları ilə qanununla nəzərdə tutduğu say və qaydada telefon əlaqəsi saxlayır, onlarla qısa və uzunmüddətli görüşlərdə olur, CM-lərin aidiyyəti əməkdaşları tərəfindən məhkumların hüquqları, cəza-icra qanunvericiliyinin tələbləri həmişə izah olunur, CM-yə yeni gəlmiş hər məhkum bu qayda və tələblərlə, məhkumun hüquq və vəzifələri ilə tanış edilir. Məhkumların vəkilləri, ictimaiyyətin, qeyri-hökumət təşkilatlarının, Qımızı Xaç Komitəsinin nümayəndələri ilə görüşlər keçirilir. Ədliyyə Nazirliyi yanında ictimai komitənin, Ombudsmanın, İşgəncələrə qarşı Azərbaycan komitəsinin məhkumların saxlanma şəraiti, səhhəti, qidalanması, CM əməkdaşları ilə münasibətləri, hüquqlarının qorunması və s. bu kimi məsələlərlə bağlı CM-lərə müntəzəm reydləri keçirilir. Son zamanlar isə daha bir yenilik həyata keçirilmiş - 889 çağrı mərkəzi yaradılmışdır və hər bir vətəndaş zəng edib rast gəldiyi nöqsanlar, qanunsuzluqlar barədə məlumat verə bilər. Və çağrı mərkəzinə daxil olmuş hər bir müraciət PX-nin aidiyyəti xidmət sahəsi tərəfindən araşdırılır, müvafiq tədbirlər görülür və nəticələr barədə müraciət edən şəxs məlumatlandırılır. Qeyd olunanlarla yanaşı daha bir amili - məhkumların böyük əksəriyyətinin savadlı, müasir insanlar olduğunu da nəzərə alsaq, hər hansı məhkuma qarşı baş verən qanunsuzluq, hüquqlarının pozulması hallarının kənar müdaxilə olmadan, elə məhkumun özü, digər məhkum yoldaşı, yaxud yaxınları tərəfindən dərhal ictimailəşdirilə bilmək imkanının olduğunu görərik.

Buna görə də artıq həqiqətə uyğun olmayan, qərəzli, absurd, sensasiya xatirinə yazılmış məqalələr mətbuatdan demək olar ki, sıxışdırılmış, bu cür məqalələr yazmaq həvəsi, cəhdi sıfırlanmışdır. Hərdən olsa, olsa hansısa CM-də məhkumun vəfat etdiyini yazırlar ki, burada da bəzən qəsdən, oxucunu intizarda, şübhədə saxlamaq üçün ölümün səbəbini göstərmirlər. Halbuki, bu ölümlərin mütləq əksəriyyəti necə deyərlər, öz əcəli ilə baş verir. CM-lərdə minlərlə məhkum cəza çəkir və onların içərisində əlbəttə kiminsə dünyasını dəyişməsi təbiidir və burada kriminal axtarmaq yersizdir.

Bu yaxınlarda mətbuatdan kiçik işçi heyətin PX-yə işə qəbulu üzrə təqdirəlayiq daha bir yeniliklə tanış oldum. Belə ki, işə qəbul üçün müraciət edənlərin birlikdə iştirakı ilə keçirilmiş görüşdə, sıra baxışında, namizədlərin PX-də xidmət üçün tələb olunan müvafiq meyar və keyfiyyətlərinin qiymətləndirilməsi məqsədi ilə aparılan söhbətdə M.Seyidov şəxsən iştirak etmiş, tam demokratik şəraitdə seçilmiş şəxslər işə qəbul edilmişdir.

Mətbuatda diqqətimi çəkən digər bir yenilik isə məhkumların məzuniyyətə buraxılmasının tətbiqi barədə məlumat oldu. Əslində bu qanun və onun tətbiq edilmə qaydaları hələ çox-çox əvvəllərdən mövcud idi. Amma və lakin mən xidmət etdiyimi uzun illər ərzində bu qanunun kiməsə tətbiq edildiyinin şahidi olmadım. Məndə olan məlumata görə müstəqilliyimizi əldə etdikdən sonra çox az sayda məhkuma məzuniyyət hüquqdan istifadəyə şansı verilmişdir ki, bu da əsasən məhkumun həyatında, onunla bağlı baş vermiş fövqəladə, müstəsna hadisələrlə (misal üçün təbii fəlakət nəticəsində evlərinə dəymiş ciddi dağıntı, valideyninin vəfatı və s.) əlaqədar olmuşdur.



**Adəm Əkbərov**

*Təqaüddə olan polkovnik-leytenant, AYB və AJB-nin üzvü, Prezident təqaüdçüsü, Rəsul Rza mükafatçısı, birinci Qarabağ müharibəsi veteranı.*

Halbuki, sözügedən qanuna görə ilk dəfə və az ağır, böyük ictimai təhlükə törətməmiş cinayətlərə görə azadlıqdan məhrum olunmuş, müsbət xarakterizə olunan, cəza çəkdiyi müddətdə qayda pozuntularına yol verməmiş və bütün bunlara görə də yaxşılaşdırılmış şəraitə keçirilmiş hər bir məhkum məzuniyyət hüququndan yaralana bilər. Eyni zamanda məhkumların yenidən tərbiyə olunmasında, qanunlara, daxili intizam qaydalarına əməl olunmasında bu hüququn tətbiqinin müstəsna əhəmiyyəti, stimullaşdırıcı gücü, rolu var. Buna görə də, məzuniyyət hüququndan istifadə edilməsinə şərait yaradılması əlbəttə ki, alqışa layiqdir.

Qeyd etmək lazımdır ki, həyata keçirilən islahatlar, yeniliklər, müsbət dəyişikliklər təkcə məhkumları əhatə etmir. Artıq CM-lərdə xidmət edən əməkdaşların da müvafiq təchizatına, hüquqlarının qorunmasına diqqət hiss olunacaq qədər, əhəmiyyətli dərəcədə artırılmışdır. Sadə bir misal çəkim. Bizim dövrdə CM-lərdə xidmət etmiş sabiq həmkarlarım da yəqin ki, təsdiq edərlər ki, həftələrlə bizə istirahət günü verilməzdi. Yalnız gecə növbəsindən sonrakı gün istirahət edərdik ki, onu da bəzən günün yarısından sonra evə getməyə icazə verilərdi və gecə növbədə, yuxusuz qalan əməkdaş həmin günü ancaq yatmağa sərf edərdi. Bəzən illərlə məzuniyyət hüququndan belə istifadəyə icazə vCopyCtrl+Cerilməzdi. Bu isə qanunsuz olduğu üçün məzuniyyət barədə əmr verilər, lakin rəsmi olaraq məzuniyyətdə olan əməkdaşdan xidmətə çıxmağı tələb olunardı. Ən yaxşı halda məzuniyyət barədə əmrdən üç-dörd gün sonra yeni bir əmrlə əməkdaş işə çağrılardı. Hazırda isə əməkdaşlar bütün hüquqlarından istifadə edir, sağlamlıqlarının qayğısına qalınır, istirahət etmələri, müxtəlif idman növləri ilə məşğul olmaları üçün şərait yaradılır.

Qeyd olunanların nəticəsidir ki, bu yaxınlarda Penitensiar xidmətin Mühafizə alayının Xüsusi təyinatlı bölüyünün əməkdaşı, ədliyyə kiçik giziri İsrafil Məmməd oğlu Şabanov İtaliyanın Karrara şəhərində keçirilən Kunq-fu idman növü üzrə Dünya çempionatında 70 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüb.

CM-lərdə yaradılmış demokratik mühiti, cəzaçəkmə qanunlarına əməl olunmasının təmin edilməsi üçün daim Penitensiar xidmət rəhbərliyi tərəfindən atılan addımları, bu istiqamətdəki ciddi nəzarəti, həyata keçirilən islahatları bir daha təqdir edir, inanıram ki, PX rəhbərliyi Ədliyyə Naziri cənab Fikrət Məmmədovun rəhbərliyi ilə ölkə başçışı, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin etimadını doğruldacaq, qarşıya qoyulmuş məsələlərin həllinə nail olacaqlar.

Bir daha bayramınız mübarək. Uğurlarınız bol olsun.

# Döyüş ruhlu, məhəbbət misralı şair

**Düşüncələr - Görmək istəmədiyi yerə aparır insanı, eşitmək istəmədiyi sözləri eşitdirir insana, həmsöhbət olmaq istəmədiyi insana bağlayır insanı. Bəs məcburiyyət nədir?- Sevmədiklərimizə sevə- sevə ”boyun əyməkdir”. Bütün düşüncələr hadisələr kimi tarixə qovuşmur. Mənə elə gəlir ki, düşüncələr qətiyyən mücərrəd deyil. Özüməməxsus səbəbim də var: insan nəfəs alır, yaşayır və düşünür. İnsanın ruhu toxunur düşüncələrinə. Düşüncələrin yeganə rahatlıq tapdığı məkan insanın ruhudur. Onu ancaq ruh adamları anlayar Bir müddətdir yaradıcılığını diqqətlə izlədiyim şair Rəfail Tağızadə də belə ruh adamlarından biridir. Onun haqqında çoxdan yazmaq istəyirdim, lap çoxdan. Amma**



Şairin vətən şeirləri oxucunun diqqətini daha çox özünə çəkir. Rəfail Tağızadənin vətən şeirlərində başqa bir qəribə iz var. Sanki şeirlərin içindən bir yol uzanır

İnsan ömrü bitər, amma Rəfail Tağızadənin vətən şeirlərinin içində vətənə uzanan yollar bitməz.

Sahibin axtaran bir qara xəyal,
qulaq kəsilibdi yel sorağına,
dikib gözlərini qəriblər kimi,
bağlı qapıların lal dodağına.

İnsanın ağlına gəlməyənlər başına gələndə həmişə təlatüm içində olur. Təlatümlər isə inanılmaz dəhşətlər və ən saf sevgilər yaradır. Şairin başına gələn vətən itkisi onun qəlbində bir üsyan yaratmışdı. Qazandığımız zəfər isə şairin yanan qəlbinə məlhəm oldu. R.Tağızadənin nisgildən yazan qələmi, qələbəyə kökləndi.

Qollarım tale yoludu,
düş yola aparım səni.
Bizi ordan bura atan,
dərdlərdən qurtarım səni.

Ağrılar var insan ruhunu göynədir. Ən dəhşətli cismani ağrılar ən yüngül ruh ağrılarından şirindir və dözümlüdür. Qəlb ağrılarına heç bir loğman əlac edə bilməz, təkcə VƏTƏNdən başqa. Şairin qəlbinin məlhəmi isə 44günlük torpaq uğrunda savaşımız oldu.

R.Tağızadənin vətən şeirlərini oxuduqca reallıqla başıra bilmirsən. O kədər dolu şeirləri özünə yaxın buraxmaq istəmirsən. Şair ”Şəhid məktubları”nı sinəsinə sıxaraq deyirdi:

Şəhid məktubları uçur havada,
bu kəndin göyləri məktubla dolu.
Dünənki döyüşün təəssüratları,
sabahkı döyüşün sərt ovqatları,
sevginin, həsrətin vüsal anları,
arzunun üzündə güllə qanları.

Müharibə illərində doğulan uşaqlarda (90% belədir) qəribə bir intiqam hissi var. Əsilində bu hiss onlarda böyüyəndə yox, ”Vaqonun altından asılan beşik”ləri olanda yaranmışdı. İllər keçdi həmin körpələr öz intiqamlarını mənfur düşmənlərdən aldılar. Amma yaşananları unutmaq olmur ki...

Hardan biləsən ki, dünyada nə var?
Sənintək körpənin qeydinə qalan,
gözəl yaraşıqlı neçə dayə var.
Dünyanın parkı var, necə bağı var,
tək boz səhrası yox, uca dağı var.
Dünya vaqonlardan ibarət deyil.

Şəhid anasının naləsini içində boğmağı insanın səsini boğur. Düşünürəm ki, onların fəryadı gözlərində yazılır. Bu susqun, amma heç zaman susmayan bəşəri nalə şairin ”Çağırış”ında da öz əksini tapıb:

Od götürüb odlanan,
yollar yandırdı məni.
Toylarda yellənməyən,
qollar yandırdı məni.

Bir ana fəryadının, nisgilinin bu dərəcədə ”möhtəşəm” təsviri daşın da bağrın yarır.

Rəfail Tağızadənin torpaq, yurd mövzusundan ”qoparaq” sevgi şeirləri yazmağı şairin daxili dünyasının zənginliyindən irəli gəlir. Onun məhəbbət lirikasında ilk gözümü oxşayan şeiri ”Şəhər tənhalığı” oldu. Şeirdəki bütün misralar yenə də nisgildən-nisgilə söykənirdi... Elə bil bir- birinə təsəlli idi.

Bu gecə yuxuma kimlər girəcək?
Bu dar otaqların yuxusu qəliz.
Eh, məni haradan tapacaqlar ki,
şəhər küçələri saxlamayır iz.

Şəhərə biganə yanaşmaq, onu etibarsızlıqda qınamağı da var şairin. Bəlkə də haqlıdır. Sanki şair də şeirlərində gerçəkləşən ”bəlkələri” yaşadır...

Aysız gecələrdə qaranlıq qatı,
küçənin halını fanarlar bilər...
Bu hissiz-duyğusuz zülmət gecənin,
dərdini yuxusuz qalanlar bilər.

Xəyallar bəzən insanı mənzil başına çatdırır, bəzən də heç bir addım atmağa da qoymur... Rahat düşüncələr narahat düşüncələrdən doğulur desək, heç də yanılmarıq. Giley də nigaranlığın qoynunda yatmırmı şair?!

Günahlar atılır zamanın üstə,
ömürlər əriyir gümanın üstə.
Yaxşılar savaşır yamanın üstə,
gün keçir, ay ötür, könül nigaran.

**ƏNTİQƏ KƏRİMZADƏ**

# Fransanın bu təzyiqlərinin heç bir nəticəsi olmayacaq...



**”Bunun hər hansı bir təzyiq mexanizmi yoxdur. Fransanın qəbul etdiyi bütün qərarlar siyasi xarakterlidir və Azərbaycanın iradəsinə təsir göstərmək xarakteri daşıyır. Çünki Fransanın bölgədə mövcudluğuna maneə yaradan əsas faktorlardan biri Azərbaycandır. Bu aspketdən Azərbaycanın imkan verməyəcəyi təqdirdə, Fransa bölgədə mövcudluğunu hər hansı bir formada təmin edə bilməyəcək”**

Bunu Adalet.az-a açıqlamasında politoloq Elçin Mirzəbəyli deyib. Politoloq Azərbaycanda həbsdə olan erməni separatçıların ”siyasi məhbus” adlandırılmasının da cəfəng bir addım olduğunu bildirib:

”İndiki şəraitdə də atılan addımlar, qəbul olunan qərarlar, yalnız siyasi təzyiq xarakterlidir. Bunların hər hansı bir formada hüquqi mexanizmləri yoxdur. Çünki saxlanılaraq Azərbaycanın ədalət məhkəməsinə təqdim olunan şəxslər konkret müharibə cinayətləri törətmiş şəxslərdir. Əgər həmin şəxslər başqa ölkənin ərazisində olsaydılar, o zaman Azərbaycan bu şəxslər barədə tribunalın çağırılması üçün müraciət edə bilər və həmin şəxslərin, yaxud da ikitərəfli müqavilə əsasında Azərbaycan ədalət məhkəməsinə təhvil verilməsini tələb edə bilərdi. Amma onlar Azərbaycan ərazisində olduqları üçün saxlanılıblar və bu, Azərbaycanın birbaşa daxili işidir. Çox ağır cinayətlər törətmiş separatçıların həbsə atılması və ədalət məhkəməsinə çıxarılması əgər doğrudan da Fransaya görə hüquq pozuntusudursa, o zaman o öz ərazilərindəki problemlərə diqqət yetirsin. Fransa insan hüququ azadlıqlarının pozulmasıyla bağlı həm də etnik qrupların öz dilində yazmaq, danışmaq kimi ən böyük hüquqlarını tələb etdiklərinə görə həbsxanaya atdığı şəxsləri azadlığa çıxarması istiqamətində addımlar atsın. Yəni bu məsələlər haqqında ən sonuncu danışmağa hüququ olan varsa, o da Fransadır. Müstəmləkəçi, ləyaqətsiz və şərəfsiz bir tarixi olan bir ölkənin ümumiyyətlə bu məsələlər haqda danışmağa mənəvi haqqı yoxdur. Ümumiyyətlə, Fransanın bütün bu təbliğat və təxribat kampansiyasının hər hansı bir formada effektiv bir nəticəsi olmayacaq. Nə Azərbaycanın mövqelərinə, nə də bölgədəki proseslərə təsir göstərə biləcək bir gücdə deyil. Fransa vurnuxur, çırpınır, özünün qlobal güc olduğunu nümayiş etdirməyə çalışır. Bu təxminən impotentin yenidən özünün varlığını nümayiş etdirmək kimi cəhdlərdir. Başqa heç bir şey yoxdur”-deyə politoloq bildirib.

**Vasif Əlihüseyn**

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

№ 44 (2368) 17 noyabr 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN TARİX YAZDI

**Hər bir ölkənin ərazi bütövlüyü onun üçün prioritet vəzifədir. Başqa sözlə demiş olsaq, əgər digər bir dövlət başqa bir ölkənin ərazisini işğal edirsə bu onun ərazi bütövlüyünün tapdanması və eyni zamanda ölkənin imicinə vurulan ən böyük zərbə hesab olunur. Təbii ki, zamanından və məkanından asılı olmayaraq bütün dövlətlər öz müstəqilliyini və ərazi bütövlüyünü qorumağa çalışır. Ən azından ona görə ki, həmin ölkə özünün gələcəyini, əhalisinin təhlükəsizliyini təmin etmək üçün birmənalı olaraq müharibə şəraitinə hazır olmalıdır.**

Azərbaycan da nə çox, nə az düz 30 il 20 faiz torpaqlarının işğal olunması ilə razılaşmadı. Ona görə də bu istiqamətdə çox böyük müdafiə tədbirləri həyata keçirməyə başladı. Bir çox Avropa ölkələri, o cümlədən Fransa çalışırdı ki, erməni işğalını dondursunlar və bu barədə nə beynəlxalq təşkilatlarda, nə də digər mötəbər yerlərdə söhbət açılmasın. Aydındır ki, ermənilərin havadarları tək Fransa deyildi, eləcə də digər böyük dövlətlər onların haqsız işinə haqq qazandırır, 30 illik işğala göz yumur, üstəlik də bir fikri bizə təlqin edirdilər ki, onlar qalib dövlətdir, gedin ermənilərlə razılaşın. Təbii ki, onlarla heç vaxt razılaşmaq mümkün deyildi. Çünki əgər torpaqlarımız 20 faiz işğal edilmişdisə və işğalçılar da onu sülh, danışıq yolu ilə geri qaytarmırdılarsa aydındır ki, bunun cəmi bir çıxış yolu vardı - müharibə! Amma bu müharibəyə də yenə avropalılar və ermənilərin digər havadarları heç cürə razı olmurdular. Lakin buna baxmayaraq, istər Ulu Öndər Heydər Əliyevin, istərsə də prezident İlham Əliyevin vaxtında Qarabağın erməni işğalı altında olması ilə bağlı mötəbər kürsülərdə fikirlər səsləndirilmiş və beynəlxalq təşkilatlara əsl həqiqət çatdırılmışdı. Bununla paralel olaraq Azərbaycan həm də iqtisadi, siyasi və hərbi sahədə böyük işlər həyata keçirirdi. Bu da ondan ibarət idi ki, işğal altında olan torpaqlarımız ermənilərdən azad edilsin və həmin yerlərdə bərpa, quruculuq işləri gerçəkləşdirilsin, sakinlər geri dönsünlər.



Bütün bunlar o vaxtlar çoxlarına yuxu kimi gəlirdi. Yuxu kimi gəlirdi ki, Azərbaycan işğal altında olan torpaqlarını azad edə bilməyəcək. Bununla yanaşı, böyük dövlətlərin bayaq dediyimiz kimi canfəşanlığı ermənilərin nahaq işlərinə haqq qazandırması işğalçıları ürəkləndirir və bir az da tamahlarını artırırdı. Onlar yeni ərazilər, yeni şəhərlər işğal etmək barəsində fikirlər səsləndirirdilər. Hətta deyirdilər ki, Gəncəni alacağıq, Bakıya tankla gedib orda çay içəcəyik. Düzdür, ermənilərin tankı sonradan Bakıya gətirildi, amma Qənimətlər parkına!

Artıq 2020-ci il sentyabr ayının 27-dən ermənilərin hücumuna qarşı əks hücum əməliyyatı başladı. Heç ermənilər də gözləmirdi ki, onlar bir neçə gün ərzində Füzuli və Cəbrayıl istiqamətlərində ağır zərbələr alacaqlar. Əlbəttə, erməni ordusunun çaş-baş qalması, mürəkkəb duruma düşməsi və bir neçə gün ərzində Füzulinin və Cəbrayılın 8 kəndinin azad edilməsi onu göstərirdi ki, Azərbaycan ordusu sürətlə hücuma keçib və bu hücum daha da geniş vüsət alacaq. Elə geniş vüsət aldı da. Müharibənin qızğın dövründə ermənilərin havadarları öz mətbuat nümayəndələrini bir-birinin ardınca Bakıya göndərirdilər. Daha doğrusu, onları ermənilər maliyyələşdirir və hətta jurnalistlərin verəcəyi sualları da onlar müəyyən edirdi. Ona görə də Cənab Prezident İlham Əliyevlə olan müsahibələrin bəzilərini axıradək efirdə vermir, montaj edir və özlərinə sərf edən məqamları cəmiyyətə çatdırırdılar. Cənab Prezident isə öz müdrik və uzaqgörən siyasəti, dolğun cavabları ilə Qərb jurnalistlərini mat vəziyyətinə salmışdı. Onların hamısı Bakıdan suyu süzülə-süzülə geri qayıtdılar. Çünki heç vaxt Cənab Prezident İlham Əliyev kimi savadlı, istedadlı və siyasi cəhətdən güclü liderlə rastlaşmamışdılar. Onların ağlı Ermənistanın baş naziri Nikol Paşinyana gedirdi. Çünki Paşinyan nə ingilis dilini yaxşı bilir, nə də siyasətdən xəbəri vardı. Danışanda sanki ağzını əriştə yandırırmış kimi fikirlərini də ifadə edə bilmirdi.

Ümumiyyətlə, müzəffər Ali Baş Komandan Prezident İlham Əliyev 44 günlük İkinci Qarabağ savaşında dünyada analoqu və oxşarı olmayan bir tarixi qələbəyə imza atdı. Amma Cənab Prezident bir dəfə də demədi ki, bu qələbəni mən qazanmışam. Və həmişə dedi ki, bu qələbəni Azərbaycan xalqı, Azərbaycan Ordusu, Azərbaycan Əsgəri qazanıb. İlham Əliyev dünyanın ən təvəzökar və ən səbirli prezidentidir desək, yanılmarıq. Çünki o hakimiyyətə gəldiyi ilk gündən bu möhtəşəm qələbənin təməlini qoymuşdu. Hər şeyi səbrlə, təmkinlə və uzaqgörənliklə həll edirdi. Eyni zamanda Azərbaycanın iqtisadi və hərbi qüdrətinin möhkəmlənməsi üçün davamlı olaraq böyük işlər həyata keçirilirdi. Ölkənin müdafiəsini möhkəmlətmək üçün büdcə vəsaitləri artırılırdı. Milyardlarla dollar pul xərclənərək Azərbaycan Ordusu ən müasir döyüş maşınları, texnikaları, tankları, qırıcıları, helikopterləri ilə təmin olundu. Cənab Prezident uzun illər səbrlə dözdü, axırda ermənilərin min oyununa dözmək mümkün olmadı. Yəni sentyabrın 27-dən noyabrın 10-a qədər İkinci Qarabağ savaşı ildırım sürətilə davam etdi.

Bu xalq, bu millət öz müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşdi. Bizim birliyimizi heç bir daxili və xarici qüvvələr sarsıda bilmədi. Əksinə, bu yumruq hesabına Cəbrayıl, Füzuli, Hadrut, Qubadlı, Laçın, Zəngilan, Kəlbəcər, Ağdam, Şuşa azad edildi. Bu yumruğun davamı təbii ki, gəlməli idi. Çünki ermənilər 2020-ci ilin noyabrın 10-da imza atdıqları Bəyannamənin şərtlərinə əməl etmirdi. Həmin Bəyannaməyə görə Qarabağdakı erməni hərbi birləşmələri çıxmalı idi. Amma 3 il keçdi, yenə çıxmadılar. Ona görə də Cənab Prezident İlham Əliyevin əmri ilə Qarabağda antiterror əməliyyatı aparıldı, 23 saat 43 dəqiqə ərzində erməni hərbi qüvvələri darmadağın edildi və onlar ağ bayraq qaldırdılar. Bu Dəmir Yumruğun nəticəsində Xankəndi, Xocavənd, Ağdərə, Əsgəran, Xocalı və digər yaşayış məntəqələrimiz erməni hərbi birləşmələrindən azad edildi və 2023-cü il noyabrın 8-də Prezident İlham Əliyev Xankəndində möhtəşəm parad qəbul etdi. Bununla da Azərbaycanın ərazi bütövlüyü tamamilə təmin oldu!

**Faiq Qismətoğlu**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Səsi yalnız xatirələrdə yaşayan - Narıngilə Cəfərova

## *(Onun ifası Xan Şuşinski tərəfindən yüksək qiymətləndirilmişdi)*

**Qarabağın gözəl guşələrindən biri olan Ağcabədi torpağı mütəfəkkir şairimiz Məhəmməd Füzulinin və dahi bəstəkarımız Üzeyir Hacıbəyovun Vətənidir. Doğma Qarabağımızın ayrılmaz bir parçası olan Ağcabədidə həmişə şairə, sənətə, musiqiyə, muğama böyük həvəs, maraq və hörmət olmuşdur. Bu torpağın havası da, suyu da adama muğam aşılayır, buranın övladları muğamla nəfəs alırlar. Təsadüfi deyil ki, Ağcabədidə böyük muğam ustaları dünyaya göz açmış, öz ölməz ifaçılıq üslubları, səsləri ilə yaddaşlarda silinməz izlər buraxmışlar.**

Respublikamızın görkəmli muğam ifaçıları Zülfi Adıgözəlov, Mütəllim Mütəllimov, Yaqub Məmmədov məhz mayası Ağcabədidə yoğrulmuş məlahətli səsləri ilə ürəkləri riqqətə gətirmiş, muğam dinləyicilərinə mənəvi zövq verərək, onları feyziyab etmişlər.

Ağcabədinin unudulmaz muğam ifaçılarından biri olan Narıngilə (el arasında ona Nargilə deyirdilər) Cəfərova 1948-ci ildə Ağcabədi şəhərində, Üzeyir Hacıbəyovun adını daşıyan məkanda dünyaya göz açmışdır. Heç bir musiqi təhsili olmayan Narıngilə dərin yaddaş və müşahidə qabiliyyətinə malik olduğundan bir dəfə eşitdiyi, ya da gördüyünü yaddaşına böyük hərflərlə yaza bilirdi. Muğamatı da möhkəm hafizəsi sayəsində müstəqil öyrənən Narıngilə muğamı çox ustalıq və yanıqlı oxuyardı. Təbii ki, istedadı çox güclü idi. Və bu istedada uyğun olaraq Narıngilə muğam ifaçılığını özünə həyat yolu seçmişdi. Amma nədənsə, bu muğam ifaçısı haqqında geniş oxucu kütləsinin məlumatı olduqca azdır. Halbuki Narıngilə xanım el şənliklərində, toylarda, bayram konsertlərində öz təkrarolunmaz ifası ilə dinləyiciləri heyran qoyub, onlarınürəklərinə yol tapa bilmişdir. Narıngilə xanımın ifası məşhur muğam ustası Xan Şuşinski tərəfindən yüksək qiymətləndirilmiş, Xan əmi onun səsinin ecazkarlığından danışmışdır. Narıngilə xanım ”Qarabağ şikəstəsi” nin, ””Kürd-Şahnaz” muğamının və ”Heyratı”, ”Arazbarı” ritmik muğamlarının mahir ifaçısı olmuşdur.

Bir dəfə kəndə kolxozçulara konsert vermək üçün konsert briqadası gəlir, Narıngilənin yerli pərəstişkarları onun da oxumasını xahiş edirlər. Bakıdan gələn artistlər Narıngilənin nadir və zil səsə malik olduğundan xəbərsiz olduqlarından ona yuxarıdan aşağı, əyalət müğənnisi kimi baxırlar. Narıngilə xanım ”Qarabağ şikəstəsi” oxuyur. Bakılı tarçalan Narıngiləni güya pərt edəcək imiş kimi, zilə çəkir. Narıngilə sərbəst, ustalıqla oxumağına davam edir. Bakılı tarzən başa düşür ki, Narıngilə muğamın məqamlarına yaxşı bələd olan bir xanəndədir və onunla zarafat etmək olmaz. Narıngilə oxumağını bitirdikdən sonra tarzən ondan üzr istəyir, səsinin zil və məlahətli olduğunu xüsusi qeyd edir.

Ağcabədi şəhər sakini, şair publisist, muğam pərəstişkarı Yəhya Paşazadə söyləyir ki, 60-cı illərin ortalarında hələ uşaq ikən Narıngilə xanımın ifasının şahidi olub. Yəhya Paşazadə deyir: ”Narıngilə yaxın qohumum, şair Əhya Naimin qəzəllərini həmişə oxuyardı. O, vaxt indiki təzə xəstəxananın ərazisi boş idi. Rayona qastrola gələn artistlər adətən orada, açıq havada konsert verərdilər. Onda mənim 8-9 yaşım olardı, dedilər konsert olacaq. Biz də küçəmizin uşaqları ilə ora getdik. Möhtəşəm bir konsert oldu. Bu bayaram şənliyinə möhtəşəmlik qatan həmyerlimiz Narıngilə xanımın təkrarolunmaz ifası oldu. N. Cəfərova konsertdə dinləyicilərin xahişi ilə oxudu. ”Segah” muğamını elə oxudu ki... Buna oxumaq demək azdır. Narıngilə xanım şirin, zil, məlahətli səsi ilə dinləyiciləri valeh etdi. Bu qadının səsindəki məlahət, ürəyə yatımlılıq, özünəməxsus ifa üslubu bizi sehrlədi. Tam başqa bir aləmə apardı. Onun o məlahətli, doğma qarabağlı səsi hələ də qulaqlarımdan getmir. Mən Narıngilə xanımın o ”Segah” ından sonra muğama ürəkdən vuruldum. Davamlı olaraq usta muğam ifaçılarını dinləyirəm. Hər dəfə muğam dinləyəndə Narıngilə xanımın o



unudulmaz ifası yenidən yadıma düşüb, qəlbimə hakim kəsilir”.

Ah, nalə vardı Narıngilənin səsində. İlahi vergisi olan bu səsdə xoş, cingiltili yanğı hökm sürürdü. Eşq aşiqi olan Füzuli dərdi, bu böyük şairimizin qəzəllərini oxuyanda özünü daha qabarıq göstərirdi. Narıngilə oxuyanda adam onun ecazkar səsində sanki əsl özünü tapır və muğamın sehrinə calanırdı. Onun muğam ifası səsin dili ilə danışırdı. Muğamın təsirindən adam pərvazlanıb uçmaq, ərşi qucmaq istəyirdi. Qarabağ laylası, duası vardı onun insanlıq dolu səsində. Narıngilə Tanrının ona bəxş etdiyi əvəzsiz istedadı özündən əvvəlki dahi muğam ustalarından öyrənib, onlarla birlikdə səfərlərdə qavradıqlarını cilalayırdı. Nəticədə xalqımızın yaratdığı muğam möcüzəsi öz rəngarəngliyi, qədirsiz mənası, fəlsəfəsi ilə bizləri insanlığa, bütövlüyə, dünyəviliyə səsləyirdi. Onun ifasını dinləyəndə adamın ruhu da dincəlirdi.

Moskvada bir dəfə tanışım, musiqişünas türkiyəli qardaşla musiqi haqqında xeyli söhbət etdik. Türk söylədi ki, onlarda muğam yoxdur (türklərdə uzun şərqi deyilən mahnılar var, amma bizdəki zil səs, tükənməyən zəngulə və səs uzatma yoxdur). Amma Azərbaycan muğamı onları dəli edir. Bizimkilərin açıq ağızla xeyli çəkən zümzüməmizə (türklər buna qırtlaq çarpışması deyirlər), bülbül kimi cəhcəhimiz onların heyrətinə səbəb olur. Möhtəşəm muğam sənəti və ifaçılarımızın böyüklüyündən söhbət etdik, o, bizim musiqinin geniş, əhatəli, möhtəşəm, eyni zamanda rəngarəng və zəngin olmasını xüsusilə vurğuladı. Bizim böyük, korifey sənətkarlarımızdan danışan türkiyəli musiqişünas, məndən belə oxumağın, ifaçılıq qabiliyyətini və səsin hardan qaynaqlandığının səbəbini soruşdu. Bizdə sanki hamının oxuduğunu vurğulayıb, bu nə sirrdir deyə xəbər aldı. Məndə cavabında musiqinin bizim iliyimizdə, qanımızda olduğunu bildirdim. Bunun sirr yox, Yaradan tərəfindən bizə təmənnasız bəxş edildiyini, azərbaycanlıların musiqi, muğamla nəfə aldığını söylədim. Onu da xüsusi vurğuladım ki, azərbaycanlı ifaçılar bu Tanrı vergisini insanlara çatdıranda ruhları ilə oxuyurlar... Həmsöhbətim mənimlə razılaşdı...

Biz həyatda yeddi rəngin olduğunu qəbul edirik. Amma yanılmayaq ki, bu yeddi rəngdən daha parlaq rənglər var. Biz hələlik, sadəcə olaraq o rəngləri görə bilmirik... Səsin rəngini görən olubmu? Əlbəttə, yox! Narıngilənin səsində o rəngləri biz gördükmü? Eşitməklə axı çox şeyi axıra kimi qavramaq mümkün deyil. Amma yanıqlı, məlahətli, tükənməz səsi olan Narıngiləyə dinləyicilərə səsin rəngini və bu rəngin çalarlarını çatdırmaq nəsib olurdu. Onun sehrli, özünəməxsus təravətli səsi adamın ruhunu oxşayırdı.

Narıgilənin nəvəsi Mikayılla yaxından tanış olduq. Yavər dayının oğlu olan Mikayıl musiqi və poeziya dəlisidir. Hərtərəfli bilik sahibi Mikayıl musiqini içəridən və incəliklərinə qədər qavramağı bacarır. Özü də hərdən şeir yazır. Təbrizə, böyük şairimiz Şəhriyarın doğma şəhərinə səfər edən Mikayıl bu dahi söz ustasının adı ilə bağlı hər bir yeri qarış-qarış gəzib, ziyarət etmişdir. Şəhriyarın ifasında şeirlər səsəndirən çoxlu disk alıb gətirmişdir. 6 saylı Ağcabədi şəhər tam orta məktəbində təsərrüfat işləri üzrə müdür işləyən Mikayıl boş vaxtlarında xalqımızın musiqi və ədəbiyyat korifeylərinin əsərlərini dinləyir. Özü dediyi kimi, belə peşəkar muqisi və poeziya nümunələrini dinləyəndə təkcə feyziyab olmur, adam həm də muğam sahibi olan xalqımızın nə qədər böyüklüyünü, musiqimizin, poeziyamızın ölməz olduğunu bir daha anlayır... ”Nənəmin çox yerli-yataqlı, möhkəm, tükənməz, kişi səsi kimi səsi var idi. Oxuyanda adam riqqətə gəlir, musiqinin nələrə qadir oluğiunu bir daha anlayırdın. Təəssüf ki, onun səsi yazılmış, cəmi iki lent yazısı qalıb. Onlar da ki, qırıq-qırıq, qulaq asmaq mümkün deyil. Bu lentləri bərpa etdirə bilsəm daha dərdim olmazdı. Nənəmlə bağlı o qədər unudulmaz xatirəm var ki, heç bilmirəm hansını danışım. Yay vaxtı nənəm Ağcabədinin istisindən qaçar, bizi götürüb yaylağa gedər, orada toylarda iştirak edər, konsertlər verərdi. Nənəm ”Qarabağ şikəstəsi”, ”Bayatı Qacar”, ”Arazbarı”, ”Heyratı” ritmik muğamlarını çox ustalıqla və təsirli oxuyardı. Musiqi savadı olmasa da muğamları oxuyanda bu hiss edilməzdi. Yaradanın ona bəxş etdiyi fenomen istedad hər şeyi yerində və vaxtında nizamlayırdı. Muğamda gəzişmələri doğru edər, boğazda musiqinin çalarlarını sahmana sala bilirdi. Zil səsi tükənməz idi. Səsinin rəngi könül oxşayan, yatımlı və qürurlu idi... Kəlbəcərdə nənəm bizi başına toplayıb konsertə aparırdı. Burada ağcabədili qarmonçalan Müstəcəb qarmon çalır, üç-beşqəpik pul qazanırdı. Nənəmi görən kimi onu tanıyan yerli arıçı, muğam həvəskarı tez nənəmə yaxınlaşdı. ”Qarabağ şikəstəsi” oxumağını xahiş etdi. Dedi, sən oxu, mən də xoşuma gəlsə, nəvələrini bala qonaq edəcəyəm. Nənəm qavalı götürüb qarmonçalan Müstəcəbə sarı baxdı ki, müşaiət etsin. Amma nənəm bir ağız oxumuşdu ki, Müstəcəb hamının diqqətinin nənəmə dikildiyini görüb aradan çıxdı. Nənəm özü qavalının müşaiəti ilə oxudu. Elə oxudu ki, onun səsindən təsirlənən arıçı bidonlardakı balın hamısını bizə verdi...”

1973-cü ildə vəfat edən Narıngiləniin Ağcabədi qəbiristanlığıdakı məzarına baş çəkdik. Düşmən işğalından azad olan Qarabağımız haqqında xüsusi şövqlə ”Qarabağ şikəstəsi” oxuyan Narıngilənin məzarını ziyarət edib, onun üzərini təmizləyib, xatirəsini hörmətlə yad etdik. Sanki qulaqlarımızda unudulmaz xanəndənin məharətlə ifa etdiyi təkrarsız ”Qarabağ şikəstəsi” yenidən səsləndi...

**Adil MİSİRLİ**

***Eminquey***

## *Sərgidə kitabımı almayanlar*



Sərgidə kitablarım qarşımda oturmuşam. Bir ana, yanında iki qızı ilə yaxınlaşdı. Qızlardan biri kitaba barmağını uzadıb, ”buna bax, gör necə dəqiqliklə çəkiblər şəkli” - dedi.

Sonra anası götürdü, açıb təsadüfi bir səhifə açdı. Başladı gülməyə. Bahar bax:

- ”Anamla sözüm çəp gəldi, üstünə qışqırıb evdən çıxdım ”

Sonra dedi:

- Sən də beləsən, bax. Elə bil sənin üçün yazılıb.

Sonra qız təsadüfi bir vərəq açdı:

- ”Aaa, Çingiz Mustafayeeev”. Onu görmək istəyirəm.
- Ha? Qızım, ölüb e o.
- Eee, müğənnini deyirəm e.

Gülüşdülər. Kitabı stendin üstünə qoyub sağollaşdılar. Bu soxasoxda da bir kişi ”Harry Potter” kitabını götürüb soruşdu ki, bu, o kino döölʼ? Dedim, yox, Məleykənin qardaşıdı. Eşitmədi, getdi.

# Xocalıda soyqırım qurbanlarına həsr olunan abidə ucaldılacaq

### Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan abidə ucaldılacaq.



Adalet.az xəbər verir ki, abidə Xocalı şəhərində qoyulacaq.

Hazırda abidə ucaldılacaq ərazidə hazırlıq işləri və təmizləmə əməliyyatları həyata keçirilir.

Qeyd edək ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən orada azərbaycanlılara qarşı soyqırımı törədib. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib.

Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil./report

# "Bu teatr mənim üçün tükənməz sərvət kimidir"

**Bir çox "olmaz"ları aşaraq "olar" yarada bilən insanlar istedadın dadını dadmış insanlardır. Müsahibim YUĞ dövlət teatrının quruluşçu rejissoru və ADMİU-nun müəllimi Gümrah Öməri də belə insanların içərisində ön cərgədə görmək mümükündür.**



**- Gümrah müəllim, YUĞ teatrında bu mövsümdə sizin quruluş verdiyiniz hansı tamaşalar var?**

- Hazırda bizim repertuarımızda mənim hazırladığım iki tamaşa nümayiş olunur. Biri M.F.Axundzadənin "Müraviyyə vəkilləri" hekayəti əsasında "Şəbədə" tamaşasıdır, biri isə Henrix İbsenin "Vahimə" əsəri əsasında "Vəsvəsə" tamaşasıdır. Təbii ki, növbəti teatr mövsümü üçün biz yeni tamaşalar üzərində işləməyə başlayacağıq. Bizim digər rejissorlarımız var ki, onlar iş üzərində çalışırlar. Onlar işlərini yekunlaşdıran kimi biz də yeni tamaşanın məşqlərinə başlayacağıq. Yeni tamaşamız isə hələ ki, sirr olaraq qalsın.

**- Gümrah müəllim öz aktyoruna əmr edən rejissordur, yoxsa aktyoru oynamağa sövq edən rejissorudur?**

- Məncə, əmr və məcburiyyət biz tərəfdən olmamalıdır. Biz tərəfdən təklif olmalıdır. Aktyor, sənətçi- oyunçu məsuliyyətini dərk edən və peşəkar insan olduğuna görə bunu əmr kimi yox, vacib bir məsələ kimi qavrayırlar. Biz də əməkdaşlığmızı davam etdiririk.

**- Teatr canlı sənətdir. Aktyorun eyni rejsti hər dəfə uğurlu olmaya bilər. Siz bunu hiss edəndə aktyora deyirsiniz, yoxsa səhvini düzəltməyi onun özünə həvale edirsiniz?**

- Biz çalışırıq ki, həmfikirlərimizlə işləyək. Bu zaman əgər biz həmfikiriksə, hər bir cəhdi sonra müzakirə edirik. Çünki burda üzgörənliyə bir yer qalmır. Əgər işimizin yaxşı olmağını istəyiriksə, səhvlərimizi tapıb, onun üzərində mütləq işləməliyik. Qüsurlarmızın olmamağına çalışırıq. Uğurları dilə gətirmək, qüsurları isə xatırlamaq lazımdır.

**- Niyə məhz "YUĞ" teatrı?...**

- İlk növbədə rejissorluq fəaliyyətinə Yuğ teatrında başlamışam. Bu teatr mənim üçün doğmadır. Digər teatrlarla da əməkdaşlıq edirik. Bizim çox istedadlı, bacarıqlı rejissor dostlarımız var. Biz onlarla birlikdə çalışmağı özümüzə qadağan etməmişik (gülür). Lazım olduqca digər teatrlarla əməkdaşlıq edirik. Mən 3 il yarım Gəncə Dövlət Dram teatrında da çalışmışam. Mənim orda çox istedadlı və dəyər verdiyim sənətçi dostlarım var. Digər teatrlarla əməkdaşlıq etməyə çox həvəsli və maraqlıyam.

Ancaq rejissor kimi əsas iş yerim YUĞ teatrıdır. Bu teatrın özəl poetikası, metodikası var. Biz də bunu öyrənmişik. Bu bizim üçün çox maraqlıdır, önəmlidir "Yuğ" teatrı mənim üçün tükənməz sərvət kimidir. Ömür boyu gedəcək bir yol kimidir.

**-Əsərləri seçərkən onu dərhal göz önündə canlandırırsınız, yoxsa əsər haqqında düşünmək üçün özünüzə zaman verirsiniz?**

-Məncə, hər bir insan istənilən ədəbi materialı oxuyanda onun gözünün önündə nələrsə canlanır. Personajların karakterindən, kimliyindən aslı olmayaraq, müəyyən aktyorlar göz önündə dayanır. Təbii ki, bu, ilkin yanaşmadır. Sonradan düşünmək, daha dəqiq fikirlər irəli sürmək, daha geniş idealar vermək prosesi başlayır.

Bizim teatrda aktyorlar istənilən rolları ifa edə bilir. Aktyor ona verilən tapşırığı yerinə yetirməlidir.

**-Bir aktyor hansısa rolu ifa etməyi özünə qadağa qoya bilər?**

-Hər halda aktyor da bir insandır. Onun da öz prinsipləri var. Bu başadüşüləndir. Ancaq sənətçi ona verilən hər rolu oynamaq iqtidarında olmalıdır. Aktyor özünə qadağa qoymasa yaxşıdır.

**- İnsanların şablonlaşdırdığı bir ifadə var: "İncəsənət qurban tələb edir". Maraqlıdır, qurban dedikdə nəyi nəzərdə tuturlar?**

-Bilirsiniz, bu sənətdə var olmaq olduqca çətindir. Həm psixoloji, həm sosioloji baxımdan bu sənətin ağırılığı var. İnsanlar da bu ifadəni bir bənzətmə kimi işlədirlər. Bununla razılaşmaq olar ki, insan bu sənətə tamamilə özünü həsr etməlidir. Onda bir şeylərə bəlkə də nail olmaq olar. Bu fədakarlığa kimsə qurban, kimsə həsr etmək deyə bilər. Görünür ki, bu sənət insandan daha çox sevgi, diqqət və zəhmət tələb edir.

-Məlum məsələdir ki, aktyorların və rejissorların maddi durumu ürəkaçan olmaya bilər. Bəlkə insanlarda həmin fikir bundan dolayı formalaşıb...

- Əlbəttə, məsələnin həm maddi, həm mənəvi tərəfi var. Təbii ki, asan deyil. İndiki dövrdə teatrda çalışmaq, sənətçi olmaq həm cəsarət, həm də böyük dözüm tələb edir.

**- Gümrah müəllim, son günlərdə bir yenilik oldu. Ağdam teatrında "Naməlum Axundzadə" tamaşasını səhnələşdirdiniz. Tetar haqda təsuratlarınızı bilmək maraqlı olardı..**

-Mənim üçün çox maraqlı oldu. Bildiyiniz kimi, bu il Azərbaycan teatrının 150 illik yubileyi idi. Bununla əlaqədar Mədəniyyət Nazirliyi form keçirdi. Biz də tədbirdə iştirak etdik. Biz sıra məslələr müzakirə olundu. Məlum oldu ki, deyilənlər sözdə qalmadı. Müəyyən yeniliklər var. Bu baxımdan Mədəniyyət Nazirliyinin birgə layihəsi olaraq ilk növbədə "Ustad dərsi" keçməyi planlaşdırdıq. Onun da nəticəsində bir tamaşa hazırlandı.

Orda çox isti bir münasibtə var idi. Məncə, bu, ən önəmli və vacib məsələdir. Biz hətta yenidən görüşmək, yeni layihələr üzərində işləmək haqqında danışdıq. Bu, mənim üçün məhsuldar prosses oldu. Məlumdur ki, hər yerdə istedadlı insanlar var. Yetər ki, o istedadlı insanlarla doğru ünsiyyət qurulsun. Hesab edirəm ki, kifayət qədər biz o ünsiyyəti qura bildik. Təbii ki, o teatrın yerləşdiyi məkan o qədər də ürəkaçan deyil, müəyyən texniki çatışmazlıqları var, əsl teatr binası deyil. Arzu edək ki, həmin Ağdam teatrı öz məkanına geri dönsün. Biz də onlarla yenidən əməkdaşlıq edərik.

**- Bölgə teatrı tamaşaçı qıtlığı yaşayır...**

- Ümumi deyə bilmərəm. Amma bizim tamaşada zal tam dolu idi. Təbii ki, biz də postdramatik teatr xarakterli bir tamaşa hazırlamışdıq. Ənənədən uzaq bir tamaşa idi. İnsanların ona necə maraqla baxmağı, müəyyən nüanslara reaksiya vermələri məni çox sevindirdi.

Xalqımızın daim teatra sevgisi olub. Gənclərin teatra marağının olması çox sevindiricidir. Həmin tamaşada hər nəslin nümayəndələri vardı. Ancaq gənclər daha çox idi. Bu sevindirici haldır.

**- Həm də pedaqoqsunuz. Hansı keyfiyyət, hansı xarakter, hansı məqam bir tələbədə sizi cəlb edə bilər?**

-Pedaqoji fəaliyyətin də öz mürəkkəbliyi var. Hesab edirəm ki, tələbəyə fərdi yanaşmaq gərəkdir. Çünki onlar hamsı eyni cür deyil. Biri tez, biri gec qavrayandı, biri çox məsuliyyətli, digəri məsuliyyətsizdir v.s. Bu məsələlər onların kimliyini göstərən məsələlərdir. Bizim vəzifəmiz və borcumuz onlara sənəti öyrətmək, bildiklərimizi dəqiqliklə doğru-düzgün aşılamaqdır. Bildiyiniz kimi biz aktyor və rejissorlara dərs keçirik. Onlar yaradıcı insanlardır. Onların özləri ilə məşğul olmaq, özlərini tanımaq, onların bir sıra məsələlərini çözmək üçün onlara dəstək olmalıyıq. Özlərini özlərinə tanıtdırmalyıq.

**- Özlərini özlərinə tanıtdırmaq çətin məsələdir?...**

-Olduqca çətindir. Bu məsələ kifayət qədər səbr tələb edən məsələdir.

**-Teatr səhnəsində çıxış etmək asandır, yoxsa sosial məsələlərdən çıxış yolu tapmaq?**

- Sosial məsələlərdə təcrübəm elə də çox deyil. Baxıram ki, sosial məsələlərdə bir sıra yanlışlıqlara yol verirəm. Elə şeylər olur ki, diqqət yetirmirəm. Məni daha çox yaradıcılıq, teatr məsələləri məşğul edir.

Çalışmaq lazımdır ki, başqasının azadlığını əlindən almayasan, başqasına bir ziyan vurmayasan. Çünki bunlar son anda insanın özünə qarşı yönələn bir məsələdir.

**- Yaradıcılığınızda hansı yeniliklər gözlənilir?...**

- Türkiyənin Mersin şəhərində beynəlxalq teatr festivalı keçirilir. YUĞ teatrı da bu festivala dəvət alıb. Biz da hazırda qostrol səfərinə hazırlaşırıq. Mersin teatrında mənim quruluş verdiyim Henrix İbsenin əsəri əsasında hazırlanmış "Vəsvəsə" tamaşası ilə iştirak etmək fikrindəyik.

Eyni zamanda paralel olaraq teatrımızın poetikası haqda gənclərlə "Ustad dərsi"miz olacaq.

**Əntiqə Kərimzadə**

## Nigar Şabanova: "Xalq artistlərinin başı qarışıb pul qazanmağa, sevgiliyə"



**"Efirlərimiz niyə bu günə qalıb. Kanalların hamısı bir-birinin bəhsinə, reytinq xətrinə bütün tərbiyəsizlikləri edirlər. Heç kim buna nəzarət etmir".**

Bunu Əməkdar artist Nigar Şabanova öz "Instagram" profilində yazıb.

O son günlərdə efirlərdə müzakirə olunan ailə dramlarını qınayıb.

"Namusunu itirən, analığını unudan, kişiliyini bilməyən hamı efirdə qışqır-bağır salıb bir-birinin üstünə hücum çəkib, pis sözlər deyir. Televiziya mədəniyyət ocağıdır. Budur Azərbaycan mədəniyyəti? Bu biabırçılığa nə zaman son qoyulacaq. Reytinqə görə artıq sizdən hər axmaq hərəkət gözlənilir. Xalq artistlərinin başı qarışıb pul qazanmağa, sevgiliyə. Biriniz ayağa qalxıb danışmırsınız ki, axı o efirlərə biz də çıxırıq. Düz söz danışmırsınız ki, axı o efirlərə biz də çıxırıq. Düz söz danışanda da olursan pis insan. Budur Azərbaycan qeyrəti, namusu, əxlaqı. Əvvəllər arvadı pis yola düşən kişi gizlənirdi, indikilər efirə çıxıb deyir "papağıma söyün". Azərbaycan kişiləri bunlar deyil. Bizim kişilərin qeyrəti, namusu, şərəfi var. 44 günlük müharibədə Azərbaycan kişisi özünü göstərdi. Pisləri niyə çıxarırsınız ora. Bazardır elə bil. İndi görün ki, namus, qeyrət peşəylə deyil, qanla bağlıdır".

**Əntiqə**

## Üzeyir Mehdizadə: "... kişilik məktəbi görmüşəm"



Müğənni Üzeyir Mehdizadə şou proqramların birində atası haqqında danışıb.

Adalet.az bildirir ki, o, atasını ancaq gözəl xatırladığını, onunla qürur duyduğunu qeyd edib. Müğənni atasından danışarkən kövrəlib:

"Onlar(ata- ana) dünyadan köçsələr də onlarıb zəhməti bizim yaddaşımızdan silinmir. Çox istəyərdim ki, onlar sağ ikən onlara dəyər verək. Mən həmişə atamla qürur duymuşam. Ondan kişilik məktəbi görmüşəm. Atanı övladı kimi tanıyan olmaz. Atam çox qayğıkeş, mehriban insan idi. Çox açıqsözlü idi. İradları olanda mütləq deyirdi, məsləhətlər verirdi. Ölümündən bir neçə gün öncə xəstəxanaya getməzdən əvvəl deyəcəyini dedi."

**Əntiqə**

# "Bakinski raboçi"nin redaktoru, 70 il heykəlinə gül düzdüyümüz Arsen Əmiryanın erməniliyi

**Bu gün fəaliyyəti ilə cəllad Stepan Şaumyandan geri qalmayan daha bir daşnak erməninin - 26 Bakı komissarlarından biri olmuş Arsen Əmiryanın doğum günüdür. Bəli, ermənilər Bakıda oturaraq bakılılara və bütün Azərbaycana qarşı cinayət əməllərini hər tərəfli şəkildə həyata keçirə bilib.**





Adalet.az xəbər verir ki, 10 noyabr 1881-ci ildə Bakıda anadan olan Arsen Minas oğlu Əmiryan türkə qarşı nifrət ruhunda böyüyüb. 1865-ci ildə çar hökuməti tərəfindən Bakıda rusdilli orta təhsil verən ilk gimnaziya məktəbi açılır və Arsen 1898-ci ildə yerli gimnaziyanın məzunu olaraq oranı bitirir. 1899-cu ildə Kiyev Universitetinin hüquq fakültəsinə daxil olur. 1902-ci ildə tələbə inqilabi çıxışlarında iştirak etdiyi üçün universitetdən qovulur və Bakıya köçür.

Bir erməni kimi Arsenin xalqımıza nifrəti Azərbaycana qarşı planlı hərəkət etməyə vadar edir. O dövr üçün silahdan daha güclü olan söz bu sahədə Əmiryanın dadına çatır. Beləki, 1906-cı ilin may ayından bəri çap olunan "Bakinski raboçi" ictimai-siyasi qəzeti istədiyiklərini həyata keçirmək üçün əsl tranplin rolu oynayır.

Təəccüblü olan odur ki, yarandığı gündən Azərbaycanın milli maraqlarının əleyhinə yazan "Bakinski raboçi" bu gün də fəaliyyət göstərir . Rus dilində nəşr olunan qəzetin redaksiya heyətinə A.M.Amiryan, V.İ.Naneyşvili, N.N.Kolesnikova, M.İ.Batırev, S.D.Vulfson, P.A.Caparidze, V.F.Yefimov, S.S.Spandaryan, S.Şaumyan daxil idilər. Birinci nömrəsi 1906-cı il mayın əvvəllərində Bakıda gizli çıxmış və ilk nömrədən sonra nəşri dayandırılmışdı. Qəzetin ilk nömrəsinin hazırlanmasında M.İ.Batırev, V.P.Noqin, V.F.Yefimov, B.A.Radus-Zenkoviç, S.D.Vulfson, A.A.Caparizde və başqa şəxslər iştirak ediblər. Müxtəlif vaxtlarda N.Nərimanov, S.M.Kirov, Q.K.Orconikidze, S.M.Yafyandiyev, A.P.Serebrovski, R.Ə.Axundov, Q.M.Musabəyov və başqaları bu qəzetin səhifələrində çıxış ediblər. O dövrdə "Bakinskiy raboçi" ("Bakinskiy raboçiy") qəzetinin redaktoru olmuş, dərc etdirdiyi məqalələrlə erməniləri azərbaycanlılara qarşı mübarizə və müharibəyə ruhlandırmağı bacarmışdı.

Erməni əsilli bolşevik, inqilabçı, jurnalist, natiq Arsen Əmiryanın və digər səlahiyyətli ermənilərin Azərbaycan türkünə, müsəlmanlara nifrətinin faktiki göstəricisidir ki, ermənilər ölkəboyu soyqırım həyata keçirərək, azərbaycanlıları bir millət, xalq olaraq Yer üzündən silməyi hədəflədilər.

Jurnalist Arsen Əmiryan adlı bir erməni sevincək və qalib ədası ilə yazırdı: "Bakinski raboçi" qəzetinin 1918-ci il 28 may nömrəsində dərc olunmuş məqaləsində öz qan qardaşlarının cinayətləri haqqında yazırdı: "Daşnaklar İrəvan quberniyasında 200 müsəlman kəndini dağıdıb yerlə-yeksan etmişlər. Camaat evsiz-eşiksiz və çörəksiz qalıb. Hazırda Zəngəzur bölgəsində qırğınlar və qətl-qarətlər davam edir. Daşnaklar müsəlman kəndlilərini bax beləcə qırır". Tarixi mənbələrdə qeyd olunur ki, 1918-ci ilin mart ayınadək erməni silahlı dəstələri təkcə İrəvan quberniyasının İrəvan qəzasında 32, Eçmiədzin qəzasında 84, Novo-Bəyazid qəzasında 7 və Sürməli qəzasında 75 kəndi - üst-üstə 198 kəndi darmadağın edib, həmin qəzalarda təqribən 135 min nəfər soydaşımızı soyqırıma məruz qoyub. 1918-ci il aprelin əvvəlində Gümrü şəhərinə daxil olan şovinist Andranikin qoşunları ayın 18-də Axalkələk istiqamətində hərəkət edərək onlarla azərbaycanlı kəndini viran qoydu. Kazım Qarabəkir Paşanın "1917-20 arasında Ərzincandan İrəvana erməni zülmü" kitabında ermənilərin törətdiyi kütləvi qırğınlar sənədlərin dili ilə qələmə alınmışdır.

K. Qarabəkir Paşa yazır: "29.04.1918-ci ildə Gümrüdən 500 araba ilə Axalkələkə köçürülməkdə olan 3000-ə qədər qadın, qoca, uşaq və kişi öldürülərək yox edilmişdir; min əsgər, iki pulemyot və iki topla silahlanmış ermənilər Qağızmanın şərqindəki Qulp (Duzluca) və İrəvan bölgəsindəki islam kəndlərini dağıtmış, qadın, uşaq və kişiləri qırmışlar; 01.05.1918-ci ildə yüzə qədər erməni atlısı Şiştəpə və Düzkənd ətrafında (indiki Amasya rayonunun ərazisində) 60 uşaq, qadın və kişini öldürmüşlər; 01.05.1918-ci ildə Axalkələk ətrafındakı kəndlərdə Acaraca, Danqal, Mulanıs, Murcahet, Padızka, Havur və Gümris kəndləri yandırılmış, əhalisi məhv edilmişdir. Arpaçay üzərindəki Bacoğlu ilə İrəvanın şimal-şərqindəki kəndlərin xalqı ermənilər tərəfindən qırılmış, kəndlər tamamilə yandırılıb dağıdılmışdır. Türk ordusunun önündən qaçan erməni silahlı dəstələri ən böyük qətliamlardan birini 1918-ci ilin aprelində Gümrüdə törətmişdilər. Türklərin gəlişindən öncə ermənilər şəhərdə yaşayan azərbaycanlı ailələrini təhlükəsiz şəkildə Qars vilayətinə keçməyə şərait yaradacaqları vədi ilə aldadıb onları gecə ikən yola düşməyə vadar etmiş və Arpaçayın sahilində 500-dən artıq azərbaycanlı ailəsini məhv etmişdilər. Həmin qətliamdan tək-tük azərbaycanlı gənc Arpaçayı keçərək salamat qalmışdı".

Bunu yazan erməni jurnalist ermənilərin silahlandırılmasında və dəstə şəklində dinc azərbaycanlı əhaliyə qarşı hücuma keçməsində böyük rolu olub. Arxiv sənədləri təsdiq edir ki, Şaumyan və Caparidzenin istiqamətləndirdikləri "döyüş əməliyyatlarında" onların məsləkdaşları Arsen Əmiryan və Qriqoru Korqanov "şəxsi nümunə" göstərirdilər. Martın 30-da İsmailiyyə binasının yandırılması əməliyyatına Əmiryan başçılıq etmişdi. Şamaxıda və Qubada əllidən çox kənd Korqanovun bilavasitə iştirakı ilə talan edildikdən sonra yandırılmışdı.

1918-ci il mayında a Ənvər Paşa qardaşı Nuru Paşanı Qafqaz İslam Ordusunu qurmaq məqsədilə Azərbaycana göndərdi. Düşmən türk ordusunun hücumları qarşısında tab gətirə bilmədi və şəhər işğalçılardan azad edildi. Bakı Xalq Komissarları Sovetinin üzvləri - Bakı komissarları (26 nəfər) icra orqanın fəaliyyətini dayandırdılar .

1918-ci il sentyabrın 20-nə keçən gecə onlar Bakını Türk-Azərbaycan-Dağıstan qoşunlarına təslim etdiyi üçün Türküstan hökumətinin əmri ilə Krasnovodsk yaxınlığında - Ağcaqum çölündə güllələndiyi məlumatları yayıldı. Bakının ən böyük prospektlərindən biri (hazırki Ziya Bünyadov prospekti) 70 il Arsen Əmiryanın adını daşıyıb

1. Məşədi Əzizbəyov - Bakı quberniyasının komissarı.
2. Baqdasar Avakyan - Bakı şəhərinin komendantı.
3. Tatevos Amirov - kovaler dəstəsinin komandiri.(Arsen Əmiryanın qardaşı)
4. Arsen Əmiryan - "Bakı fəhləsi" qəzetinin redaktoru.
5. Meer Basin - hərbi-inqilab komitəsinin üzvü.
6. Eyjen Berq - matros.
7. Anatoli Boqdanov - xidmətçi.
8. Solomon Boqdanov - hərbi-inqilab komitəsinin üzvü.
9. Armenak Boryan - jurnalist.
10. Mir Həsən Vəzirov - torpaqbölmə üzrə xalq komissarı.
11.İvan Qabışev - briqada komissarı.
12.Prokofiy Caparidze - Bakı fəhlə, kəndli, əsgər və matroslar şurasının sədri,
13.Yakov Zevin - əmək üzrə xalq komissarı.
14.Mark Korqanov - hərbi-inqilab komitəsinin üzvü.
15.Qriqori Korqanov - Bakı xalq komitəsinin hərbi-dəniz işləri üzrə komissarı.
16.Aram Kostandyan - ərzaq üzrə xalq komissarının müavini.
17.İvan Malıqin - Kavkaz ordusunun hərbi-inqilab komitəsinin sədri.
18.İrakliy Metaksa - Şaumyanın şəxsi cangüdəni.
19.İsay Mişne - hərbi-inqilab komitəsinin işçisi.
20.İvan Nokolayşvili - Caparidzenin şəxsi cangüdəni.
21.Suren Osepyan - "Bakı şurasın xəbərləri" qəzetinin redaktoru.
22.Qriqori Petrov - Bakı şəhər mərkəzi hərbi hakimiyyətinin sədri, qırmızı dəstənin komandiri.
23.Vladimir Poluxin - hərbi-dəniz işləri üzrə komissar.
24.Fyodr Soltsev - hərbi işçi.
25.İvan Fioletov - xalq təsərrüfatı şurasının sədri.
26.Stepan Şaumyan - Qafqaz üzrə fövqəladə komissar, Bakı xalq komissarları şurasının sədri.

**P.S. Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev yazır: "2009-cu ilin yanvarın 24-26-da indiki Sahil bağı ərazisində o məzarlığın sökülüb ümumi şəhər qəbiristanlığına köçürülməsi zaman orada cəmi 23 cəsədin qalıqları tapılıb. Stepan Şaumyan, Tatevos Əmiryan və çəri- şəhərdə komendaturaya rəhbərlik etmiş Arsen Avakyanın cəsədləri orda olmayıb.**

**1919-cu il fevralın 26-da Gürcüstanın diplomatik nümayəndəsi Tiflisdən Azərbaycan Respublikasının xarici işlər nazirinə belə bir teleqram göndərib: "Tiflis radiostansiyası Həştərxandan Sokolovun (güman ki, senatorun) adına göndərilən, hərbi əsirlərin - Şaumyan və başqalarının müttəfiq missiyanın həbs edilmiş üzvləri ilə dəyişdirilməsinə aid radioteleqram tutub. Özü də teleqram aşağıdakı sözlərlə bitir: "Tezliklə Bakıda görüşənədək".**

**"Sentrokaspi Diktaturası"nın qərargahında kargüzarlardan biri olmuş, sonra İkinci Dünya müharibəsi illərində alman bombardmanlarında həlak olmuş fransız Fransua Mirreyin xatirələrində də bəhs olunur: "Onlardan üçünü güllələmədilər, apardılar. Apardıqları yeri bilmirəm, çünki sirrdi".**

**Əntiqə Rəşid**

## Şahbaz Xuduoğlu: "Belə davam edərsə, bir neçə ilə Azərbaycan kitabı..."



**"Biz "Təkərli kitab" layihəmizi Bakı Beynəlxalq Kitab Sərgisində təqdim etdik. Orda hörmətli mədəniyyət nazirimiz Adil Kərimli də iştirak etdi, tanış oldu"**

**Bunu Adalet.az-a açıqlamasında "Qanun" nəşriyyatının direktoru, naşir Şahbaz Xuduoğlu deyib. Ş.Xuduoğlu bu cür kitab sərgilərinin keçirilməsinin faydasından da danışıb:**

**"Kitab sərgilərinin keçirilməsi çox effektlidir. İldənilə sərgilərə gələnlərin, ziyarətçilərin, qonaqların sayı artır. Yəni məncə, belə davam edərsə, bir neçə ilə Azərbaycan kitabı özünün ən yaxşı səviyyəsinə gəlib çatacaq. Qadağa olmasa, hər kəs bu sərgilərə gələ bilər. Yəni məktəblilər müəllimləriylə, təşkilatlar rəhbərləriylə sərgiyə qatılar. Kitabı təbliğ etməsən, heç kəs kitab oxumayacaq. Ona görə də bu mənada təşkilatlar da maraqlı olmalıdır, sərgiyə gəlməlidirlər.**

**Mənə elə gəlir ki, "Təkərli kitab" layihəsini hökumət qurumları dəstəkləsinlər və biz bunların sayını çox edək. Hörmətli nazirlə görüşümüzdə onun münasibəti məndə xeyli ümid yaratdı".**

**Vasif Əlihüseyn**

**Binəqədi Qəsəbə Bələdiyyəsi tərəfindən Əsədov Elxan İmran oğlunun adına verilmiş torpaq sənədi itdiyi üçün etibarsız sayılır.**

**Aqil Abbas və Əbülfət Mədətoğlu Şərif Ağayara atası Ziyadxanın vəfatından kədərlənir və dərin hüznlə baş sağlığı verirlər.**

**Allah rəhmət eləsin!**


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS

**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**



Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**



**Tiraj: 1500**
**Sifariş: 155**
Çapa imzalanmışdır: 16.11.2023